

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 dekabr 2023-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU Çinin Anhui Universiteti ilə əməkdaşlığı genişləndirir**

→Səh.2

**BDU rektoru Çinin Anhui Universitetinin nəzdində Azərbaycanşünaslıq Mərkəzi ilə tanış olub**

→Səh.2

**BDU rektoru Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının fəaliyyəti ilə tanış olub**

→Səh8

**BDU rektoru Pekin Universitetində olub**

→Səh.9

**BDU-da akademik Vasif Babazadənin 85 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib**

→Səh.11

**BDU İspaniyanın Qranada Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb**

→Səh.14

**AzTV-nin baş redaktorunun müavini ilə görüş**

→Səh.21



**BDU Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə anlaşma memorandumu imzalayıb**

→Səh.2



**BDU-da Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı konfrans keçirilib**

→Səh.4



**BDU-da professor Ədibə Paşayevanın 80 illik yubileyinə həsr olunmuş konfrans keçirilib**

→Səh.5



**BDU-da "Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət" kitabının təqdimatı**

→Səh.13



**BDU-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd olunub**

→Səh.24



## Müstəqil Azərbaycanı Zəfər yoluna çıxaran lider

***Əziz və unudulmaz xatirəsi həmişə bizimlə olan, daim sonsuz sevgi və ehtiramla andığımız Ümummilli liderin əbədiyyətə qovuşduğu 12 dekabr gününü 20 ildir ki, xalqımız dərin kədər və sonsuz ehtiramla qeyd edir.*** Dahi şəxsiyyət Heydər Əliyevin parlaq əməlləri, müdrik qərarları, xalqımızın xoşbəxtliyi və dövlətimizin qüdrətlənməsi naminə apardığı titanik mübarizə çoxəsrlik tariximizə misilsiz liderlik örnəyi, vətəndaşlıq rəşadəti nümunəsi kimi əbədi həkk olunub.

Ulu öndər Heydər Əliyevin adını qədirbilən xalqımız haqlı olaraq müstəqil Azərbaycan dövləti ilə qoşa çəkir. Dahi rəhbərin dövlətimizin və xalqımızın taleyindəki tarixi rolu, xilaskarlıq missiyasının böyüklüyü zaman keçdikcə daha aydın görünür, qalib və qüdrətli ölkəmiz bu mənzərənin işığında inamla və qürurla böyük gələcəyə doğru addımlayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə "Heydər Əliyev İli" elan edilmiş 2023-cü ildə Ümummilli liderin arzuları, ideyaları bütünlüklə gerçəkləşdi, Ulu öndərin müqəddəs ruhu bir daha şad oldu. Məhz "Heydər Əliyev İli"ndə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yüksəliş və Zəfər tariximizin yeni və parlaq səhifələri yazıldı – ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu, konstitusiya quruluşumuz bütün ərazilərimizdə bərqərar edildi. Müzəffər Ali Baş Komandanın illərlə həsrətində olduğumuz tarixi torpaqlarımızda – Xankəndidə, Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə Azərbaycanın Dövlət bayrağını ucaltması "Heydər Əliyev İli"nə əlavə möhtəşəmlik gətirdi.

Dünya şöhrətli dövlət xadimi Heydər Əliyev elə bir fenomenal şəxsiyyətdir ki, zaman keçdikcə, onun zəngin irsi, ictimai-siyasi fəaliyyəti, ən mürəkkəb, ziddiyyətli şəraitlərdə verdiyi tarixi qərarlarının nəticələri tədqiqatçıların diqqətini dönə-dönə cəlb edir, müdrik rəhbərin mənalı həyatı və zəngin dövlətçilik fəaliyyəti daha dərindən öyrənilir. Hər dəfə də bu zəngin irsin, xalqın və dövlətin rifahına yönəlmiş misilsiz fəaliyyətin yeni nüansları, məqamları ortaya çıxır.

Ümummilli lider Heydər Əliyev çıxışlarının birində demişdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub". Bu çətin, eyni zamanda, şərəfli missiya Ulu öndərin xüsusi xidmət orqanlarında fəaliyyətə başladığı illərdən respublikamıza rəhbərlik etdiyi, müstəqil Azərbaycanın təməllərinin qurulmasına və nəhayət müstəqil dövlətimizin tərəqqisinə və inkişafına qədər olan böyük bir yolu əhatə edir.

*(ardı 6-cı səhifədə)*

**BDU-nun "Heydər Əliyev adına təqaüd"çüsü: "Təqaüdümün bir hissəsini "YAŞAT" Fonduna ianə edəcəyəm"**

→Səh.24

# BDU Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə anlaşma memorandumu imzalayıb

***Dekabrın 1-də BDU Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalayıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli imzalayıblar.

İmzalanma mərasimində çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ölkəmizdə son illər yaradılan ən innovativ qurumlardandır: "Milli Observatoriya sorğu, monitorinq yolu ilə məlumatların toplanılması, təhlili, tədqiq olunması, qiymətləndirilməsi və ona uyğun fəaliyyətin qurulmasını həyata keçirir. Ali təhsil müəssisələrinin də fəaliyyətinin bu sistemlə qurulması effektiv nəticələr verə bilər. Əmək bazarının tələblərinin nəzərə alınması, məzunlarımızın yüksəkixtisaslı kadrlar kimi yetişməsi, müasir dövrün çağırışlarına uyğun ixtisasların yaradılması bizim üçün önəmlidir. Milli Observatoriya ilə birgə layihələr, elmi-tədqiqatlar aparıla, təcrübə mübadiləsi həyata keçirilə, ustad dərsləri təşkil oluna bilər.





Təcrübə proqramları vasitəsi ilə tələbələrin iş mühitinə adaptasiya olunması və əmək bazarına inteqrasiyası ali təhsil müəssisələri üçün mühüm əhəmiyyət daşıyır. Bu baxımdan imzalanan anlaşma memorandumunun faydalı olacağına əminəm".

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli də BDU ilə əməkdaşlığın hər iki qurum üçün uğurlu olacağını bildirib. O qeyd edib ki, 104 illik tarixə malik olan BDU-nun elmi potensialından, Milli Observatoriyanın topladığı təcrübələrdən istifadə etməklə faydalı əməkdaşlıq qurmaq mümkündür: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) vətəndaşlara 159 adda xidmət göstərir, onlardan 140-ı artıq elektronlaşdırılıb. Milli Observatoriyanın Sorğu və Monitorinq Mərkəzində nazirliyin fəaliyyət istiqamətləri üzrə 12 minə yaxın respondentlə müxtəlif mövzularda sorğular keçirilib. Bu sorğuların keçirilməsində BDU tələbələri də aktiv iştirak edirlər. Həmin sorğuların təhlil olunmasına BDU alimləri də böyük fayda verə bilərlər".

Qeyd edək ki, memorandum çərçivəsində BDU-nun elmi potensialından istifadə etməklə əmək bazarı, məşğulluq, sosial müdafiə və demoqrafiya məsələləri, ölkənin əmək bazarında sağlam korporativ münasibətlərin formalaşdırılması, qeyri-formal məşğulluğun mövcud vəziyyətinin qiymətləndirilməsi, onu yaradan səbəb və risklərin aradan qaldırılmasının elmi-nəzəri əsasları işlənib hazırlanacaq. BDU ilə Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın əmək bazarının və məşğulluğun cari və perspektiv vəziyyətinin qiymətləndirilməsi, strateji məşğulluq sahələrinin, onların gələcək inkişaf meyllərinin müəyyən edilməsi, perspektiv peşə və ixtisaslara, zəruri bacarıqlara və səriştələrə olan tələbatın proqnozlaşdırılması, habelə BDU-nun məzunlarının əmək bazarına adaptasiya vəziyyətinin təhlil edilməsi sahələri üzrə birgə tədqiqatlar, araşdırmalar, təhlillər və maarifləndirmə işləri aparması, təhsilalanların istehsalat təcrübəsinin təşkil edilməsi ilə əlaqədar birgə fəaliyyət göstərməsi nəzərdə tutulur.

# BDU rektoru Çinin Anhui Universitetinin nəzdində Azərbaycanşünaslıq Mərkəzi ilə tanış olub

***Dekabrın 12-də BDU-nun rektoru Elçin Babayev Çin Xalq Respublikasının (ÇXR) Anhui Universitetinin nəzdində Azərbaycanşünaslıq Mərkəzi ilə tanış olub.*** Rektor Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin keçirildiyi və "Heydər Əliyev İli"nin elan olunduğu ildə BDU-dan olan nümayəndə heyətinin ÇXR-ə səfərinin xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb. 12 dekabrın Ümummilli Lider Heydər Əliyevin anım günü olduğunu qeyd edən rektor bildirib ki,



Azərbaycanın müasir tarixinin bir qərinədən artıq mərhələsi müdrik dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, müstəqil dövlət quruculuğu dövrü kimi Azərbaycan dövlətçiliyinin müasir tarixinə əbədi həkk olunub. Azərbaycan-Çin dostluğunun təməli də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Rektor Ümummilli Lider Heydər Əliyevin ideyalarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini deyib, Ulu Öndərin əziz xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını bildirib.

Daha sonra rektor Elçin Babayev Anhui Universitetində fəaliyyət göstərən Azərbaycanşünaslıq Mərkəzində yaradılan şəraitə görə də prezident Kuang Guangliyə minnətdarlığını bildirib.

# BDU Çinin Anhui Universiteti ilə əməkdaşlığı genişləndirir

***Dekabrın 12-də BDU-nun rektoru Elçin Babayev Çin Xalq Respublikasının (ÇXR) Hefei şəhərində yerləşən Anhui Universitetində olub.***

Anhui Universiteti ilə keçirilən görüşdə universitetlər arasında qarşılıqlı faydalı əməkdaşlığın yaradılması barədə geniş fikir mübadiləsi aparılıb. BDU rektorunun və nümayəndə heyətinin Anhui Universitetini ziyarət etməsindən məmnunluğunu bildirən prezident Kuang Guangli Anhui əyaləti, Hefei şəhəri və əsası 1928-ci ildə qoyulmuş universitet haqqında ətraflı məlumat verib. Bildirilib ki, Anhui Universitetində 30 mindən çox tələbə təhsil alır. Bu prosesdə universitetdə fəaliyyət göstərən 22 məktəb və kafedradan olan 2600-dən çox akademik heyət iştirak edir.

BDU ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayan prezident Kuang Guangli son illər Anhui Universitetində yeni texnologiyalar əsasında sənayenin inkişafı yönümlü tədqiqat istiqamətlərinə, materialşünaslığa, informasiya emalına, o cümlədən böyük verilənlər bazasının analizinə imkan verən tətbiqlərə xüsusi diqqət ayrıldığını qeyd edib. Anhui Universiteti ilə BDU arasında tələbələrin və akademik heyətin mübadiləsinin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

ÇXR-in Hefei şəhərində, xüsusilə BDU-ya dost olan Anhui Universitetində olmaqdan məmnunluğunu ifadə edən BDU-nun rektoru Elçin Babayev səmimi qarşılanmaya və ÇXR-ə işgüzar səfərlə bağlı göstərdiyi xüsusi diqqətə görə prezident Kuang Guangliyə təşəkkürünü bildirib. BDU-nun son illər müasir dövrün tələblərinə uyğun inkişafı istiqamətində həyata keçirilən işlərdən danışan rektor ÇXR-in universitetləri ilə əməkdaşlığa xüsusi önəm verildiyini diqqətə çatdırıb. BDU-da kadr hazırlığından, universitetin strateji hədəfləri və mövcud beynəlxalq əlaqələrindən bəhs edən Elçin Babayev xüsusilə də Anhui Universiteti ilə potensial əməkdaşlıq imkanlarını müsbət dəyərləndirib. Qeyd edilib ki, hazırda beynəlxalq standartlara uyğun islahatların aparıldığı mərhələdə Anhui Universiteti ilə əməkdaşlıq BDU-da universitetin potensialının gücləndirilməsi məqsədilə həyata keçirilən layihələrə əhəmiyyətli töhfə verə bilər.

Elçin Babayev BDU, Çin Xalq Respublikası Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi və Anhui Universiteti arasında bakalavriatura səviyyəsində Filologiya (Çin dili və ədəbiyyatı) ixtisası üzrə birgə ikili diplom proqramı üzrə səfər çərçivəsində imzalanan üçtərəfli müqavilənin Çin və Azərbaycan arasında təhsil mübadiləsinin təşviqinə, BDU-Anhui Universiteti əməkdaşlığının daha da gücləndirilməsinə və digər istiqamətlərə əhəmiyyətli töhfə verəcəyinə inamını ifadə edib.

Görüş zamanı Çin dili və ədəbiyyatı ilə yanaşı, digər sahələrdə də qarşılıqlı əməkdaşlıq və ikili diplom proqramı üzrə sənədlərin imzalanması üçün razılığa gəlinib. Universitetlər arasında tələbə və müəllim mübadiləsi, birgə tədqiqatların aparılması, ortaq tədbirlərin keçirilməsi, qarşılıqlı mühazirələrin və təlimlərin təşkili, beynəlxalq layihələrdə birgə iştirak və digər istiqamətlərdə əməkdaşlığın yaradılması nəzərdə tutulur. Daha sonra xatirə şəkilləri çəkdirilib.

Ziyarət çərçivəsində BDU-nun rektoru Elçin Babayev və nümayəndə heyəti Anhui Universitetinin mövcud infrastrukturu, geniş imkanlara malik kampusu və kitabxanası ilə tanış olub. Nümayəndə heyəti Anhui Universitetinin nəzdində fəaliyyət göstərən, müasir elmi avadanlıq və cihazlarla təchiz olunmuş Fizika və İnformasiya Texnologiyaları İnstitutunda, Hibrid materialların quruluşu və funksional nizamlanması üzrə əsas laboratoriyada yaradılan şəraitlə və aparılan elmi-tədqiqat işləri ilə yaxından maraqlanıb.

BDU-nun rektoru Anhui Universitetinin tarixinin və inkişaf yolunun nümayiş olunduğu muzeyi ziyarət edib, nüfuzlu qonaqlar üçün nəzərdə tutulan Universitetin xatirə dəftərinə ürək sözlərini yazıb.

# Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş simulyasiya konfransı keçirilib

***Dekabrın 7-də BDU-da Qoşulmama Hərəkatı Gənclər Təşkilatının təşkilatçılığı, Azərbaycan Gənclər Fondunun dəstəyi və BDU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş simulyasiya konfransı keçirilib.***

Müxtəlif universitetlərdən olan tələbələrin iştirakı ilə baş tutan konfrans "Rəqəmsal bölünmə və texnologiyanın əlçatanlığı: Rəqəmsal əlçatanlıqda fərqlərin araşdırılması və rəqəmsal uçurumun aradan qaldırılması üçün strategiyaların müzakirəsi, texnologiyaya bərabər çıxışın təmin edilməsi" mövzusuna həsr olunub.

BDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov konfransı açaraq gəncləri müzakirələrdə fəal olmağa çağırıb. Daha sonra çıxış edən Azərbaycan Xarici İşlər Nazirliyinin



Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəis müavini Samir Becanov konfransın gənclərin diplomatik bilik və bacarıqlarının artırılmasında vacib rol oynayacağını bildirib.

Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Pənahov isə nitqində diplomatiya sahəsində karyera sahibi olmaq arzusunda olan gənclərin bu cür məşğələlərdə iştirakının önəmini vurğulayıb. Konfrans plenar sessiyalar formatında davam edib.

Qoşulmama Hərəkatının müxtəlif üzv dövlətlərinin xarici işlər naziri rolunu icra edən gənclər müzakirələr zamanı aktiv fikir mübadiləsi apararaq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında mövcud olan rəqəmsal bölünmə problemi ilə bağlı həll yolları təklif ediblər.

Plenar iclaslardan sonra aparılan müzakirələr əsasında yekun sənəd qəbul olunub.

Tədbirin sonunda müzakirələrdə iştirakı ilə fərqlənən üç tələbə "Ən yaxşı nümayəndə", "Ən yaxşı jurnalist" və "Ən yaxşı debütant" mükafatları ilə təltif olunub.

Qeyd edək ki, Qoşulmama Hərəkatı (QH) Gənclər Şəbəkəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılıb. 2022-ci ilin iyulunda 60 dövlətin gənc nümayəndəsinin iştirak etdiyi QH Gənclər Şəbəkəsinin təşkilatçılığı ilə ilk dəfə keçirilən QH Gənclər Sammiti zamanı Şəbəkənin Təşkilata çevrilməsinə dair yekun sənəd olan Şuşa Akkordu qəbul edilib. Hazırda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının 50 Milli Bölmə nəzdində fəaliyyət göstərən yüzlərlə fəal üzvü Qoşulmama Hərəkatına üzv ölkələr arasında beynəlxalq dialoqa təkan verir.

# "Hüquq elminin və təhsilinin müasir inkişaf tendensiyaları" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib

***Dekabrın 21-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik və Hüquq fakültəsinin 95 illik yubileylərinə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir inkişaf tendensiyaları" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə BDU-nun rektoru Elçin Babayev açıb. Rektor Elçin Babayev bildirib ki, müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyev milli dövlətçilik salnaməsində öyrənilməsinə, tədqiqinə və təbliğinə hələ uzun illər böyük ehtiyac olacaq irs yaradıb. Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizə qızıl hərflərlə yazılıb. Ümummilli Liderin ikinci dəfə, ölkəmiz üçün həlledici məqamda xalqın təkidi ilə hakimiyyətə gəlişi dövlətimizi yox olmaq təhlükəsindən, vətəndaş müharibəsindən xilas edib. Bu gün Ulu Öndərin ideyaları, siyasi kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü təmin edildi, haqq savaşımız böyük Zəfər ilə başa çatdı. Şuşada, Xankəndidə, doğma torpaqlarımızda müqəddəs bayrağımız qaldırıldı. Bugünkü parlaq qələbəmiz məhz Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət müstəqilliyimizin möhkəm təməllərinin qoyulması, milli ruh, azərbaycançılıq məfkurəsinin yüksəlməyə başlaması, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar sayəsində qazanıldı.

Rektor bildirib ki, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı Bakı Dövlət Universiteti Ulu Öndərin irsinin tədqiqini, təbliğini özünün ən ali məqsədlərindən biri sayır. BDU-nun müəllimləri, tələbələri ölkəmizin qüdrətlənməsi, Ulu Öndər Heydər Əliyevin inkişaf doktrinasının həyata keçirilməsi istiqamətində öz missiyasını ləyaqətlə yerinə yetirir. Möhtərəm Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunmuş elmimizə və təhsilimizə xidmət göstərməkdən şərəf duyur.

Rektor diqqəti çatdırıb ki, 95 illik yubileyini qeyd etdiyimiz Hüquq fakültəsi də məhz dövlətimizin apardığı uğurlu təhsil siyasəti sayəsində sürətlə inkişaf edir: "Hüquq fakültəsi BDU-nun aparıcı və ən böyük fakültələrindəndir. 1927-1928-ci dərs ilində BDU-nun Şərq fakültəsinin nəzdində Hüquq şöbəsi fəaliyyətə başlayıb. Bu, Azərbaycan xalqının tarixində ilk dəfə olaraq milli hüquqşünas kadrların hazırlanmasının başlanğıcı idi. Hüquq şöbəsinin bazasında isə 17 dekabr 1928-ci ildə Hüquq fakültəsi təşkil edilib. BDU-nun və onun Hüquq fakültəsinin, ümumiyyətlə isə bütün Azərbaycan cəmiyyətinin inkişafında yeni mərhələ 1969-cu ildən, Ümummilli Liderin respublikamıza rəhbərlik etdiyi dövrdən başlayır. Ulu Öndərin o dövrdə uzaqgörənliyinin əsas istiqamətlərindən biri də Azərbaycanda beynəlxalq hüquq məktəbinin qurulması olub. Ölkəmiz 1991-ci ildə özünün müstəqilliyini bərpa etdikdən sonra Hüquq fakültəsi hüquqşünas kadrların yetişdirilməsinin əsas bazası kimi çıxış etməyə başladı. Hüquq fakültəsində bakalavriatura səviyyəsində Azərbaycan və rus bölmələri ilə yanaşı, 2012-ci ildən ingilis bölməsinə də qəbul həyata keçirilir. Klassik hüquq sahələri ilə yanaşı, yeni hüquq sahələrinin inkişafı üzrə də mühüm elmi məktəblər formalaşıb. Hüquq fakültəsində ikili diplom proqramları üzrə yaxşı təcrübə formalaşıb.

2013-2020-ci illəri əhatə edən və Almaniyanın Vürtsburq Universiteti ilə imzalanmış "Avropa hüququ" magistratura ixtisaslaşmasında ikili diplom proqramı üzrə Sazişlə BDU-nun Hüquq fakültəsinin 65-dən çox məzunu Vürtsburq Universitetinin magistr diplomunu da alıb.

Hazırda ikili diplom proqramları "Dəniz və enerji hüququ" magistratura ixtisaslaşması üzrə Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universiteti, "Əqli mülkiyyət hüququ" magistratura ixtisaslaşması üzrə Fransanın Lyon-2 Universiteti, "Mülki hüquq; ailə hüququ; beynəlxalq xüsusi hüquq; sahibkarlıq hüququ" doktorantura ixtisası üzrə Almaniyanın Halle-Vittenberq Universiteti ilə davam etdirilir.

Bundan başqa, yeni ikili diplom proqramlarının magistratura ixtisaslaşmaları üzrə Litvanın Vilnüs Universiteti və Almaniyanın Halle-Vittenberq Universiteti ilə qurulması üzərində ciddi işlər aparılır".

Sonra Hüquq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev çıxışında fakültənin 95 il ərzində şərəfli bir yol keçdiyini deyib. Bu illər ərzində Hüquq fakültəsi dövlət və hökumət qurumlarını yüksəkixtisaslı, peşəkar kadrlarla təmin edib. Hüquq fakültəsi hüquq elminin inkişafında və kadr hazırlığında əsas elmi mərkəzdir.

Ali Məhkəmənin sədri İnam Kərimov BDU-nun hər bir məzununun fəxr etdiyi bir ali təhsil müəssisəsi olduğunu deyib. Ali Məhkəmənin və məhkəmə korpuslarının hakimlərinin əksəriyyəti BDU-nun Hüquq fakültəsinin məzunudur. BDU ilə Ali Məhkəmə arasında uzun illərdir əməkdaşlıq əlaqələri mövcuddur. Hər il BDU-da Hüquqşünaslıq ixtisası üzrə təhsil alan xeyli sayda tələbə Ali Məhkəmədə və digər məhkəmələrdə təcrübə proqramlarında iştirak edir.

Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev çıxışında bildirib ki, əvvəllər Azərbaycanda hüquqşünas hazırlayan yeganə təhsil müəssisəsi Bakı Dövlət Universiteti idi. İndi isə bir neçə universitetdə, akademiyada Hüquq fakültələri var. O bildirib ki, hazırda prokurorluq orqanlarında 1244 prokurorluq işçisindən 825 nəfəri BDU-nun Hüquq fakültəsinin məzunudur. Bu da prokurorluq işçilərinin 66,3 faizini təşkil edir: "Mənim 3 müavinim də bu fakültənin məzunudur. Prokurorluq orqanlarında rəhbər vəzifələrdə işləyən 266 işçidən 173-ü, yəni 65 faizi BDU-nun Hüquq fakültəsində təhsil alıb. 2002-2023-cü illər ərzində prokurorluq orqanlarına test üsulu ilə imtahanlar keçirilib, 25 müsabiqə üzrə uğur qazanmış 700 nəfərin 56,3 faizi BDU-nun Hüquq fakültəsinin məzunu olub. Hazırda BDU-nun Hüquq fakültəsinin 260 tələbəsi prokurorluqda ictimai köməkçi vəzifəsində fəaliyyət göstərir".

Milli Məclis sədrinin I müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Ulu Öndər Heydər Əliyevin qanunçuluğa, insan hüquqlarına və demokratiyaya hörmətlə yanaşdığını, daim cinayətkarlığa qarşı mübarizə apardığını və Azərbaycanda hüquq islahatlarına rəhbərlik etdiyini deyib.

Ədliyyə nazirinin müavini Vilayət Zahirov 800-ə yaxın BDU məzununun ədliyyə orqanlarında çalışdığını bildirib. Qeyd edib ki, BDU-nun 155 məzunu Ədliyyə Nazirliyində rəhbər vəzifələrdə çalışır. Ədliyyə nazirinin 5 müavini BDU-nun Hüquq fakültəsinin məzunudur.

Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov çalışdığı qurumda Hüquq fakültəsini təmsil etdiyini deyib. O vurğulayıb ki, BDU-nun Hüquq fakültəsi hüquq təhsili verməklə yanaşı, hüquq elminə dair elmi araşdırmaların aparıldığı mərkəzdir.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva təmsil etdiyi qurum ilə BDU-nun Hüquq fakültəsinin əməkdaşlıq əlaqələrindən bəhs edib.

AMEA-nın müxbir üzvü, Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri Məsumə Məlikova bildirib ki, yüksəkixtisaslı hüquqşünas kadrlar hazırlayan Hüquq fakültəsi öz fəaliyyəti ilə dövlətçiliyimizin möhkəmlənməsinə xidmət etməkdədir.

Sonda Hüquq fakültəsinin tələbələrinin hazırladığı tamaşa nümayiş etdirilib.

Konfrans işini dekabrın 22-də yekunlaşdırıb.

# BDU-da Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı konfrans keçirilib

***Dekabrın 11-də BDU-da Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş konfrans keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndərin Universitetin foyesində qoyulmuş büstü önünə gül dəstələri qoyub, xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Sonra anım tədbiri BDU-nun Akt zalında davam edib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU TV-nin Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar hazırladığı videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev açıb. Bildirib ki, bəşər tarixində bir vətəndaşın öz dövlətinin timsalına çevrilməsi çox nadir hadisələrdəndir. Yer üzündə bu əlçatmaz zirvəyə yüksələn belə dahi şəxsiyyətlərdən biri məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizə qızıl hərflərlə yazılıb. Dahi şəxsiyyət Azərbaycana həm sovet dönəmində, həm də dövlət



müstəqilliyinin bərpa olunduğu dövrdə şərəflə rəhbərlik edib. Bu mərhələlərin hər biri ölkəmizin və xalqımızın taleyinin tənəzzüldən tərəqqiyə doğru dəyişdiyi dövr olmaqla bərabər, həm də Ulu Öndərimizin dövlətçilik fəlsəfəsinin əsasını təşkil edən azərbaycançılıq məfkurəsinin formalaşması ilə müşayiət olunub. Ulu Öndərin 1969-cu ildə respublika rəhbərliyinə gəlməsi ilə Azərbaycanın həyatında həlledici bir mərhələnin başlanğıcı qoyulub. Bugünkü qələbələrimizin, inkişafımızın təməli məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə və müdrikcəsinə respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə atılıb. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə, həlledici bir məqamda xalqın təkidi ilə hakimiyyətə gəlişi ölkəmizi parçalanmaqdan, dövlətimizi yox olmaq təhlükəsindən, vətəndaş müharibəsindən xilas edib. Heydər Əliyevin siyasi müdrikliyi, mükəmməl idarəçilik qabiliyyəti sayəsində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan keçid dövrünün çətinliklərini uğurla arxada qoyub. Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli Lider Heydər Əliyev ölkəmizin hər yerində və onun hüdudlarından kənarda belə hər bir azərbaycanlı tərəfindən yüksək ehtiram və dərin minnətdarlıq hissi ilə yad olunur.

Əliş Ağamirzəyev diqqətə çatdırıb ki, bu gün Ulu Öndərin ideyaları, siyasi kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz Ulu Öndərin müəyyən etdiyi xətti, dahi şəxsiyyətin uzaqgörənliyini cənab İlham Əliyev öz prezidentlik fəaliyyəti ilə təsdiqlədi. 44 gün davam edən Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu torpaqlarımızın 30 illik işğalına son qoydu, ölkəmizin ərazi bütövlüyü təmin edildi. Haqq savaşımız böyük Zəfər ilə başa çatdı. Şuşada, Xankəndidə, doğma torpaqlarımızda müqəddəs bayrağımız qaldırıldı. Bu parlaq qələbəmiz məhz Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət müstəqilliyimizin möhkəm təməllərinin qoyulması, milli ruh, azərbaycançılıq məfkurəsinin yüksəlməyə başlaması, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar sayəsində qazanılıb.

Daha sonra Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri Kamilə Əliyeva, Milli Məclisin üzvü Aydın Mirzəzadə, BDU-nun Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov və BDU-nun Əmək hüququ kafedrasının müdiri, professor Alış Qasımov çıxışlarında dahi liderin Azərbaycan xalqı və dövləti üçün gördüyü çoxşaxəli fəaliyyətindən, həyata keçirdiyi layihələrdən, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki misilsiz xidmətlərindən bəhs ediblər. Çıxışlarda natiqlər Azərbaycanın hərtərəfli tərəqqisi yolunda böyük tarixi xidmətlər göstərən, dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunmasına əvəzsiz töhfələr verən Heydər Əliyevin Vətənə sədaqət, xalqa fədakarlıqla xidmət nümunələrindən söz açıblar. Qeyd olunub ki, bütün varlığı ilə Vətənə və xalqına bağlı olan Ümummilli Lider Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə həsr edib.

# Filologiya fakültəsində Ulu Öndər Heydər Əliyevin xatirəsi yad edilib

***Dekabrın 12-də Filologiya fakültəsində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Tarix yazan sərkərdə" adlı tədbir keçirilib.*** Fakültənin professor-müəllim heyətinin və tələbələrin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış nitqi ilə çıxış edən Filologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Anar Fərəcov dünya şöhrətli dahi lider Heydər Əliyevin keşməkeşli ömür yolundan, müstəqil Azərbaycan dövlətinin qurulması və tərəqqisində, dünya arenasında böyük uğurlara imza atmasında, xalqımızın rifah halının yüksəlməsində misilsiz xidmətlərindən söz açıb. Bildirib ki, bu gün ölkəmizin sürətlə inkişaf etməsinin, müxtəlif sahələrdə aparılan quruculuq işlərinin, beynəlxalq miqyasda respublikamızın nüfuzunun daha da güclənməsinin və 2020-ci ildə əldə olunan tarixi Zəfərin arxasında uzun illər Ulu Öndərin həyata keçirdiyi böyük siyasi fəaliyyət dayanır.

"Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə" elmi-tədqiqat laboratoriyasının müdiri, dosent Nəzakət Hüseynova Heydər Əliyevin Azərbaycan dilinə və ədəbiyyatına xüsusi sevgisindən, ana dilimizə və ədəbiyyat xadimlərinə göstərdiyi diqqət və qayğıdan, bu istiqamətdə imzaladığı fərman və sərəncamların tarixi əhəmiyyətindən, işğaldan azad olunmuş ərazilərdə qısa müddətdə həyata keçirilən ədəbi-mədəni quruculuq işlərindən danışıb.

Tədbir tələbələrin ədəbi-bədii çıxışları ilə davam edib. Tələbələrdən Nuran Yaqubovanın Ulu Öndər haqqında yazdığı esse və Ləman Qafarovanın məruzəsi dinlənilib, Nərgiz Vəlizadə "Ulu Öndər", Validə Bayramlı isə "Vətən oğlu" şeirlərini səsləndiriblər.

# "Heydər Əliyev ideyaları - Yeni Azərbaycanın dövlətçilik irsi" adlı tədbir

***Dekabrın 7-də "Heydər Əliyev İli" çərçivəsində BDU-da Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatı və "Z.Xəlilov küç.33" ünvanı üzrə ərazi partiya təşkilatı ilə birgə " Heydər Əliyev ideyaları - Yeni Azərbaycanın dövlətçilik irsi" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi anılıb. Tədbirdə çıxış edən "Z.Xəlilov küçəsi 33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri Zahid Cəfərov bildirib ki, Ulu Öndər Heydər Əliyevin doğma Vətən və xalq qarşısında tarixi xidmətləri əvəzsizdir. Xalqının və dövlətinin mənafeyini daim üstün tutan Ümummilli Liderimiz müstəqil Azərbaycan dövlətinin qurucusu və memarıdır. Ulu Öndər daim Azərbaycanı düşünüb, onun müasirləşməsinə, qüdrətlənməsinə çalışıb.

YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən biri Şahlar Əsgərov qeyd edib ki, fəaliyyətinin hər dövründə Ulu Öndərin müqəddəs istəyi xalqın birliyinə söykənən güclü, möhtəşəm, qüdrətli dövlətin yaradılması olub. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Ümummilli Liderin səmərəli fəaliyyəti sayəsində mümkün olub. Ümummilli Liderin siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla və inamla davam etdirilir, güclü və nüfuzlu Azərbaycan yeni zirvələr fəth edir.

YAP Təftiş komissiyasının üzvü, Milli Məclisinin deputatı Sadiq Qurbanov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev milli dövlətçilik ideyalarını hər şeydən üstün tutub. O, öz parlaq siyasi zəkası və istedadı sayəsində müasir Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaradıb və gələcəyə aparan yolları müəyyən edib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev isə diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi zamanı xalqın rifahının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik misilsiz işlər görülüb. Bu gün müasir, müstəqil Azərbaycan Ulu Öndərin ideyaları əsasında inkişaf edir. Ümummilli Liderin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdi. Oktyabrın 15-də Xankəndi və digər ərazilərimizdə Müzəffər Ali Baş Komandanın Azərbaycanın Dövlət Bayrağını ucaltması tarixi Zəfərimizin zirvəsi oldu. Şübhəsiz, bütün bunların fövqündə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən, güclü siyasi iradəyə söykənən müstəqil strateji kurs dayanır.

Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev, dosent Şamo Cəbrayılov və Mexanika-riyaziyyat fakültəsinin II kurs tələbəsi Murad Muradlı çıxışlarında qeyd ediblər ki, XX əsrin sonlarında müstəqillik qazanan Azərbaycan Respublikasının mövcudluğu və respublikamızın dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilməsi Ümummilli Liderin tarixi fəaliyyətinin nəticəsidir. Ulu Öndər Heydər Əliyevin alternativi olmayan daxili və xarici siyasəti bu gün dahi rəhbərin siyasi varisi, Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir.

Sonra bir qrup partiya fəalına fəxri fərmanlar və partiya sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim olunub.

# ADMİU-nun 100 illik yubileyi BDU-da qeyd olunub

***Dekabrın 4-də BDU-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) 100 illik yubileyinə həsr olunmuş “Yüzillik” adlı tədbir keçirilib.***

BDU rektoru Elçin Babayev ADMİU-nun kollektivini 100 illik yubiley münasibətilə təbrik edib. Rektor bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ADMİU-nun 100 illik yubileyinin keçirilməsi haqqındakı Sərəncamı təkcə bu nüfuzlu təhsil ocağının fəaliyyətinə deyil, həm də ümumilikdə xalqımızın mədəniyyəti və incəsənətinə göstərilən böyük qayğının nümunəsidir: “ADMİU şərəfli inkişaf yolu keçmiş, dərin tarixi köklərə, ənənələrə malik, ölkəmizin peşəkar mədəniyyət və incəsənət işçiləri ilə zənginləşməsində mühüm rol oynayan, Azərbaycanın mədəni inkişafına




dəyərli töhfələr verən nüfuzlu elm, təhsil və mədəniyyət ocağıdır. Azərbaycanı dünyada tanıdan məşhur sənətkarlar və böyük ustadlar məhz bu universitetin məzunu olmuşlar. Onlardan bir çoxu hazırda bu universitetdə uğurla çalışır, öz bilik və bacarıqlarını əsirgəmədən yeni sənətkarlar nəslinin formalaşmasında fəal iştirak edirlər. ADMİU təxminən Bakı Dövlət Universiteti ilə eyni dövrdə yaranıb, BDU-dan sonra universitet statusu alan ikinci universitetdir. Hər iki universitet publik hüquqi şəxs kimi fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər iki ali təhsil ocağının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı Sərəncam imzalayıb. Bu illər ərzində BDU ölkəmizi Azərbaycanda və dünyada uğurla təmsil edən elm, təhsil işçiləri, ictimai-siyasi xadimlər, ADMİU isə tanınmış mədəniyyət xadimləri yetişdirib”.

ADMİU-nun rektoru Ceyran Mahmudova qonaqpərvərliyə görə BDU rəhbərliyinə təşəkkürünü bildirib, 100 illik yubileylə bağlı görülən işlərdən danışıb. Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı Prezidentin müvafiq Sərəncamını xatırladan rektor bunun böyük məsuliyyət olduğunu qeyd edib. Ceyran Mahmudova ADMİU-nun 100 ildə Azərbaycan incəsənətinə saysız-hesabsız sənətkarlar bəxş etdiyini deyib, bu şərəfli missiyanın davam etdiriləcəyini bildirib.

Daha sonra tədbir iştirakçıları ADMİU-nun Musiqi sənəti fakültəsinin hazırladığı konsertə tamaşa ediblər.

Konsert ADMİU-nun “Xəzər” tələbə xor kollektivinin (bədii rəhbər: Əməkdar müəllim Təranə Yusifova) ifası ilə başlayıb.

ADMİU-nun Xalq çalğı alətləri ansamblının, universitetin tələbələrdən ibarət Xalq çalğı alətləri orkestrinin, Xalq artistləri Mələkxanım Əyyubova, Gülyaz Məmmədova, Teyyub Aslanov, Simarə İmanova, ADMİU-nun müəllimləri Səxavət Məmmədov, Fariz Baxşəliyev, Mustafa Aşurov, tələbələrin ifasında səslənən musiqi nömrələri alqışlarla qarşılanıb.

# Professor Ədibə Paşayevanın 80 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

*Ədibə Paşayeva: “Xoşbəxt insanam ki, Mir Cəlal müəllimin ailəsində dünyaya gəlmişəm. Xoşbəxtəm ki, müəllimlik kimi yüksək missiyanın daşıcısıyam. Müəllim təkcə tədris etdiyi fənni yox, həyat dərsini də deməlidir. Çox xoşbəxtəm ki, bu missiyanı məhz BDU-da, Filologiya fakültəsində uğurla yerinə yetirirəm. Çünki həm Universitetin, həm fakültənin öz ənənələri, ab-havası var”.*

***Dekabrın 5-də BDU-da professor Ədibə xanım Paşayevanın 80 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev zəngin tarixə malik xalqımızın elm və təhsil ənənələri, maarifçilik ideyaları ilə bəşəriyyətin, dünya mədəniyyətinin inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdırıb. Azərbaycan elmi-fəlsəfi fikrinin görkəmli nümayəndələri yaratdıqları dəyərli əsərlərlə xalqımızın ümumi elmi təfəkkürünün inkişafında böyük rol oynamaqla bərabər, bəşəriyyətin elmi-mədəni yüksəlişinə də layiqli xidmətlər göstəriblər. Onların sırasında görkəmli filoloq-ədəbiyyatşünas, bacarıqlı təhsil təşkilatçısı, fəal ictimai xadim olan professor Ədibə xanım Paşayevanın özünəməxsus yeri var. Rektor qeyd edib ki, Ədibə xanım Paşayeva görkəmli ədəbiyyatşünas-alim, yazıçı və pedaqoq, BDU-nun sevimli və unudulmaz müəllimi, nüfuzlu professoru Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açıb. “Mir Cəlal ədəbiyyat tariximizin böyük ədəbi siması, Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında əvəzedilməz xidmətlər göstərmiş bir alim olmaqla bərabər, həm də yüksək mənəvi-əxlaqi dəyərlər daşıyıcısı olan bir şəxsiyyət kimi tarixdə iz qoyub. Ədibə Paşayeva bu dəyərli ailənin yadigarı, xalqımızın və BDU-nun sevimli alimi, müəllimidir”.





Rektor Elçin Babayev qeyd edib ki, təhsilini 1960-1965-ci illərdə BDU-da alan Ədibə Paşayevanın həyat və fəaliyyəti Universitet ilə ayrılmaz surətdə bağlıdır. O, ali təhsilini bitirdikdən sonra əmək fəaliyyətinə elə doğma Universitetdə başlayıb. Rus ədəbiyyatı kafedrasının müəllimi, baş müəllimi, Xarici tələbələr üçün rus dili kafedrasının müdiri işləyib. 2004-2019-cu illərdə BDU-nun Humanitar fakültələr üzrə rus dili kafedrasının müdiri olub. Linqvodidaktika, rus ədəbiyyatı tarixini tədqiq edən Ədibə Paşayeva bir çox kitab və dərsliklərin müəllifidir. Görkəmli alim 2019-cu ildən BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsində çalışır. Ədibə xanım Azərbaycan elmi və təhsilindəki yüksək xidmətlərinə görə “Tərəqqi” medalına, “Qabaqcıl təhsil işçisi”, “Əməkdar müəllim” fəxri adlarına layiq görülüb. Ədibə xanım BDU-nun 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2019-cu ildə 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilib. Həyatını elmə və təhsilə bağlamış Ədibə xanımı elmi ictimaiyyət gözəl alim, novator pedaqoq, qayğıkeş və nəcib insan kimi tanıyır. Onun yaradıcılığı, elmi-pedaqoji, ictimai fəaliyyəti, eləcə də əsl Azərbaycan xanımına xas nəcibliyi Azərbaycan gəncliyi üçün örnəkdir.

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxışında qeyd edib ki, Ədibə Paşayeva Azərbaycan elminin, Bakı Dövlət Universitetinin ən görkəmli nümayəndələrindəndir: “Ədibə Paşayeva Mir Cəlal ocağının yetirməsidir. Bu adı Mir Cəlal müəllim icad eləyib. Ədibə Paşayeva öz həyatı, fəaliyyəti ilə bu adın mənasını doğruldub. Mir Cəlal müəllimin İçərişəhərdə yerləşən evi – “Ədibin evi” də ədəbiyyatımıza xidmət məqsədilə fəaliyyət göstərir. Mir Cəlal ən gözəl əsərlərini məhz həmin evdə yazıb. Ədibə Paşayeva daşıdığı bütün vəzifələr içərisində müəllim vəzifəsini hamısından uca tutub, müəllim olduğunu bir dəqiqə belə unutmayıb. Mən Ədibə Paşayevaya müəllimlik kimi müqəddəs vəzifəsini həmişə yüksək səviyyədə daşımasını arzulayıram”.

Xalq şairi Nəriman Həsənzadə, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Təhsin Mütəllimov, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, akademik, Milli Məclisin (MM) üzvü Nizami Cəfərov, MM-in Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, “Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadə, BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının dosentləri Sona Çərkəz, Solmaz Əliyeva çıxışlarında Ədibə Paşayevanın Azərbaycan elminin, təhsilinin inkişafında əvəzedilməz xidmətlər göstərdiyini, yüksək insani keyfiyyətlərə malik olduğunu qeyd ediblər. Çıxışlarda professor Ədibə Paşayevanın ali və orta məktəblər üçün “Rus dili” dərsliklərinin hazırlanmasında xidmətləri xüsusi vurğulanıb.

Tədbirin sonunda söz yubilyara verilib.

BDU-nun Rus ədəbiyyatı kafedrasının müdiri, professor Ədibə Paşayeva təbriklərə görə minnətdarlığını bildirib: “Xoşbəxt insanam ki, Mir Cəlal müəllimin ailəsində dünyaya gəlmişəm. Xoşbəxtəm ki, müəllimlik kimi yüksək missiyanın daşıcısıyam. Müəllim təkcə tədris etdiyi fənni yox, həyat dərsini də deməlidir. Çox xoşbəxtəm ki, bu missiyanı məhz BDU-da, Filologiya fakültəsində uğurla yerinə yetirirəm. Çünki həm Universitetin, həm fakültənin öz ənənələri, ab-havası var”.

Daha sonra professor Ədibə Paşayevaya BDU-da uzun illər səmərəli elmi-pedaqoji fəaliyyətinə, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə verdiyi töhfələrə görə və 80 illik yubileyi münasibətilə Fəxri Fərman təqdim edilib.

# Müstəqil Azərbaycanı Zəfər yoluna çıxaran lider

(əvvəli 1-ci səhifədə)



Azərbaycan xalqı xoşbəxtdir ki, həmin tarixi yolu millət atasının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimizə, bu gün azad Qarabağımızda aparılan misilsiz quruculuq işlərinə qədər gətirib çıxardıb. Ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyənləşdirdiyi, parlaq, xeyirxah əməlləri ilə aydınlaşdırdığı, işıq saldığı müqəddəs yol bu gün də davam edir.

Unudulmaz rəhbərin siyasətinin başlıca hədəfi Azərbaycana və regiona sülh, sabitlik və davamlı inkişaf gətirmək idi. Qalib və qüdrətli Azərbaycanın Prezidenti İlham Əliyev bu gün həmin missiyanı şərəflə yerinə yetirir, ölkəmizin birmənalı lider olduğu regionda əbədi sülhün bərpası üçün qətiyyətli səylər göstərir. Dahi rəhbərin insanpərvərlik, humanizm siyasəti uğurla davam etdirilir. Müstəqil dövlətin qurucusunun ölkəmizin və regionun sabitliyi naminə həyata keçirdiyi müdrik siyasətin davamlılığı təmin edilir.

Xalqımızın qüdrətli oğlu Heydər Əliyevin “Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam” kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, “Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı” adlandırdığı Bakı Dövlət Universitetinin çoxminli kollektivi, tələbələri də bu ali məktəbin dünya şöhrətli məzunu Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği sahəsində ardıcıl səylərini davam etdirir. Çoxminli kollektivimiz bütöv, qüdrətli, qalib, Qarabağı azad etmiş, Xankəndidə Zəfər Paradı keçirmiş Azərbaycanın vətəndaşı olmağın sonsuz fərəh və qürur hissini yaşayır.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi BDU kollektivinin üzərinə böyük məsuliyyət qoymuşdur. Ulu öndərin zəngin irsinin təbliğini, bu irsin gənc nəslə aşılanmasını özünün ali məqsədi hesab edən universitetimizin professor-müəllim heyəti, tələbələrimiz “Heydər Əliyev İli”ndə bu istiqamətdə səylərini daha da artırmışdır. Bu məqsədlə Bakı Dövlət Universitetinin Elmi Şurasında Tədbirlər Planı qəbul olunmuşdur. Tədbirlər Planında müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin misilsiz, çoxşaxəli fəaliyyəti ilə bağlı beynəlxalq elmi konfransların keçirilməsi, fundamental kitabların hazırlanması, xüsusi mühazirələrin və dərslərin təşkili olunması, müxtəlif müsabiqə və festivalların keçirilməsi və s. kimi mühüm tədbirlər öz əksini tapmışdır.

Universitetin və ölkəmizin nüfuzlu alimlərinin, ictimai-siyasi, ədəbiyyat və incəsənət xadimlərinin iştirakı ilə təşkil olunan silsilə xüsusi mühazirələrdə, ustad dərslərində, dəyirmi masalarda tələbə gənclərə xalqımızı ağır sınaqlardan siyasi müdriklik və məharətlə, əzm və iradə ilə, dühasının və idrakının yenilməz gücü ilə çıxarmış, dövlət müstəqilliyinə, tərəqqiyə və dayanıqlı inkişafa qovuşdurmuş qüdrətli dövlət başçısı Heydər Əliyevin çoxşaxəli və zəngin fəaliyyəti, onun milləti, xalqı qarşısında misilsiz xidmətləri haqqında ətraflı məlumat verilir.

Xalqımızın və dövlətimizin ötən əsrin 70-ci illərindən başlayaraq əldə etdiyi bütün uğurlarının təməlində fenomenal şəxsiyyət Heydər Əliyevin müdrik siyasətinin, nurlu əməlləri və parlaq simasının dayandığı əsaslandırılır. Həyatının əsas məqsədi, başlıca amalı Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi olan dahi rəhbər bütün mənalı ömrünü bu ali məqsədlərə nail olunmasına həsr edib, dövlətimizin möhkəmlənməsində, xalqımızın rifahının yüksəldilməsində misilsiz xidmətlər göstərib.

“Heydər Əliyev İli”ndə universitetin alimlərinin Ümummilli liderin fəaliyyətinin müxtəlif sahələrini özündə əks etdirən kitablar yazılması xüsusilə təqdirəlayiqdir. Universitetin nüfuzlu alimlərinin ərsəyə gətirdiyi bu nəşrlər bugünkü əhəmiyyəti ilə yanaşı, gələcək nəsillər üçün, elmi-tədqiqatçılar üçün mənbə rolunu oynayacaq, Ulu öndərin irsinin, tarixi xidmətlərinin gələcək əsrlərə və nəsillərə ötürülməsinə öz töhfəsini verəcəkdir.

Bakı Dövlət Universitetində ən müxtəlif platformalarda tədbirlər, layihələr davamlı olaraq həyata keçirilir. Universitetin müəllimləri, tələbələrimiz ölkəmizin qüdrətlənməsi, müdrik dövlət xadimi Heydər Əliyevin inkişaf doktrinasının həyata keçirilməsi istiqamətində öz missiyalarını ləyaqətlə yerinə yetirirlər. Möhtərəm Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunmuş elmimizə və təhsilimizə xidmət göstərməkdən şərəf duyurlar.

Xalqına misilsiz xidmətlərinə, doğma Vətəninə sonsuz sevgisinə görədir ki, bu gün dahi şəxsiyyət Heydər Əliyev ölkəmizin hər bir yerində, onun hüdudlarından kənarda belə hər bir azərbaycanlı tərəfindən minnətdarlıqla anılır, əziz xatirəsi həmişə uca tutulur. Bu gün bütün uğurlarımızın və qələbələrimizin banisi, müstəqil Azərbaycanın memarı, dövlətçiliyimizin xilaskarı, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyevi sevgi ilə, ehtiramla və sonsuz minnətdarlıq hissləri ilə yad edirik.

Əziz və unudulmaz Ümummilli liderimizə Allahdan rəhmət diləyir, banisi olduğu və bu gün dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək mərhələsini yaşayan qüdrətli Azərbaycanımıza daha böyük uğurlar, qələbələr, zəfərlər arzulayırıq.

Əminik ki, müstəqil Azərbaycanın banisi və qurucusu Heydər Əliyevin layiqli davamçısı, ölməz rəhbərin siyasi kursuna sədaqətin rəmzinə çevrilən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurları davam edəcək, ardıcıl qələbələrimiz, tarixi zəfərlərimiz sarsılmaz xalq-iqtidar birliyinin sayəsində özünün yeni inkişaf mərhələlərini yaşayacaqdır.

*Elçin BABAYEV,*
*Bakı Dövlət Universitetinin rektoru*

*"Xalq qəzeti"*
*13.12.2023*

# BDU Çinin Tongji Universiteti ilə anlaşma memorandumu imzalayıb



***Dekabrın 14-də BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının (ÇXR) Şanxay şəhərində yerləşən Tongji Universitetində olub. Görüşdə iki universitet arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memoranduma əsasən, ilkin mərhələdə təhsilalanların mübadiləsinin həyata keçirilməsi, doktorantların qısamüddətli və uzunmüddətli təcrübəkeçməsi nəzərdə tutulub. Razılaşmaya əsasən, növbəti mərhələdə isə magistratura və bakalavriatura səviyyələrində də tələbə mübadiləsi həyata keçiriləcək.

İki universitet arasında fundamental elmlər sahəsində, o cümlədən fizika, kimya, riyaziyyat, materialşünaslıq, mühəndislik və süni zəka üzrə əməkdaşlıq, ikili diplom proqramlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulub.

Memorandumun imzalanmasında məqsəd Tongji Universiteti ilə BDU arasında əməkdaşlığı daha da gücləndirmək, elm, təhsil sahəsində resursların qarşılıqlı istifadəsidir. Memorandum çərçivəsində akademik heyətin, tədqiqatçıların mübadiləsi də nəzərdə tutulur. Bu isə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.

Daha sonra BDU-nun nümayəndə heyəti Tongji Universitetinin kampusunda, Dizayn və innovasiya kollecində yaradılan şəraitlə tanış olub.

# BDU Elmi Şurasının 2023-cü ildə son iclası

***Dekabrın 29-da Bakı Dövlət Universitetinin Elmi Şurasının 2023-cü ildə son iclası keçirilib.***

Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor Əliş Ağamirzəyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun Tədbirlər Planı üzrə görülmüş işlər barədə hesabatı təqdim edib. Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov 2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının (bakalavriat və magistratura təhsil səviyyələri üzrə) təşkili haqqında məlumat verib. İclasda 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı BDU-nun Tədbirlər Planının hazırlanması ilə bağlı müzakirələr aparılıb. Rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov BDU-nun akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının yekun hesabatında göstərilən tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə 2023-2028-ci tədris illəri üzrə Fəaliyyət Planı haqqında Şura iştirakçılarını məlumatlandırıb.

İclas cari məsələlərin müzakirəsi ilə başa çatıb.

# BDU tələbələri mükafatlandırılıb

***Dekabrın 30-da BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun və Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə “Rəqəmsal məhsulun yaradılması və inkişafı” layihəsinin yekunlarına həsr olunmuş mükafatlandırılma mərasimi keçirilib.***

Karyera və məzunlarla əlaqə sektorunun əməkdaşı İlkin Şərifov tələbələri sektorun 2023-cü ildəki fəaliyyəti ilə tanış edib. Karyera və məzunlarla əlaqə sektoru tərəfindən BDU tələbələri üçün il ərzində müxtəlif mövzularda, karyera quruculuğu sahəsində təlim və infosessiyaların keçirildiyini, maarifləndirmə aparıldığını, məzunlarla sıx əlaqələrin qurulduğunu, onların əmək fəaliyyətinin izlənildiyini bildirib.

# BDU və Çinin Hefei Texnologiya Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Dekabrın 14-də BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının (ÇXR) Hefei Texnologiya Universitetində olub. Universitetin prezidenti Zheng Lei ilə keçirilən görüşdə əməkdaşlıq məsələləri müzakirə olunub.***

Universitetin prezidenti Zheng Lei BDU-nun nümayəndə heyətinin səfərindən məmnunluğunu qeyd edib, dünya şöhrətli fizik Lev Landaunun BDU-nun məzunu olmasından məlumatlı olduğunu bildirib. O, BDU ilə tələbə və müəllim heyətinin mübadiləsi, riyaziyyat, fizika, kimya, innovasiya, texnologiya kimi fundamental sahələrdə əməkdaşlığa hazır olduqlarını qeyd edib.

Görüşdə çıxış edən BDU-nun rektoru Elçin Babayev ölkəmizdə elmin və təhsilin inkişafı istiqamətində həyata keçirilən layihələrdən bəhs edib, BDU-nun beynəlxalq əlaqələri, ikili diplom proqramları və Universitetdə aparılan tədris, elmi tədqiqat işləri haqqında məlumat verib. Rektor qeyd edib ki, fəaliyyət göstərdiyi 104 il ərzində BDU-nun 200 mindən artıq məzunu olub, onların arasında tanınmış alimlər, ictimai-siyasi xadimlər var. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev BDU-nun ən böyük məzunudur. Rektor BDU-nun Çin universitetləri ilə əlaqələrə xüsusi önəm verdiyini vurğulayıb. Bildirib ki, BDU dünya tendensiyalarına uyğun qabaqcıl texnologiya və nailiyyətlər səviyyəsində peşəkar sahələrin yaradılması və inkişafını təmin edə bilən mütəxəssislər, elmi və elmi-pedaqoji, mühəndis-texniki kadrlar hazırlayan, sənaye müəssisələri ilə olan mövcud əlaqələri inkişaf etdirməklə elmi nəticələri kommersiyalaşdıran struktura və bazaya malikdir. Son dövrlər BDU beynəlxalq əlaqələrini genişləndirir, dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlıq əlaqələri qurur, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə birgə kadr hazırlığı, ikili diplom proqramına dair müqavilələr imzalayır. BDU-nun Çin Universitetləri ilə əlaqələrinin də yüksələn xətlə inkişaf etdiyini deyən rektor Elçin Babayev Universitetdə riyaziyyat, nanofizika, kimya, biotexnologiya, kompüter elmləri, sosial və humanitar elmlər sahələrində güclü məktəblərin olduğunu vurğulayıb, əməkdaşlığın faydalı olacağına əminliyini bildirib. Rektor həmçinin BDU-nun nəzdində Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin fəaliyyətindən bəhs edib, tələbə və akademik heyətin mübadiləsi, müxtəlif birgə layihələrin həyata keçirilməsi istiqamətində təkliflərini bildirib.



Daha sonra nümayəndə heyətləri arasında ikitərəfli müzakirələr aparılıb. Tərəflər arasında elm, təhsil, mədəniyyət sahələrində müştərək layihələrin icra edilməsi, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, sənaye tətbiqli elmi-tədqiqat işlərində əməkdaşlıq, fizika və riyaziyyat sahələrində birgə tədqiqatların aparılması, təhsilin bütün səviyyələrində kadrların mübadiləsinin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər sahələrdə müxtəlif tədbirlərin, o cümlədən birgə elmi konfranslar, sərgilər, seminarlar, simpoziumlar və təlimlərin keçirilməsi müzakirə olunub.

Fizika, riyaziyyat və kimya texnologiyaları sahəsində 1 akademik il müddətində akademik heyət və tələbə mübadiləsinin həyata keçirilməsi haqqında danışıqlar aparılıb.

Görüşdə birgə ikili proqram layihəsinin hazırlanması barəsində fikir mübadiləsi aparılıb. Hefei Texnologiya Universitetinin uyğun fakültələrinin rəhbərləri və əməkdaşları ilə BDU nümayəndə heyəti arasında ətraf mühit mühəndisliyi, biologiya və qida elmləri sahələrində əməkdaşlıq, kondensə olunmuş hal fizikası, kvant fizikası, optik mühəndislik, fizika mühəndisliyi üzrə əməkdaşlıq imkanları geniş müzakirə olunub.

Görüşün sonunda BDU və Hefei Texnologiya Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

# Türkiyənin İstanbul Texniki Universitetinin rektoru İsmayıl Koyuncunun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da

***Dekabrın 19-da Türkiyənin İstanbul Texniki Universitetinin rektoru İsmayıl Koyuncunun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Qonaqları salamlayan BDU-nun rektoru Elçin Babayev İstanbul Texniki Universiteti ilə ötən ay imzalanan anlaşma memorandumu və "Erasmus" mübadilə proqramının böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Rektor vurğulayıb ki, hər iki universitetin məqsəd və amallarının bir olması bu əməkdaşlığın səmərəli olacağına əminlik yaradır. Rektor BDU-da çox güclü riyaziyyat, fizika, kimya məktəblərinin olduğunu diqqətə çatdırıb və əməkdaşlığın ilkin olaraq məhz bu istiqamətlərdən başlanacağını deyib.

İstanbul Texniki Universitetinin rektoru İsmayıl Koyuncu da BDU ilə əməkdaşlığın faydalı olacağına inamını ifadə edib.



Görüşdə iki universitet arasında anlaşma memorandumu və "Erasmus" mübadilə proqramı çərçivəsində görüləcək işlər müzakirə olunub.

Qeyd edək ki, BDU və İTU arasında imzalanan anlaşma memorandumuna əsasən, 2024-cü ilin yanvar ayından doktorantura üzrə riyaziyyat və kimya sahələrində ikili diplom proqramlarına başlanılması barədə razılığa gəlinib.

İnformasiya texnologiyaları və süni intellekt sahələrində də ortaq layihələr həyata keçiriləcək. Anlaşma memorandumuna əsasən, həmçinin İTU-nun kibertəhlükəsizlik sahəsində zəngin təcrübəsindən istifadə edərək BDU-da Kibertəhlükəsizlik laboratoriyasının birgə qurulması planlaşdırılır.

# BDU-nun "Acta Botanica Caucasica" jurnalı AAK-ın dövri elmi nəşrləri siyahısına daxil edilib

***BDU-nun təsis etdiyi "Acta Botanica Caucasica" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının məqalələrin dərc olunması tövsiyə edilən "Biologiya elmləri və aqrar elm" sahələri üzrə dövri elmi nəşrlərinin siyahısına daxil edilib***

Jurnalın Baş redaktoru Biologiya fakültəsinin Botanika və bitki fiziologiyası kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Elşad Qurbanovdur.

"Acta Botanica Caucasica" beynəlxalq elmi araşdırmalar jurnalı, məzmununa görə elmi-tədqiqat nəşridir. Jurnalda fundamental və tətbiqi botanikanın anatomiya, morfologiya, fitosenologiya, floristika, sistematika, geobotanika, bitki ehtiyatları, dərman və aromatik bitkilər, aqrobotanika, paleobotanika, taksonomiya, farmakoqnoziya, lixenobriologiya, mikologiya, algologiya və s. kimi sahələrinin son tədqiqat məlumatları və elmi yenilikləri dərc edilir.

Jurnalın redaksiya heyəti nüfuzlu yerli, xarici alim və tədqiqatçılardan təşkil edilib. Jurnal ingilis dilində, indiyədək dərc olunmayan, orijinallığı, yeniliyi və aktuallığı, ciddi elmi arqumentasiyası, qabaqcıl nəzəri və praktiki əhəmiyyəti ilə diqqəti cəlb edən məqalələri antiplagiat proqramında baxışdan keçirdikdən sonra dərc edir. Məqsəd aktual elmi əsərlərin dərcinə yardım göstərməklə elmi məlumatların inteqrasiya olunmasına təkan verməkdir.

Jurnalda hər məqalə üçün GROSSREF Rəsmi Agentliyində qeydiyyatdan keçmiş, internet axtarış sistemlərində tanınması üçün indeksləşmə mexanizmlərindən DOI (Digital Object Identifier) identifikatorları və nömrələri qeyd olunub. Məqalələrə rəqəmsal identifikatorların verilməsi həmin məqalələrə tez bir zamanda girişin təmin olunmasına və jurnalın internet şəbəkəsində tanınmasına şərait yaratmaq üçün nəzərdə tutulub.

Beləliklə, "Acta Botanica Caucasica" elmi-tədqiqat jurnalının başlıca məqsədi beynəlxalq indeksləşdirilmiş bazalarda əksini tapmaq, yüksək keyfiyyəti ilə dünya miqyasında tanınmaq, təsis olunduğu BDU-nun nəşrlə əlaqəli arxiv bazasının potensialının artırılmasına nail olmaq və ölkənin Botanika elmi sahəsindəki inkişafına müsbət təsir göstərməkdir.

BDU tərəfindən təsis olunan "Acta Botanica Caucasica" jurnalı hazırda "Biologiya elmləri və aqrar elm" sahələri üzrə növbəti sayda dərc ediləcək elmi əsərlərin qəbulunu həyata keçirir.

# BDU ilk dəfə olaraq "QS Sustainability 2024" reytinqində yer alıb

***Dünya üzrə nüfuzlu reytinq təşkilatı olan "QS Quacquarelli Symonds" agentliyi tərəfindən tərtib olunan "QS Sustainability 2024" reytinqi üzrə qlobal nəticələr elan olunub. BDU ilk dəfə olaraq "QS Sustainability 2024" reytinqində yer alıb.***

Dünya üzrə 1403, Azərbaycandan sadəcə 2 ali təhsil müəssisəsinin yer ala bildiyi reytinqdə Bakı Dövlət Universiteti ekoloji davamlılıq (enviornmental sustainability) indikatoru üzrə 241-ci yerdə qərarlaşıb. Adıçəkilən reytinq universitetlərin təhsil və tədqiqat vasitəsi ilə sosial və ətraf mühitə təsirini müəyyən olunmuş meyar və indikatorlar üzrə qiymətləndirir.

Məlumat üçün bildirək ki, "QS Europe 2023" reytinqi üzrə də BDU fakültə-tələbə (faculty-student ration) nisbətinə görə Avropa üzrə 90-cı, Azərbaycan üzrə isə 1-ci yerdə qərarlaşıb. Beynəlxalq tədqiqat şəbəkəsi (International Research Network) indikatoru üzrə BDU Azərbaycan ali təhsil müəssisələri arasında 1-ci olaraq müəyyənləşib.

# BDU rektoru Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının fəaliyyəti ilə tanış olub

***Dekabrın 8-də BDU rektoru Elçin Babayev Çin Xalq Respublikasına (ÇXR) işgüzar səfəri çərçivəsində Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının fəaliyyəti ilə tanış olub.*** O, ÇXR-də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi, çinli gənclər arasında təbliği məqsədi daşıyan sözügedən kafedranın açılmasını yüksək qiymətləndirib. Qeyd edib ki, Azərbaycan xalqının milli-mənəvi varlığının əsasını təşkil edən dilimizin inkişafı və təbliğində, ona çox böyük hörmət və məhəbbət qazandırılmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olub. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan dili üzrə dövlət siyasəti uğurla davam etdirilir. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən silsilə tədbirlərin nəticəsidir ki, hazırda dünyanın bir sıra nüfuzlu ali məktəblərində Azərbaycan dili və ədəbiyyatı üzrə müvafiq ixtisaslar yaradılıb. Kafedraya göstərilən dövlət qayğısına toxunan Elçin Babayev bu mühüm və vacib missiyaya BDU-nun da hərtərəfli dəstək verməyə hazır olduğunu



vurğulayıb. Təkcə Azərbaycanda deyil, digər ölkələrdə də Azərbaycan dilinin inkişafının və qorunmasının əhəmiyyətindən danışan rektor kafedranın fəaliyyətinə uğurlar arzulayıb.

Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri Aqşin Əliyev milli-mənəvi dəyərlərimizin daşıyıcısı olan Azərbaycan dilinin ÇXR-də təbliğində kafedranın rolundan, qarşıda dayanan vacib vəzifələrdən danışıb. Rektorun Azərbaycan dili kafedrasına gəlməsini mühüm hadisə kimi qiymətləndirərək BDU-nun da bu kafedranın fəaliyyətinə əhəmiyyətli töhfə verəcəyinə inamını vurğulayıb.

Qeyd edək ki, Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisasının yaradılması haqqında qərar ÇXR Təhsil Nazirliyi tərəfindən 2015-ci ildə qəbul edilib. Qərarın icrasına uyğun olaraq 2016-cı ildə həmin universitetdə Azərbaycan dili kafedrası yaradılıb və ilkin mərhələdə Azərbaycan dilinin üçüncü dil kimi tədris olunmasına başlanılıb. 2018-ci ildə Çin ümumrespublika qəbul imtahanı vasitəsilə 9 çinli tələbə Çində ilk və yeganə Azərbaycan dili ixtisasına qəbul olunub və dörd il ərzində Azərbaycan dili və mədəniyyətini öyrənərək Çinin ilk azərbaycanşünas kadrları kimi tarixə düşüb. Pekin Xarici Dillər Universitetində birinci qəbulda (2018-2022-ci illər) Azərbaycan dili ixtisası üzrə təhsil almış tələbələr Azərbaycan dili kafedrasının ölkəmizlə bağlı həyata keçirdiyi müxtəlif layihə və tədbirlərdə yaxından iştirak ediblər. Tələbələr "Nəsimi İli"ndə "Azərbaycan dili və ədəbiyyatı sərgisi"nin təşkilində fəallıq göstəriblər, "Nizami Gəncəvi İli"ndə isə dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illiyi münasibətilə çap olunmuş "Nizami irsi" jurnalında tələbələrin 11 araşdırma məqaləsi və tərcümə işi işıq üzü görüb. Tədris dövründə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri Fərid Şafiyev və başqaları universitetdə tələbələrə mühazirələr oxuyublar. Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələr tədris müddətində AZƏRTAC, Çin İctimai Elmlər Akdemiyası kimi qurumlarda təcrübə keçiblər.

Qeyd edək ki, Azərbaycan dili ixtisasına qəbul hər dörd ildən bir həyata keçirilir. 2023-cü ildə Çinin ümumrespublika ali məktəblərə qəbul imtahanında uğurlu nəticələri ilə fərqlənən 13 nəfər universitetin Azərbaycan dili ixtisasına qəbul olunublar.

Hazırda Azərbaycan dili kafedrasında Azərbaycan dilinin tədrisindən başqa müvafiq dərsliklərin yazılması, lüğətlərin tərtibatı, Azərbaycan üzrə araşdırmalar, ədəbi və elmi tərcümə işləri istiqamətində işlər və digər elmi layihələr həyata keçirilir.

Pekin Xarici Dillər Universiteti Heydər Əliyev Fondu, Azərbaycanın Çindəki səfirliyi, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi və digər qurumlarla sıx əməkdaşlığa malikdir, eyni zamanda Bakı Dövlət Universiteti, Xəzər Universiteti, AMEA Ədəbiyyat İnstitutu ilə müvafiq əməkdaşlıq sənədləri imzalanıb.

# BDU və Pekin Xarici Dillər Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Dekabrın 8-də BDU nümayəndə heyətinin Çin Xalq Respublikasına (ÇXR) işgüzar səfəri çərçivəsində Pekin Xarici Dillər Universiteti ilə əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Memorandumu BDU-nun rektoru Elçin Babayev və Pekin Xarici Dillər Universitetinin rektoru Yanq Danq imzalayıb.***

İmzalanma mərasimində BDU-nun rektoru Elçin Babayev Universitetin fəaliyyəti, mövcud təhsil və tədris prosesi haqqında ətraflı məlumat verib. O, ÇXR universitetləri ilə BDU arasında təhsil-elm-innovasiya istiqamətindəki geniş və qarşılıqlı faydalı əlaqələrin perspektivləri barədə danışıb. BDU-da tələbələrin bilik və bacarıqlarını artırmaları üçün hər cür şərait yaradıldığını qeyd edən rektor ölkəmizdə son illər elm-təhsil-innovasiya istiqamətində görülən işlərdən, nailiyyətlərdən də söz açıb.

Pekin Xarici Dillər Universitetinin vitse-prezidenti Jia Dejong (Jia Dezhong) ikitərəfli əməkdaşlığın genişləndirilməsində, tələbələrin, akademik və



inzibati heyətin mübadiləsində, eyni zamanda birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsində maraqlı olduqlarını vurğulayıb. Görüşdə həmçinin, universitetin Asiya fakültəsinin dekanı professor Su Yinqinq, dekan müavini Qu Ciayün, Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev, Beynəlxalq mübadilə və əməkdaşlıq ofisinin direktor müavini Qonq Jinq və ofisin Beynəlxalq mübadilə sektorunun rəhbəri Quan Sin iştirak ediblər.

Görüş zamanı universitetlər arasında beynəlxalq əməkdaşlığın genişləndirilməsi məqsədilə yeni əlaqələrin yaradılması, təhsil və tədqiqat sahəsində hər iki universitet arasında əlaqələrin qurulması haqqında fikir mübadiləsi aparılıb. Eyni zamanda, Pekin Xarici Dillər Universitetində fəaliyyət göstərən Azərbaycan dili kafedrasında Azərbaycan dili ixtisasının tədrisi ilə bağlı məsələlərə diqqət yönəldilib.

Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisasında təhsil alan sonuncu kurs tələbələrinin BDU-da təcrübə keçməsi, akademik heyətin mübadiləsi imkanları müzakirə olunub. Ölkəşünaslıq və regionşünaslıq üzrə birgə elmi tədbirlərin keçirilməsinin əhəmiyyəti vurğulanıb.

İmzalanan anlaşma memorandumunun məqsədi tərəflər arasında elm, təhsil, mədəniyyət sahələrində yaxın gələcəkdə birgə ikili diplom proqramlarının yaradılması istiqamətində işlərin sürətləndirilməsi, müştərək layihələrin icra edilməsi, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, elmi-tədqiqat işlərində əməkdaşlıq, ilkin mərhələdə magistratura və doktorantura səviyyələrində, sonralar isə bakalavriatura səviyyəsində də kadrların mübadiləsinin həyata keçirilməsi, qarşılıqlı maraq doğuran digər sahələrdə müxtəlif tədbirlərin, o cümlədən konfransların, seminarların, simpoziumların, təlimlərin birgə təşkili və keçirilməsidir.

Sonda müzakirə olunan mövzuları əhatə edən geniş fəaliyyət planının hazırlanmasına dair razılığa gəlinib.

Qeyd edək ki, 1941-ci ildə əsası qoyulmuş Pekin Xarici Dillər Universitetində 101 xarici dil, 121 bakalavr ixtisası tədris olunur. Pekin Xarici Dillər Universitetinin hazırda 81 ölkədən 324 universitet ilə əməkdaşlıq müqaviləsi mövcuddur. Onlardan 23 müqavilə üzrə adıçəkilən universitetin maliyyələşməsi əsasında birgə Konfutsi İnstitutu fəaliyyət göstərir. Universitetin 8 professional magistr proqramı, kitabxanasında 1.52 milyon kitab var.

# BDU-nun nümayəndə heyəti Pekində keçirilən "I Çin Dili Konfransı" tədbirində iştirak edib

***2023-cü ilin 7-9 dekabr tarixlərində Çin Xalq Respublikasının (ÇXR) paytaxtı Pekin şəhərində ÇXR-in Təhsil Nazirliyinin əsas təşkilatçılığı, Nazirliyin Dil Tədrisi və Əməkdaşlıq Mərkəzinin, Çin Beynəlxalq Təhsil Fondunun və Çin dilinin tədrisi üzrə Beynəlxalq Cəmiyyətin birgə əməkdaşlığı ilə "I Çin Dili Konfransı" keçirilib.*** Tədbirin əsas məqsədləri ÇXR-də və dünyanın digər ölkələrində Çin dilinin tədrisinin yüksək keyfiyyətli və innovativ inkişafını təmin etməkdən, Çin və dünya ölkələri arasında dilçilik istiqaməti üzrə mübadiləni və əməkdaşlığı genişləndirməkdən, qarşılıqlı anlaşma və dostluq münasibətlərini inkişaf etdirməkdən ibarətdir. 4 mindən çox iştirakçının, o cümlədən ÇXR-in nüfuzlu ali təhsil müəssisələrinin, beynəlxalq təşkilatların, beynəlxalq dil və mədəniyyət qurumlarının, Çin dilinin tədrisi ilə məşğul olan xarici universitetlərin rəhbərlərinin və nümayəndələrinin, xaricdə fəaliyyət göstərən Konfutsi institutlarının direktorlarının, xarici diplomatik nümayəndələrin və biznes ictimaiyyətinin qatıldığı konfransda və paralel forumlarda BDU-nun rektoru Elçin Babayev və nümayəndə heyəti də iştirak edib.

Foruma qatılan ÇXR-in Tsinghua, Zhejiang, Fudan, Shanghai Jiao Tong, Çin Elm və Texnologiya, Nanjing və digər çoxsaylı universitetləri ilə BDU arasında tələbə və müəllim mübadiləsinin həyata keçirilməsini, birgə elmi tədbirlərin təşkilini, ikili diplom proqramlarının reallaşdırılmasını, elm və təhsil sahəsində təcrübə mübadiləsinin aparılmasını, ortaq elmi tədqiqatlar əsasında qrant və layihələrdə iştirakı və qarşılıqlı maraq doğura bilən digər istiqamətləri əhatə edən əməkdaşlıq imkanları müzakirə olunub.

Rektor Elçin Babayev tədbir çərçivəsində ÇXR-in Təhsil Nazirliyinin dəvəti ilə təşkil olunan rəsmi açılış və bağlanış mərasimlərində, həmçinin tədbir iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak edib. Ziyafətdə ÇXR-in hökumət rəsmiləri, ali təhsil müəssisələrinin və müxtəlif təşkilatların rəhbərləri, bir sıra ölkələrin tanınmış təhsil və elm xadimləri, digər yüksək səviyyəli qonaqlar iştirak ediblər.

# BDU Çin Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi və Anhui Universiteti ilə üçtərəfli müqavilə imzalayıb

***Dekabrın 8-də BDU, Çin Xalq Respublikasının Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi (DTƏM) və Anhui Universiteti arasında “Beynəlxalq Çin dili təhsili” birgə bakalavr proqramı üzrə üçtərəfli müqavilə imzalanıb.***




Müqavilənin imzalanmasında əsas məqsəd Çin və Azərbaycan arasında təhsil mübadiləsini təşviq etmək, Anhui Universiteti və BDU-nun əməkdaşlığını daha da gücləndirmək və Anhui Universitetinin Çin dili və ədəbiyyatı üzrə üstünlüklərindən tam şəkildə yararlanmaq üçün BDU-da yerli Çin dili müəllimləri proqramını dəstəkləməkdir.

Müqaviləyə əsasən, 4 illik bakalavr təhsili müddətində BDU-dan seçilmiş tələbələr üçüncü və dördüncü tədris illərində “Beynəlxalq Çin dili təhsili” ixtisası üzrə Anhui Universitetində təhsil alacaqlar. Çin dilində ixtisaslaşan BDU tələbələri kurikulumda qeyd olunduğu kimi, birinci və ikinci tədris ili kurslarını BDU-da bitirməlidirlər. Tələblərə cavab verən tələbələr Anhui Universitetində “Beynəlxalq Çin dili təhsili” ixtisası üzrə bakalavr proqramında təhsillərini davam etdirə biləcəklər. Anhui Universiteti və BDU-nun nəzarəti altında birlikdə hazırlanmış tədris proqramı üzrə bütün kursları bitirmiş, imtahanları keçmiş, habelə buraxılış işinin müdafiəsini etmiş tələbələr proqramı bitirmiş hesab ediləcək və hər iki universitetin bakalavr dərəcəsi diplomunu əldə edəcəklər.

Anhui Universiteti və BDU tərəfindən birlikdə qurulan Konfutsi İnstitutu BDU-da “Filologiya (Çin dili və ədəbiyyatı)” ixtisası üzrə təhsil alan BDU tələbələri üçün birinci və ikinci tədris illərində Çin dili kursları təşkil edir və bununla da bakalavr dərəcəsi üzrə ikili diplom proqramının həyata keçirilməsində tərəflər arasında əlaqələndirici rolunu oynayır.

Bu müqaviləyə hər il BDU-nun 15-ə qədər tələbəsi qoşulacaq. Layihədə yalnız Azərbaycan vətəndaşı olan və BDU-nun “Filologiya (Çin dili və ədəbiyyatı)” ixtisası üzrə əyani təhsil alan tələbələri iştirak edə bilərlər.

# BDU-nun nümayəndə heyəti Çin Renmin Universitetində olub



***Dekabrın 8-də BDU rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına (ÇXR) işgüzar səfəri çərçivəsində Çin Renmin Universitetində görüş keçirilib.*** BDU-nun rektoru Elçin Babayev Azərbaycan-ÇXR əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini bildirərək, BDU-nun Çin ali təhsil müəssisələri ilə elm və təhsil sahəsində sıx əməkdaşlıq etdiyini qeyd edib. Rektor Pekin şəhərində yerləşən ÇXR-in nüfuzlu ali təhsil ocağı olan Çin Renmin Universiteti ilə əməkdaşlığın hər iki universitet üçün səmərəli olacağına əminliyini bildirib, gələcəkdə birgə layihələrin həyata keçirilməsi, akademik və elmi əməkdaşlıq perspektivlərindən bəhs edib. Rektor sözügedən universitetin rəhbərliyini BDU-ya səfərə dəvət edərək, iqtisadiyyat və biznesin idarə edilməsi kimi istiqamətlərdə magistratura pilləsində ikili diplom proqramının yaradılmasında, birgə kafedra və ya elmi-tədqiqat laboratoriyasının təşkil edilməsində maraqlı olduğunu vurğulayıb.

Çin Renmin Universitetinin vitse-prezidenti Zenq Sinye Azərbaycanın ən qədim və böyük universiteti olan BDU ilə əməkdaşlığın gələcəkdə daha yüksək formada inkişaf etdiriləcəyinə əminliyini bildirib və ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün səy göstərəcəklərini, tələbələrin, akademik və inzibati heyətin mübadiləsində (Şərqşünaslıq, xüsusən də Çin dili və ədəbiyyatı üzrə) və yay məktəblərinin təşkilində maraqlı olduqlarını vurğulayıb. Görüşdə universitetin Beynəlxalq əlaqələr ofisinin rəhbəri Zanq Siomenq, Çin klassikləri fakültəsinin dekan müavini Vu Yang, Tarix fakültəsinin dekan müavini Zuo Şitinq, mətbuat xidmətinin rəhbərinin müavini Vanq Ley, İnkişaf və strategiya üzrə Milli Akademiyanın Beynəlxalq əməkdaşlıq ofisinin rəhbəri Yanq Fansin, Nəşriyyat Mərkəzinin direktoru Liu Yehua iştirak ediblər.

*Çin Renmin Universitetinin vitse-prezidenti Zenq Sinye Azərbaycanın ən qədim və böyük universiteti olan BDU ilə əməkdaşlığın gələcəkdə daha yüksək formada inkişaf etdiriləcəyinə əminliyini bildirib və ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün səy göstərəcəklərini, tələbələrin, akademik və inzibati heyətin mübadiləsində (Şərqşünaslıq, xüsusən də Çin dili və ədəbiyyatı üzrə) və yay məktəblərinin təşkilində maraqlı olduqlarını vurğulayıb.*

Qeyd edək ki, 2015-ci ilin dekabrında Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Çin Renmin Universitetinin “Tarix üzrə fəxri professor” diplomu verilib. Əsası 1937-ci ildə qoyulan Çin Renmin Universiteti hazırda 61 ölkədən 310 universitet ilə əməkdaşlıq edir. 28000-dən çox tələbənin təhsil aldığı Çin Renmin Universitetində 1970 akademik heyət çalışır. Universitetin 86 bakalavr, 165 magistr, 141 doktorluq proqramı var.

# BDU rektoru Pekin Universitetində olub



***Dekabrın 8-də BDU-nun rektoru Elçin Babayev Çin Xalq Respublikasının (ÇXR) paytaxtı Pekin şəhərində yerləşən Pekin Universitetində olub.***

Pekin Universiteti ilə keçirilən görüşdə universitetlər arasında qarşılıqlı faydalı əməkdaşlığın yaradılması barədə geniş fikir mübadiləsi aparılıb. BDU rektorunun və nümayəndə heyətinin Pekin Universitetini ziyarət etməsindən məmnunluğunu bildirən beynəlxalq əlaqələr üzrə prorektor Fanq Fanq əsası 1898-ci ildə qoyulmuş universitet haqqında ətraflı məlumat verib. Bildirib ki, missiyası elm və təhsil innovasiyalarının əsas mənbəyi və beynəlxalq mübadilə üçün mühüm körpü olaraq təhsilin inkişafına töhfə vermək olan Pekin Universitetində 6 fakültədə 48 mindən çox tələbə (o cümlədən 2500-ə yaxın xarici tələbə) təhsil alır. Bu prosesdə universitetdə fəaliyyət göstərən 55 məktəb və şöbədən, 60 tədqiqat yönümlü struktur bölməsindən və 10 ixtisaslaşdırılmış xəstəxanadan ibarət olan 12 600-dən çox akademik və inzibati heyət iştirak edir.

BDU ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayan prorektor Fanq Fanq Pekin Universitetində tətbiq olunan universitet idarəetmə modeli, tədrisin və elmi fəaliyyətin təşkili mexanizmi haqqında danışıb. Pekin Universitetinin profili nəzərə alınmaqla bütün elm sahələrində, əsasən isə riyaziyyat, fizika, astrofizika, kimya, biologiya və digər fundamental elmlər üzrə BDU ilə əməkdaşlıq imkanlarının mövcudluğunu dilə gətirən Fanq Fanq gələcəkdə ikili diplom proqramının təsis edilməsi, tələbələrin və akademik heyətin mübadiləsinin mümkünlüyünə toxunub.

ÇXR-in Pekin şəhərində olmaqdan məmnunluğunu ifadə edən BDU-nun rektoru Elçin Babayev səmimi qarşılanmaya görə təşəkkürünü bildirib. BDU-nun son illər müasir dövrün tələblərinə uyğun inkişafı istiqamətində həyata keçirilən işlərdən danışan rektor ÇXR-in universitetləri ilə əməkdaşlığa xüsusi önəm verildiyini diqqətə çatdırıb. BDU-da həyata keçirilən kadr hazırlığından, universitetin strateji hədəfləri və mövcud beynəlxalq əlaqələrindən bəhs edən Elçin Babayev xüsusilə də Pekin Universiteti ilə potensial əməkdaşlıq imkanlarını müsbət dəyərləndirib. Qeyd edilib ki, Pekin Universiteti ilə əməkdaşlıq BDU-da universitetin potensialının gücləndirilməsi məqsədilə həyata keçirilən layihələrə əhəmiyyətli töhfə verə bilər.

Müzakirələrdən sonra BDU ilə Pekin Universiteti arasında qarşılıqlı əməkdaşlıq və ikili diplom proqramı üzrə sənədlərin imzalanması üçün razılığa gəlinib. Yaxın gələcəkdə universitetlər arasında tələbə və müəllim mübadiləsi, birgə tədqiqatların aparılması, ortaq tədbirlərin keçirilməsi, qarşılıqlı mühazirələrin və təlimlərin təşkili, beynəlxalq layihələrdə birgə iştirak və digər istiqamətlərdə əməkdaşlığın yaradılması nəzərdə tutulur. Daha sonra xatirə şəkilləri çəkdirilib.

Ziyarət çərçivəsində BDU-nun rektoru Elçin Babayev və nümayəndə heyəti Pekin Universitetinin mövcud infrastrukturu və geniş imkanlara malik olan kampusu ilə tanış olub.

# BDU-da Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

***Dekabrın 7-də İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş "Mütaliə mədəniyyəti və oxucu məmnunluğu" mövzusunda Respublika elmi konfransı öz işinə başlayıb.*** Konfransın açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirələri yad edilib. Xalq yazıçısı Anarın həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub.



Giriş sözü ilə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev qonaqları və iştirakçıları rektor Elçin Babayevin adından salamlayıb. Əliş Ağamirzəyev 2023-cü ilin əlamətdar hadisələrlə yadda qaldığını bildirib, ərazi bütövlüyümüzün bərpasının məhz bu ilə təsadüf etdiyini vurğulayıb. Xalq yazıçısı Anarın yaradıcılığından və ictimai fəaliyyətindən bəhs edən natiq Ümummilli Liderimiz Heydər Əliyevin və Prezident İlham Əliyevin yazıçının ədəbi-bədii irsinə yüksək dəyər verdiklərini, onun dövlətimizin ən ali mükafatları ilə təltif olunduğunu qeyd edib: "Bu gün Xalq yazıçısı Anarın yubileyinə həsr olunmuş konfransın BDU-da keçirilməsi heç də təsadüfi deyil. Anar müəllimin həm özü, həm də övladları Universitetin məzunlarıdırlar. Eyni zamanda hesab edirəm ki, konfransının adı və elmi istiqamətləri doğru müəyyən edilib. Anar yaradıcılığı ilə ölkəmizdə mütaliə mədəniyyətinin, oxucu zövqünün formalaşmasına, eləcə də kitabxanalarımızın fondlarının inkişafına mühüm töhfələr verib".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Xalq yazıçısının yaradıcılığı, nəsrindəki çoxşaxəli istiqamətlər, əsərlərinin obrazlar sistemi barədə geniş məlumat verib: "Anarın yaradıcılığı möhtəşəm azərbaycançılıq abidəsidir. Onun keçmiş mətnlərə yeni nəfəs vermək məharətini yüksək qiymətləndirirəm. Anar müəllim əvvəlki əsərlərinin motivlərinə bir daha qayıtmaqla həmin əsərləri daha da dərinləşdirir".

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, BDU-nun Türk filologiyası kafedrasının professoru, millət vəkili Jalə Əliyeva, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, AYB-nin katibi İlqar Fəhmi çıxışlarında Anar yaradıcılığının çoxtərəfli istiqamətləri və məziyyətləri barədə danışıblar.

Plenar iclasda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan "Anar yaradıcılığı və oxu mədəniyyəti" mövzusunda məruzə edib. İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı çıxışında konfransın təşkilinə görə BDU-nun rektoru Elçin Babayevə fakültənin kollektivi və tələbələri adından minnətdarlığını bildirib. Qeyd edib ki, 2 gün ərzində davam edən konfransda Xalq yazıçısı Anarın çoxşaxəli yaradıcılığı barədə, eyni zamanda sənəd və informasiya menecmenti, informasiya logistikası, mütaliə mədəniyyəti, oxucu zövqü, oxucu məmnunluğu, kitab sənayesi, müəlliflik hüququ və əlaqəli hüquqlar kimi sahələr üzrə ümumilikdə 40-dan çox məruzə dinləniləcək, müzakirələr aparılıb. Sonda çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız tarixi Zəfərdən bəhs edib: "Özümü çox xoşbəxt hesab edirəm ki, ölkəmizin gözəl günlərinin şahidi oldum, Qarabağın azadlığını, Şuşamızı görə bildim. Bugünkü xoşbəxtliyimizin təməli Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulub. Prezidentimiz İlham Əliyev bu təməllər üzərində Azərbaycanı daha qüdrətli ölkəyə çevirdi". Xalq yazıçısı konfransın təşkilatçılarına, çıxış edənlərə, bütün iştirakçılara təşəkkürünü bildirib: "Məzunu olduğum doğma Bakı Dövlət Universitetində yubileyimə həsr olunmuş yüksək səviyyəli elmi konfransın keçirilməsi mənim üçün çox əlamətdardır. Hesab edirəm ki, Universitetin kollektivi və tələbələri ilə görüşlərimiz bundan sonra da davam edəcək".

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illik yubileyinə həsr olunmuş dəyirmi masa

***Dekabrın 8-də BDU-da Vəkillər Kollegiyası Akademiyasının və SABAH Mərkəzinin birgə təşkilatçılığı ilə "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və insan hüquqlarına müasir yanaşmalar" adlı dəyirmi masa keçirilib.***

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 75 illik yubileyinə həsr olunmuş tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Elm və Təhsil Nazirliyi SABAH qrupları İcra Komitəsinin rəhbəri, hüquq üzrə fəlsəfə doktoru Eldar Qocayev beynəlxalq insan hüquqları sahəsində müstəsna əhəmiyyət kəsb edən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müvafiq normaları, tarixi əhəmiyyəti, bu sahədə görülən işlərdən söz açıb. Bildirib ki, ali təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə fəaliyyət göstərən SABAH qruplarının bu cür tədbirləri təşkil etməsi müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsi istiqamətində atılan addımlardandır.

Vəkillər Kollegiyasının Akademiyasının rektoru, BDU-nun Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru Əmir Əliyev beynəlxalq hüququn tənzimlənməsi, təşkili və qorunması məsələlərinə toxunub. Həmçinin Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları ilə bağlı fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlərin ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisi olduğunu qeyd edib.

Sonra Azərbaycan Vəkillər Kollegiyası Akademiyasının Vəkillərin ixtisas komissiyasının sədri, hüquq elmləri doktoru, professor Turqay Hüseynov, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədr müavini Üzeyir Məmmədov, Azərbaycan Vəkillər Kollegiyasının Baş Katibi Bayram Orucov, hüquq üzrə fəlsəfə doktoru, dosent Vəfaəddin İbayev, BDU-nun SABAH Mərkəzinin rəhbəri, dosent İradə Süleymanova, Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru Midhəd Qəfərov, Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru Əlizadə Məmmədov, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının əməkdaşı Sona Xəlilli çıxışlarında Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən irəli gələn öhdəliklərin BMT-yə üzv olan dövlətlərin, o cümlədən Azərbaycan qanunvericiliyinə tətbiqi məsələlərinə toxunublar.

Dəyirmi masa tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə davam edib.

# Görkəmli alim, tədqiqatçı və pedaqoq - Şirməmməd Hüseynov

***Görkəmli alim, Əməkdar jurnalist, mətbuat tariximizin və Xalq Cümhuriyyətinin ən mahir araşdırıcısı Şirməmməd Hüseynovun anadan olmasından 99 il ötür.***

Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəki şəhərində anadan olub. 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi bitirib, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakültəsində oxuyub. O, 1945-1950-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində ali təhsil alıb.

Universiteti fərqlənmə diplomu ilə başa vuran Şirməmməd Hüseynov Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universiteti Jurnalistika fakültəsinin aspiranturasına daxil olub, 1954-cü ildə təhsilini tamamlayıb dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alıb. 1954-cü ildən indiki Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayan Şirməmməd Hüseynov həyatını universitetə bağlayaraq ömrünün sonunadək burada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olub, 1988-ci ildən ömrünün sonunadək həmin kafedranın professoru vəzifəsində çalışıb.

Elmi fəaliyyətini Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında təqdirəlayiq xidmətlər göstərib. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti var.

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəldib. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olub. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Şirməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. O, bir sıra mükafatlara layiq görülüb, Azərbaycan Respublikasının "Şərəf" ordeni ilə təltif olunub.

Görkəmli alim 2019-cu il iyunun 24-də ömrünün 95-ci ilində vəfat edib. Unudulmaz pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi Azətbaycan xalqının qəlbində daim yaşayacaq.

# Akademik Vasif Babazadənin 85 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

***Dekabrın 19-da Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının müdiri, geologiya-mineralogiya elmləri doktoru, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" və "Şərəf" ordenli akademik Vasif Babazadənin 85 illik yubileyinə həsr olunmuş "Geologiya: nəzəriyyə və praktikanın vəhdəti" mövzusunda Respublika elmi konfransı keçirilib.***






Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev akademik Vasif Babazadənin Azərbaycanda geologiya elminin əsas sütunlarından biri olduğunu bildirib. Rektor qeyd edib ki, görkəmli geoloq alim bütün ömrünü Azərbaycan elminin, təhsilinin inkişafına həsr edib.

Görkəmli alimin Azərbaycanda və xarici ölkələrdə 350-dən artıq elmi əsəri, 40-dan çox kitabı (monoqrafiya, dərslik, dərs vəsaitləri və s.) çap olunub. O, 3 nəşr olunmuş strateji əhəmiyyətli xəritənin müəllifidir. Akademik Vasif Babazadənin rəhbərliyi altında 35 fəlsəfə, 11 elmlər doktoru hazırlanıb. Akademik Vasif Babazadə eyni zamanda geologiya sahəsində Azərbaycan dilində yazılan ilk dərsliklərin müəllifidir. Görkəmli alimin 2 cilddə "Geoloji-kəşfiyyat işləri", 4 cilddə "Faydalı qazıntıların geologiyası", "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatı", "Filiz sahələri və yataqlarının strukturu" və başqa əsərləri bu gün də tələbələrin və müvafiq sahədə çalışan mütəxəssislərin stolüstü kitablarındandır.

Rektor qeyd edib ki, Vasif Babazadənin müxtəlif istiqamətlərdə yaratdığı elmi məktəblərin təməli onun 1973-1980-ci illərdə dekanı olduğu Geologiya-coğrafiya fakültəsində qoyulub, hələ o illərdə görkəmli alim geologiya elminin və tədrisinin ciddi inkişafı üçün BDU-da ayrıca fakültəyə ehtiyac olduğunu bildirib. Beləliklə, BDU-nun Geologiya fakültəsi Vasif Babazadənin təşəbbüsü ilə yaradılıb. Alim fakültənin Faydalı qazıntılar kafedrasına rəhbərlik etməklə yanaşı, "Yer ehtiyatlarının aerokosmik tədqiqatları" elmi-tədqiqat laboratoriyasını da yaratmağa nail olub. Akademik Vasif Babazadə fəaliyyətində dövlətçilik, azərbaycançılıq, milli maraqlar sistemini həmişə rəhbər tutub. Alim "Yerin təki haqqında" qanunun hazırlanıb qəbul edilməsində böyük xidmət göstərib. "Təhsil haqqında" qanun layihəsini hazırlayan işçi qrupun üzvü olub. Akademik Vasif Babazədənin məhsuldar fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. O, hələ 1978-ci ildə təbii resurslardan səmərəli istifadə etməklə bağlı silsilə əsərlərinə görə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülüb. 2000-ci ildə Prezident Heydər Əliyevin Sərəncamı ilə Vasif Babazadə "Əməkdar elm xadimi" fəxri adı alıb. O, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 2009-cu ildə "Şöhrət", 2018-ci ildə isə "Şərəf" ordenləri ilə mükafatlandırılıb. 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu ilə təltif edilib. Görkəmli alim 2017-ci ildə AMEA-nın akademik Musa Əliyev adına mükafatını alıb, 2018-ci ildə isə Gürcüstan Milli Elmlər Akademiyasının akademik Aleksandr Tvalçrelidze adına mükafatına layiq görülüb.

Daha sonra akademik Vasif Babazadənin ömür yoluna həsr olunmuş videoçarx nümayiş olunub.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev çıxışında qeyd edib ki, akademik Vasif Babazadə alim, insan, vətəndaş, müəllim kimi etalondur: "Görkəmli alim dövlətimizə, çalışdığı kollektivə həmişə sədaqətli olub. O, bütün uğurlarını öz əməyi və fəaliyyəti nəticəsində qazanıb. Akademik Vasif Babazadə ölkəmizə və elmimizə verdiyi töhfələri ilə həmişə öyünə bilər".

Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə, Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Neft və Qaz İnstitutunun baş direktoru, akademik Fəxrəddin Qədirov, Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geologi Kəşfiyyat Agentliyinin İdarə Heyətinin sədri Əli Əliyev, BDU-nun professoru, AMEA-nın müxbir üzvü Təhsin Mütəllimov, Gürcüstan Milli Elmlər Akademiyasının akademiki Givi Gavardaşvili, BDU-nun professoru, Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, Ekologiya və torpaqşünaslıq fakültəsinin Coğrafi ekologiya kafedrasının professoru Şövqi Göyçaylı, "Azerbaijan İnternational Mining Compani Limited" şirkətinin baş geoloqu Anar Vəliyev, Vasif Babazadənin yetirməsi, Mərmərə Universitetinin magistri Samirə Novruzova çıxışlarında görkəmli akademikin Azərbaycan elmi və təhsilinin, BDU-nun inkişafında xidmətlərini vurğulayıblar. Çıxışlarda qeyd olunub ki, Vasif Babazadənin elmi fəaliyyəti geologiyanın müxtəlif sahələrini əhatə edir. Onun araşdırmaları daha çox filiz yataqları və metallogeniyanın öyrənilməsi ilə bağlıdır. Geoloq alim kiçik Qafqazın qızıl yataqlarının tədqiqi sahəsində böyük işlər görüb.

Açılış mərasiminin sonunda söz yubilyara verilib. Akademik Vasif Babazadə konfransın təşkilinə görə minnətdarlığını bildirib, Azərbaycan elminin və təhsilinin inkişafına xidmət etməkdən qürur duyduğunu bildirib.

Konfrans plenar və bölmə iclasları ilə davam edib.

# BDU-da Respublika elmi konfransı: "Kimya və kimya texnologiyasında müasir yanaşmalar"

***Dekabrın 14-də Kimya fakültəsinin Neft kimyası və kimya texnologiyası kafedrasının 80 illik yubileyinə həsr olunmuş "Kimya və kimya texnologiyasında müasir yanaşmalar" adlı Respublika elmi konfransı keçirilib.***



Tədbirin açılış mərasimində çıxış edən elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov bildirib ki, konfrans bir neçə əlamətinə görə aktualdır. Bu il Azərbaycan dövlətinin qurucusu, neft strategiyasının banisi, Ümumilli Lider Heydər Əliyevin 100 illik yubileyi bütün ölkəmizdə olduğu kimi, BDU-da da böyük sevgi və ehtiramla qeyd olunur. Bu il həmçinin Vətən müharibəsində qələbəmizin üçüncü ildönümünü suverenliyimizi tam bərpa etməklə qeyd edirik. Hüseyn Məmmədov Neft kimyası və neft texnologiyası kafedrasının ölkədə neft sənayesinin inkişafında xüsusi çəkiyə malik olduğunu bildirib. Qeyd edib ki, 80 illik yubileyi keçirilən kafedranın yaradıcısı dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevdir. Daha sonra natiq BDU-da elmi tədqiqatların səviyyəsi, beynəlxalq bazalarda indeksləşməsi, eləcə də yeni ixtisasların yaranması haqqında məlumat verib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli Azərbaycanda neft strategiyasının banisi, Ulu Öndər Heydər Əliyev, eləcə də onun layiqli davamçısı Prezident İlham Əliyevin neft-qaz sənayesinin inkişafında xidmətləri barədə məlumat verib. Bildirib ki, Azərbaycanın iqtisadi uğurlarının başlanğıc mərhələsi dahi şəxsiyyət Heydər Əliyevin neft strategiyası ilə birbaşa bağlıdır. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi həm birinci, həm də ikinci mərhələdə neft strategiyasının inkişafı istiqamətində mühüm addımlar atıb, sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, neft sənayesi də dinamik inkişaf mərhələsinə qədəm qoyub. Müstəqil Azərbaycanın enerji layihələri, neft-qaz strategiyası tarixə Ulu Öndərin adıyla düşüb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi", Ulu Öndərin şəxsi nüfuzu, diplomatik məharəti nəticəsində əsası qoyulan yeni neft strategiyası Azərbaycanın gələcək inkişafının əsaslarını yaradıb. Ümummilli Liderin neft-qaz sənayesinin inkişafı üçün atdığı tarixi addımlar indiki güclü Azərbaycanın reallıqlarını və nəticə etibarilə Qarabağın azadlığını təmin edib. Sonra fakültə dekanı Neft kimyası və kimya texnologiyası kafedrasının inkişaf tarixi haqqında məlumat verib.

Daha sonra akademik Vaqif Fərzəliyev, AMEA-nın müxbir üzvü Məhəmməd Babanlı, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Kimya texnologiyası fakültəsinin dekanı Sevinc Məmmədxanova, Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri İbrahim Məmmədov, kafedranın professoru Musa Bayramov uğurlu neft siyasəti, torpaqların işğaldan azad olunması, kafedranın tarixi və elmi əlaqələri, neft kimyasının aktual problemləri haqqında fikirlərini konfrans iştirakçılarının nəzərinə çatdırıblar.

Konfrans öz işini plenar və bölmə iclaslarında davam etdirib.

# BDU-nun Rus Mərkəzi və "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyinin birgə tədbiri

***Dekabrın 18-də BDU-nun Rus Mərkəzinin və "Rossotrudniçestvo" təşkilatının Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbir keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, bu il Azərbaycan xalqı müstəqil dövlətimizin memarı, dünya şöhrətli siyasi xadim, Ümummilli Lider Əliyevin anadan olmasının 100 illik yubileyini böyük sevgi və ehtiramla qeyd edir. Ulu Öndər Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan bənzərsiz şəxsiyyətdir. Bütün həyatını xalqımızın xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin qurulmasına və inkişafına həsr etmiş dahi liderin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Dövlət müstəqilliyi uğrunda şərəfli mübarizədə müstəsna rolu olan Ümummilli Lider Heydər Əliyev ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində silinməz iz buraxıb, gələcək nəsillər üçün böyük məktəb yaradıb.

Rektor diqqətə çatdırıb ki, Azərbaycan ilə Rusiya arasında elm və təhsil, mədəni-humanitar sahələrdə uğurlu əməkdaşlıq münasibətləri var. Bu münasibətlərin inkişafında ali təhsil müəssisələri xüsusi rola malikdir. BDU-nun elm, təhsil sahəsində böyük potensialı olduğunu vurğulayan rektor qarşılıqlı təcrübə mübadiləsinin hər iki tərəfə fayda verəcəyinə inamını ifadə edib.




Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Azərbaycanın ən böyük və qədim universiteti olan BDU-da olmaqdan məmnunluğunu bildirib. Səfir qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın inkişafında müstəsna xidmətləri olmuş böyük şəxsiyyətdir. O, Azərbaycan-Rusiya əlaqələrinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etməsində Ulu Öndər Heydər Əliyevin böyük rola malik olduğunu bildirib.

Milli Məclisin deputatı, Azərbaycan Rus İcmasının sədri Mixail Zabelin isə çıxışında vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanı çoxsaylı bəlalardan xilas edən, ölkənin müstəqilliyini qoruyan və möhkəmləndirən böyük siyasətçi və vətəndaşdır: "Əgər Ümummilli Lider Heydər Əliyev olmasaydı, Azərbaycanın vəziyyəti necə olardı? Ölkə böyük təhlükə qarşısında idi, onu bu xaosdan Ulu Öndər çıxardı. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bu siyasətin uğurunu 44 günlük Vətən müharibəsində bir daha gördük. Ölkədə yaşayan bütün xalqlar həmişə Azərbaycanı öz vətənləri hesab ediblər. Multikulturalizm Azərbaycan xalqının ən böyük keyfiyyətidir".

Elm və Təhsil üzrə Dövlət Agentliyinin Ali və orta ixtisas təhsili müəssisələri ilə iş şöbəsinin müdiri Samir Həmidov bildirib ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin öyrənilməsi və təbliğinə həmişə böyük ehtiyac var. Samir Həmidov Ulu Öndərin hakimiyyətdə olduğu illər ərzində sülh, sabitlik siyasəti yürütdüyünü, Azərbaycanın hərtərəfli inkişafı üçün çalışdığını qeyd edib. Bu siyasətin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dövləti artıq sülhü əldə edib: "MDB ölkələrinin çoxunda münaqişə ocaqları var, onlardan bəziləri aktiv, bəziləri passiv fazadadır. Azərbaycan yeganə dövlətdir ki, münaqişəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edib".

"Rossotrudniçestvo" təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri İrek Zinnurov, "Rusiya (Sovet) Ali Məktəb Məzunlarının Azərbaycan Assosiasiyası" İctimai Birliyinin sədri Üzeyir Əliyev, BDU-nun professoru, tarix elmləri doktoru Azad Rzayev çıxışlarında Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti üçün gördüyü çoxşaxəli fəaliyyəti, həyata keçirdiyi layihələr, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki misilsiz xidmətlərindən danışıblar.

Tədbir bədii hissə ilə davam edib.

# BDU və DOST Agentliyinin sosial sahədə müasir dövlət xidmətlərinə dair elmi-praktiki konfransı

***Dekabrın 20-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illiyi və Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin yaradılmasının 5 illiyi münasibətilə "Sosial sahədə müasir dövlət xidmətlərinin formalaşmasının elmi paradiqması" mövzusunda elmi-praktiki konfrans keçirilib.***

Əvvəlcə konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin BDU-nun əsas tədris binasında yerləşən büstü önünə gül dəstələri qoyublar.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

BDU-nun rektoru Elçin Babayev ölkəmizdə aparılan sosial siyasətin mahiyyətindən söz açıb. Bildirib ki, bu il böyük fərəh və qürur hissi ilə 100 illik yubileyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu uğurlu sosial siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ötən 20 il ərzində davamlı inkişaf etdirilir: "Hazırda Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu sosial islahatlar üzrə Dövlət proqramları, təhsil, səhiyyə, sosial müdafiə, demoqrafik inkişaf, məşğulluq, yoxsulluğun azaldılması, sosial evlər, məcburi köçkünlərin məskunlaşması, ünvanlı sosial yardım, özünüməşğulluq və s. sahələrdə onlarla digər proqramlar qəbul edilib. Bu da onu göstərir ki, Azərbaycanda xalqın həyat səviyyəsinin yaxşılaşdırılması dövlətin öz qarşısına qoyduğu prioritetlərdəndir. Bu istiqamətdə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il avqustun 9-da imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin yaradılması məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi üçün atılmış ən böyük addımdır. Sevindirici haldır ki, DOST Agentliyi öz fəaliyyətində təkcə xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə kifayətlənmir, aparılan işlərin elmi əsaslarla inkişaf etdirilməsi, Universitetlərlə əməkdaşlığa da böyük önəm verir. BDU ilə DOST Agentliyi arasında əlaqələrin, qarşılıqlı əməkdaşlığın səviyyəsi bu gün bir çox universitetlərə nümunə göstərilə bilər. Biz artıq mövcud əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə anlaşma memorandumundan sonra daha praktik addımlar atdıq və Bakı Dövlət Universiteti ilə DOST Agentliyi arasında imzalanmış Anlaşma memorandumunun icrası üzrə Birgə Fəaliyyət Planını qəbul etdik. İnanırıq ki, növbəti ildə də DOST Agentliyi ilə BDU arasında birgə fəaliyyət planı üzrə mühüm addımlar atılacaq."



Rektor yaradılmasının 5 illiyi münasibətilə də DOST Agentliyinin rəhbərliyini və bütün kollektivini təbrik edib, birgə fəaliyyətin daim artacağına inamını ifadə edib. Eyni zamanda birgə təşkilatçılıq ilə baş tutan konfransın işinə uğurlar arzu edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə keçirilən konfransın əhəmiyyətindən danışıb. Bildirib ki, bu gün sosial istiqamətlər üzrə kadr hazırlığını həyata keçirən Bakı Dövlət Universitetilə belə bir konfransda sosial sahədə müasir dövlət xidmətlərinin təşkili, "bir pəncərə" konsepsiyası, sosial xidmətlərin xəritələnməsi, xidmətlərin rəqəmsal platformaya daşınması və s. mövzularda qəbul edilən məqalə və tezislər bu istiqamətlərdə aparılan tədqiqatlar üçün yol xəritəsi olacaq. Həmçinin DOST Agentliyinin 5 illik fəaliyyəti dövründəki sosial sahədə apardığı şəffaf və elektronlaşdırılmış nümunəvi fəaliyyətindən danışıb. Qeyd edib ki, ötən illər ərzində iki milyona yaxın vətəndaşa göstərilən xidmətlərin 154-ündən 140-a qədəri elektron şəkildə aparılıb. Bu sayədə "DOST" konsepsiyası digər ölkələr tərəfindən sosial məsələlərin həlli istiqamətində əlveriş li hesab edilərək böyük marağa səbəb olub.

Tədbirdə, fəxri qonaq qismində iştirak edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri Elşad Məmmədov və BDU-nun Əmək və ekologiya hüququ kafedrasının professoru Mayis Əliyev Ulu Öndər Heydər Əliyevin sosial siyasəti, bu sahənin formalaşması və inkişafı ilə bağlı həyata keçirdiyi islahatlar barədə danışıb, elmi-praktiki konfransın işində uğurlar arzulayıblar.

Daha sonra tədbirdə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi və DOST Agentliyinin 5 illiyinə dair videoçarx nümayiş olunub.

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov Agentliyin fəaliyyətinə dair təqdimatla çıxış edib. Təqdimatda sosial sahə üzrə beynəlxalq səviyyədə olan nəzəri modellər, onların detalları və tətbiqi ilə bağlı məlumatlar əks olunub. Eyni zamanda "bir pəncərə" sistemi, bu barədə dünya təcrübəsi və DOST modelinin bu təcrübədə yeri haqqında geniş informasiya verilib.

Daha sonra "Sosial sahədə müasir dövlət xidmətlərinin formalaşmasının elmi paradiqması" mövzusunda keçirilən elmi-praktiki konfransda iştirak edən spikerlərin çıxışları dinlənilib.

Məruzələr konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# BDU-da "Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət" kitabının təqdimatı

***Dekabrın 25-də BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərovun Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev: Dil, ədəbiyyat və incəsənət" kitabının təqdimat mərasimi keçirilib.***

Mərasimdə çıxış edən BDU-nun rektoru, kitabın ön sözünün və ideyasının müəllifi Elçin Babayev bildirib ki, 2023-cü il xalqımızın və dövlətimizin taleyinə ən əlamətdar illərdən biri kimi həkk olunub. Dünya şöhrətli siyasətçi, bütün ömrünü xalqının tərəqqisinə həsr etmiş, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyi bir zamanda ölkəmizin suverenliyinin təmin olunması xalq olaraq sevincimizi, gələcəyə inamımızı daha da artırır. Bu tarixi ildə 104 yaşlı BDU-nun professor-müəllim heyəti və tələbələri universitetimizi "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandıran, hər zaman məzunu olması ilə fəxr edən Ulu Öndərimiz, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin zəngin dövlətçilik irsinin, azərbaycançılıq ideologiyasının daha dərindən öyrənilməsi və təbliği üçün səylə çalışır.

Rektor qeyd edib ki, Ulu Öndər Heydər Əliyev bütün ömrünü Azərbaycanın siyasi, iqtisadi, mədəni həyatının inkişafına sərf edib. Xüsusilə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında, ana dilimizin ümumxalq dili kimi geniş istifadəsində, dövlət dili kimi inkişafında, incəsənət nümunələrimizin beynəlxalq səviyyədə tanıdılmasında Ulu Öndər Heydər Əliyev misilsiz xidmətlər göstərib. Ümummilli Liderin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dövlət quruculuğu siyasətinin tərkib hissəsi kimi dil siyasəti çox mühüm yer tutub. Ümummilli Liderin Azərbaycan dilinə, ədəbiyyatına və incəsənətinə göstərdiyi tarixi xidmət və siyasi kurs bu gün daha böyük miqyasda davam etdirilir. Ulu Öndərin ideyaları, dil, ədəbiyyat, mədəniyyət və incəsənət siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən böyük müvəffəqiyyətlə həyata keçirilir. Ulu Öndərin Azərbaycanda əsasını qoyduğu mədəniyyət siyasəti bu gün həm də yeni imkanlarla, çalarlarla inkişaf etdirilir.



Elçin Babayev diqqətə çatdırıb ki, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü, professor Nizami Cəfərovun ciddi elmi araşdırmalarının məhsulu olan "Heydər Əliyev: dil, ədəbiyyat, incəsənət" kitabı Ulu Öndərin ana dilimizin saflığının qorunması, inkişafı, milli ədəbiyyatımızın və incəsənətimizin çiçəklənməsi istiqamətində müqayisəyəgəlməz xidmətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. BDU-nun "Heydər Əliyev İli" ilə bağlı Tədbirlər Planı əsasında hazırlanmış bu kitabda Ulu Öndər Heydər Əliyevin Azərbaycan dili, ədəbiyyatı və incəsənətinin inkişafındakı misilsiz və tarixi xidmətlərilə daha ətraflı tanış olmaq, Azərbaycan mədəniyyətinin inkişafı istiqamətində gördüyü işlərin xalqımızın ideya-mənəvi tərəqqisinə təsiri haqqında daha dolğun məlumat almaq mümkündür.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa "Heydər Əliyev: Dil, ədəbiyyat və incəsənət" kitabının yüksək peşəkarlıq və məsuliyyətlə yazıldığını qeyd edib: "Ulu Öndərin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycanda mədəni elitanı formalaşdırması və xalqımızın milli ruhunu irəli aparmaq məsələsində yazıçı və şairlərimizin məsuliyyətini müəyyən etməsi olub. Ulu Öndərin çoxşaxəli fəaliyyətinin öyrənilməsinə xidmət edən belə kitabların nəşr olunması çox vacibdir".

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov isə diqqətə çatdırıb ki, Ümummilli Liderin bütün fəaliyyəti ərzində dilimizin, mədəniyyət və incəsənətimizin inkişafı ən prioritet sahələrdən olub. Təsadüfi deyil ki, Ulu Öndər 1969-cu ildə hakimiyyətə gəldikdən sonra ölkədə bu sahələr intibah dövrünü yaşayıb, alimlər, mədəniyyət və incəsənət adamları hərtərəfli qayğı ilə əhatə olunublar. Bu siyasət müstəqillik illərində də davam edib. Ulu Öndərin 2001-ci il 9 avqust tarixli fərmanı ilə 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan edilib.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu, Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Tofiq Hacıyev, Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli çıxışlarında bildiriblər ki, Ulu Öndər Heydər Əliyev həmişə dilimizə, ədəbiyyat və incəsənətimizə xalqımızın milli-tarixi varlığının, mənəviyyatının tərkib hissəsi kimi baxıb. Ona görə də onun dövlət siyasətində bu sahələrə diqqət həmişə ən önəmli yerlərdən birini tutub. "Heydər Əliyev: Dil, ədəbiyyat və incəsənət" kitabı bu siyasətin öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Sonda kitabın müəllifi, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov bildirib ki, Ulu Öndərin zəngin irsi öyrənildikcə, yazıldıqca insanı bir daha heyrətləndirir: "Ulu Öndər Heydər Əliyev qədər dilə həssas münasibət göstərən ikinci bir dövlət başçısı olmayıb. O, təkcə dövlət qurucusu deyildi, eyni zamanda millət qurucusu idi. Ona görə də millətin tarixi kodlarını, mənəviyyatını yüksəltməyin yollarını bilirdi".

# BDU-da orta məktəb dərsliklərinin dil problemləri araşdırılıb

***Dekabrın 14-də Filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasının nəzdində "Azərbaycan dilinin tətbiqi məsələləri" elmi-tədqiqat laboratoriyasında "Ümumtəhsil məktəbləri dərsliklərinin vəziyyəti və dərslik müəlliflərinin məsuliyyəti" mövzusunda elmi seminar keçirilib. Seminarda kafedranın professor-müəllim heyəti və magistrantları, laboratoriya əməkdaşları iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Tofiq Hacıyev seminarın mövzusunun aktuallığından, orta məktəb dərsliklərinin dil-üslub məsələləri ilə bağlı aparılan ictimai müzakirələrdən danışıb.

Mövzu ilə bağlı çıxış edən laboratoriyanın böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru İradə Kərimova bildirib ki, ümumtəhsil məktəblərində tədris olunan dərsliklərin əksəriyyətinin dili şagirdlərin yaş həddinə uyğun deyil və onların başa düşəcəkləri bir dildə yazılmır. Ümumtəhsil məktəbləri üçün dərslik yazmağı öhdəsinə götürən müəlliflər bu işə çox məsuliyyətlə yanaşmalı, özlərinin deyil, məhz uşaqların yaş həddini nəzərə almalıdırlar. Dərsliklər tərtib olunan zaman ədəbi dilin normalarından əlavə, dilə estetik baxımdan da diqqətlə yanaşılmalı, sözlər aydın olmalı, fikir dolaşıqlığı yaradılmamalı, müəllifin nitqi ədəbi dilin leksik normasına uyğun olmalıdır. Çıxışda o da qeyd olunub ki, keyfiyyətli dərslik tədris prosesində qarşıya çıxa biləcək bir çox problemi aradan qaldırır, təlimin səmərəliliyini artırır, şagirdlərin biliklərinin sistemləşdirilməsinə, yaradıcılıq qabiliyyətlərinin inkişafına imkan verir. Keyfiyyətli dərsliyin metodoloji əsasını elmi və pedaqoji yanaşmalar arasında diskussiyalar təşkil edir. Bu, onunla izah edilir ki, dərslik müəllifləri müasir elmlərdə qəbul edilən ən son versiyaları və hadisələrin şərhlərini yaxşı bilməlidirlər. Ümumiyyətlə, dərslik təhsil sahəsində iş təcrübəsi olan və tədris prosesinin iştirakçılarının xüsusi ehtiyaclarını başa düşən müəlliflər tərəfindən yazılmalıdır. Daha sonra mövzu ətrafında müzakirələr aparılıb.

# BDU-nun Elmi Kitabxanası Azərbaycan Universitetində təlim-seminar keçirib

***Dekabrın 15-də BDU-nun Elmi Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan Universitetində professor-müəllim heyəti, magistr və tədqiqatçılar üçün Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) yaranmasının 20 illiyinə həsr olunmuş "EBSCOHost platformasında interaktiv axtarış və EIFL.net konsorsiumunun xidmətləri" mövzusunda təlim-seminar keçirilib.***

Tədbiri giriş sözü ilə açan Azərbaycan Universiteti Elmi Kitabxanasının müdiri Nailə Nağıyeva belə tədbirlərin keçirilməsinin önəmindən bəhs edərək təlimçiləri qonaqlara təqdim edib. O bildirib ki, Azərbaycan Universiteti Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) və eləcə də beynəlxalq "EİFL.net" Konsorsiumunun üzvüdür. Az.KİK EİFL.net Konsorsiumu ilə əməkdaşlıq çərçivəsində üzv təşkilatların tədris və elm sahələrinə uyğun ədəbiyyatla təmin olunmasını, müvafiq kitabxanalarda rəqəmsal arxivlərin yaradılmasını təşkil edir, abunə müddətində onlara 8516-sı resenziyalı olmaqla 11000-dən çox jurnalın yerləşdiyi verilənlər bazasından, 2700-dən artıq kitab və broşür, 510 adda qəzet və s. mənbələrdən elektron formada istifadə imkanı təqdim edir.

BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova Az.KİK-in akademik kitabxanalarla əməkdaşlığı, kitabxana işi sahəsində nüfuzlu beynəlxalq təşkilat və nəşriyyatlarla ali məktəb kitabxanaları arasında əlaqələrin qurulması barədə danışıb, Azərbaycan Universitetinin də üzv olduğu Az.KİK-in fəaliyyətində təmsil etdiyi qurumun xüsusi rola malik olduğunu bildirib.

Az.KİK-in rəhbəri, EİFL.net və EBSCO-nun Azərbaycan üzrə təmsilçisi, BDU-nun Elmi Kitabxanasının şöbə müdiri Cəmilə Yusifova kitabxana işi sahəsində dünyanın iki aparıcı təşkilatından biri olan beynəlxalq konsorsium EİFL.net-in xidmətləri, müxtəlif elm və tədris sahələrini əhatə edən EBSCO platformasında interaktiv axtarış qaydalarını iştirakçılara əyani şəkildə təqdim edib.

# BDU tələbələrinə Azərbaycan Geologiya Muzeyində interaktiv dərs keçilib



***Dekabrın 13-də Ekologiya və torpaqşünaslıq fakültəsinin III kurs tələbələrinə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Azərbaycan Geologiya Muzeyində "Ekoloji kartoqrafiya və coğrafi informasiya sistemləri" fənni üzrə interaktiv dərs keçilib.***

Dərs zamanı BDU-nun Coğrafi ekologiya kafedrasının dosenti Lalə Bayramova mineral ehtiyatların aşkar edilməsi, onların hasilatı və iqtisadiyyatda tətbiqi barədə ətraflı məlumat verib. Dərsdə ölkənin mürəkkəb geoloji quruluşu, müxtəlif eralara və dövrlərə aid faydalı qazıntı, potensial xammal yataqlarının perspektivləri, təbiət-istehsalat münasibətlərinin iqtisadi rentabelliyi ilə yanaşı, təbii mühitin qorunmasının aspektləri təhlil edilib, tələbələrin sualları cavablandırılıb. Sonra tələbələr muzeydəki eksponatlarla tanış olublar.

# BDU-nun komandası "Bakı Gənclər Debat Forumu: 2023"ün qalibi olub

***Gənclər və İdman Nazirliyinin dəstəyi, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin təşkilatçılığı, SOCAR-ın Bakı Ali Neft Məktəbinin ev sahibliyi ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Bakı Gənclər Debat Forumu: 2023"ün final və mükafatlandırma mərasimi keçirilib.***

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin sədrinin müşaviri İlkin Hüseynov qonaqları salamlayıb və debatçılara uğurlar arzulayıblar.

"Bilik iqtisadiyyatına keçid edən ölkələrdə rəqabətə davamlı bazarın formalaşması üçün süni intellektin tətbiqi şərtdir" mövzusunda Forum çərçivəsində qrup və seçmə oyunları keçirilib. Yarışda Azərbaycan və rus bölməsi üzrə 25 ali təhsil müəssisəsinin debat klublarının natiqlərindən ibarət 50 komanda iştirak edib. 2 gün,187 saatdan çox davam edən forumda 1000-dən artıq gənc maariflənib.

"Bakı Gənclər Debat Forumu"nun final mərhələsində Azərbaycan dili bölməsi üzrə Azərbaycan Tibb Universitetinin "TGF-Betta" və Bakı Dövlət Universitetinin (BDU) "Qeyd-Şərtsiz" komandaları, rus bölməsi üzrə isə BDU-nun "Katyuşa BQU" və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "TTM" komandaları yarışıb.

Debat hakimlərinin nəticələrinə əsasən, Azərbaycan bölməsi üzrə BDU-nun "Qeyd-Şərtsiz", rus bölməsi üzrə UNEC-in "TTM" komandaları qalib seçiliblər.

Forumun ən yaxşı 20 natiqi də müəyyən olunub. Belə ki, Azərbaycan bölməsi üzrə Forumun ən yaxşı natiqi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Elnur Nuruzadə, rus bölməsi üzrə isə BDU-nun tələbəsi Həsən Paşayev seçilib.

Tədbirdə təşkilatın fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub və qaliblər mükafatlandırılıb.

# 450 BDU könüllüsü "Azərbaycan Könüllülük Həftəsi 2023"də iştirak edir

***Gənclər və İdman Nazirliyi, "ASAN xidmət" və Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Azərbaycan Könüllülük Həftəsi 2023" keçirilir.***

Həftə ərzində "BDU könüllüləri" təşkilatının 450 üzvü təşkil edilən müxtəlif tədbirlərdə, ekskursiya və təlimlərdə iştirak edib.

"Azərbaycan Könüllülük Həftəsi 2023" zamanı 5 ekskursiya, 3 intellektual yarış, 6 tədbirə qatılan BDU könüllülərinə "Vətənpərvərlik", "Təhsil və elm", "İdman və sağlamlıq", "Mədəniyyət", "Mənəvi tərbiyə" kimi istiqamətlərdə yeni bilik və təcrübələr aşılanıb.

Dekabrın 13-də Bakı Konqres Mərkəzində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan və Azərbaycanda fəaliyyət göstərən 3 minə yaxın könüllünün qatıldığı "Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu"nda 290 nəfər BDU könüllüsü iştirak edib.

Könüllülük həftəsinin yekun tədbiri kimi 14-18 dekabr tarixlərində Quba şəhərində keçirilən 4 günlük Həmrəylik Düşərgəsində isə 4 BDU könüllüsü iştirak edir.

# Jurnalist Ekspert Mərkəzinin sədri BDU tələbələri ilə görüşüb

***Dekabrın 21-də Jurnalist Ekspert Mərkəzinin sədri, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, tanınmış jurnalist Ceyhun Musaoğlu Jurnalistika fakültəsinin tələbələrinə ustad dərsi keçib.***

Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Əliyev tələbələrə qonaq haqqında məlumat verib, bu cür görüşlərin mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Sonra Ceyhun Musaoğlu tələbə-jurnalistlərə müasir jurnalistikanın yeni trendləri, təməl prinsipləri barədə geniş məlumat verib. O, son vaxtlar KİV-də ixtisaslaşma tendensiyasının artdığını qeyd edib, tələbələrə müasir medianın əsas tələbləri barədə danışıb. Vurğulayıb ki, hər gün yenilənən informasiya texnologiyaları, sosial şəbəkələrin fonunda jurnalistlər də hadisələrə daha çevik reaksiya verməlidirlər.

Ustad dərsi auditoriya tərəfindən maraqla qarşılanıb. Qeyd edək ki, görüş BDU-nun tarixi muzeyi və Jurnalistika fakültəsi ilə birgə təşkil olunub. Sonda qonaq tələbələrə kitablar hədiyyə edib.



# BDU İspaniyanın Qranada Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalayıb

***Dekabrın 21-də BDU və İspaniyanın Qranada Universiteti arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Qranada Universitetinin rektoru Pedro Mercado Parcheco imzalayıb.

Müqavilə çərçivəsində elmi-texniki sahədə təcrübələrin, eyni zamanda tələbə, inzibati və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Əsası 1531-ci ildə İmperator V Çarlz tərəfindən Qranada şəhərində təsis edilən Qranada Universiteti İspaniyanın böyük universitetlərindən biridir. Qranada Universiteti dünyanın nüfuzlu reytinq cədvəlləri olan "QS World University Rankings 2023"də 494-cü, "The World University Rankings 2023"də 601-800-cü, "QS WUR Ranking by Subject 2023"də isə 248-ci yerləri alıb.

# BDU Elmi Kitabxanasından növbəti kitab bağışlama aksiyası

***Dekabrın 21-də BDU-nun Elmi Kitabxanası "Naxçıvan" Universitetinin Elmi Kitabxanasına 200 nüsxə kitab hədiyyə edib.*** Kitabxananın Mübadilə-ehtiyat fondundan "Naxçıvan" Universitetinin tələbə, müəllim və professor heyətinin daha çox ehtiyac duyduqları "Klassik Azərbaycan ədəbiyyatı", "Müasir Azərbaycan ədəbiyyatı", "Azərbaycan antologiyaları", "Ədəbiyyat antologiyaları", "Dünya ədəbiyyatı", "Dünya ədəbiyyatı klassikləri", "Dünya uşaq ədəbiyyatı" kimi seriyalarda nəşr olunan kitablar seçilərək hədiyyə olunub.

Hədiyyə edilən ədəbiyyatların içərisində Azərbaycan Xalq Cümhuriyyəti tarixinin bütün sahələrini əhatə edən 2 cilddən ibarət "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" adlı fundamental soraq nəşri də yer alıb.

# "Biz birlikdəyik: Azərbaycan - Türkiyə!" adlı tədbir

***Dekabrın 25-də BDU-nun türkiyəli tələbələrinin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Biz birlikdəyik: Azərbaycan - Türkiyə!" adlı konserti keçirilib.***

Tədbirdə çıxış edən beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu bildirib. 2023-cü il Azərbaycan və Türkiyə üçün əlamətdardır. Bu il Azərbaycanın və Türk dünyasının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini böyük sevgi və ehtiramla qeyd edirik. Qardaş Türkiyə Cümhuriyyəti də qurulmasının 100-cü ildönümünü qeyd edir.

Hüquq fakültəsinin Mülki hüquq kafedrasının müdiri Şükür Yusifov, Beynəlxalq ümumi hüquq kafedrasının professor əvəzi Şəhriyar Əliyev, Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Hacıbaba Mustafayev, Türk Tələbələr Cəmiyyətinin sədri Muhammed Nazım Köylü çıxışlarında Azərbaycan-Türkiyə qardaşlığından, xalqlarımızın ortaq tarixə, dilə, maraqlara malik olmasından, Ulu Öndər Heydər Əliyevin iki ölkə arasında münasibətlərin inkişafındakı rolundan danışıblar.

# 5 Dekabr – Beynəlxalq Könüllülər Günüdür

***BMT Baş Assambleyasının 1985-ci il dekabrın 17-də qəbul etdiyi qətnaməyə əsasən, hər il dekabrın 5-i dünyada "İqtisadi və sosial inkişaf naminə Beynəlxalq Könüllülər Günü" kimi qeyd olunur.***

Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi qazanca əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqamətidir. Könüllü kimi çalışan şəxs cəmiyyətə töhfə verməklə yanaşı, öz inkişafına dəstək olur, müxtəlif və fərqli problemlərin həllində yaxından iştirak edir. Könüllü fəaliyyət göstərmək çox böyük üstünlüklər verir. Peşəkar təcrübə baxımından insan könüllü fəaliyyət göstərən zaman öz sahəsinin mütəxəssisinə çevrilir və könüllü fəaliyyəti müddətində qazandığı bilik və bacarıqlardan gələcək karyerasında da istifadə edir.

Müstəqil Azərbaycan Respublikasında könüllülük sahəsində əsl inkişaf Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Dahi öndərin ölkəmizə rəhbərliyinin ilk illərindən hərtərəfli və davamlı inkişaf məqsədilə dövlət və özəl sektor, vətəndaş cəmiyyəti arasında əməkdaşlıq diqqət mərkəzində saxlanılıb. 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT-nin İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlayıb. 1998-2000-ci illərdə bu proqramın nəticəsində Azərbaycanda güclü könüllü komanda yaradılıb və könüllülük prinsiplərinin geniş auditoriyada təbliğinə start verilib.

XXI əsrin əvvəllərində Prezident İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə ölkəmizin dinamik və hərtərəfli inkişafında könüllülük fəaliyyəti mühüm önəm daşımağa başlayıb. 2009-cu ildə Milli Məclisin "Könüllü fəaliyyət haqqında" Qanun qəbul etməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynayıb. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoyub.



Azərbaycan Prezidentinin bu sahəyə diqqəti, qayğısı və fəal dəstəyi könüllülüyün bugünkü yüksək inkişaf səviyyəsinə çatmasını təmin etməklə yanaşı, gənclər üçün yeni fürsətlər yaradıb. Xüsusilə son illərdə Azərbaycanın ev sahibliyi etdiyi "Avroviziya-2012" mahnı müsabiqəsi, 2015-ci ildə birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları və digər mötəbər beynəlxalq tədbirlərin təşkilinə ümumilikdə on minlərlə könüllü cəlb olunub. Bu tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda, təcrübəli könüllü bazası formalaşıb.

Ölkəmizdə könüllülük hərəkatının inkişafında və bu sahədə qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusilə vurğulamaq lazımdır. Məhz Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində qeyd olunan mötəbər tədbirlərdə on minlərlə könüllünün fəaliyyətinə şərait yaradılıb, onların əməyi yüksək qiymətləndirilib.

2020-ci ilin "Könüllülər ili" elan edilməsi dövlətimizin, Prezidentimizin gənclərə diqqət və qayğısının daha bir bariz nümunəsi oldu. Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev onların iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında önə çəkilməsini, bütün dövlət qurumlarına könüllülərin cəlb olunmasını tövsiyə edib. Dövlətimizin başçısının bu tövsiyəsi Azərbaycanda könüllülük hərəkatının inkişafına əlavə təkan verib. Bu tövsiyədən irəli gələrək müxtəlif dövlət qurumlarına könüllülərin cəlb olunmasına başlanılıb və bu iş uğurla davam etdirilir. Sevindirici haldır ki, könüllülərimiz ölkə həyatının bütün sahələrində fəal iştirak etməklə mühüm proseslərdə rol oynayırlar.

Azərbaycan könüllüləri üçün ən həlledici sınaqlardan biri də 44 günlük Vətən müharibəsi oldu. Məhz yüzlərlə könüllü Vətən müharibəsinin ilk günlərindən Azərbaycan Ordusunun sıralarına yazılaraq torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda döyüşlərə atıldılar. Könüllülərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

Bu gün hər birimiz fəxr edirik ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun peşəkarlığı və qələbə əzmi, xalqımızın mətanəti sayəsində torpaqlarımız işğaldan azad edilib. Azad edilən torpaqlarımızda həyata keçirilən quruculuq-abadlıq işlərində, doğma diyarımızın yenidən çiçəklənməsində könüllülərin də iştirakı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan könüllülərinin ölkə həyatında yüksək fəallığı, vətənpərvərliyi, dövlətə və Vətənə bağlılığı könüllü gənclərimizin bu prosesdə də fəal iştirak edəcəklərini deməyə güclü əsas yaradır. Artıq "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin tərkibində "Qarabağ Könüllüləri" Klubu fəaliyyətə başlayıb. Klubun məqsədi Qarabağ könüllülərini birləşdirmək, Qarabağa qayıdış prosesində, quruculuq və bərpa işlərində keçirilən aksiyalarda könüllü dəstəyini göstərməklə yanaşı, onların şəxsi inkişafına, gələcək fəaliyyətlərinə təkan verməkdir.

Bakı Dövlət Universitetinin tələbələri də könüllülük hərəkatına mühüm töhfələr veriblər. 2019-ci ildən fəaliyyət göstərən "BDU könüllüləri" təşkilatı hazırda öz ətrafında 1000-ə yaxın könüllü tələbəni birləşdirir.

Təşkilat 2020-ci ildən başlayaraq bir sıra uğurlu layihələr həyata keçirib, BDU-da könüllülük hərəkatının genişlənməsində, tələbə təşkilatları ilə birgə sosial və mədəni-kütləvi tədbirlərin təşkilində fəal iştirak edib. Pandemiya dövründə əməkdaş və tələbələr arasında "COVID-19" xəstəliyi ilə mübarizə istiqamətində maarifləndirmə işində, xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarətin həyata keçirilməsində, eləcə də tələbələrin onlayn dərslərə fəal qoşulmasının təşviqində xüsusi fəallıq göstərib.

Hazırda könüllü tələbələr BDU-nun müxtəlif struktur bölmələrində könüllü kimi fəaliyyət göstərməklə Universitetin ictimai həyatında fəal iştirak edirlər. Bu ilin ilk yarısında "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə müxtəlif səpkili 77 sosial və mədəni-kütləvi tədbir keçirilib.

Universitetin könüllüləri həmçinin ölkəmizdə həyata keçirilən irimiqyaslı beynəlxalq və respublika əhəmiyyətli tədbir, sosial layihə və humanitar aksiyalarda fəal iştirak etməklə respublikamızda uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz töhfələrini verirlər. Bunun bariz nümunəsi kimi Laçın-Xankəndi yolunda təşkil olunan ekoloji aksiyada 450-dən artıq BDU könüllüsü iştirak edib.

"BDU könüllüləri" təşkilatı könüllülük sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə, ölkəmizdə fəaliyyət göstərən digər könüllülər təşkilatları ilə əlaqələrin qurulmasına xüsusi diqqət yetirir. Eyni zamanda gənclər arasında könüllülüyün təşviqi və təbliği, könüllülük sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulması ilə bağlı mövcud beynəlxalq təcrübənin öyrənilməsinə səy göstərir.

# BDU ilə Türkiyənin Hacettepe Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Dekabrın 25-də Türkiyənin Hacettepe Universitetinin rektoru Mehmet Cahit Güranın rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Nümayəndə heyəti ilə görüş zamanı BDU-nun rektoru Elçin Babayev qonaqlara Universitetin tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri ilə bağlı məlumat verib. Qeyd edib ki, BDU qardaş Türkiyənin bir sıra nüfuzlu universitetləri ilə səmərəli əməkdaşlığa malikdir. BDU-da təhsil alan xarici tələbələrin də çoxu Türkiyədəndir. Onların əksəriyyəti hüquq və psixologiya ixtisaslarına meyl göstərirlər. Rektor Elçin Babayev Hacettepe Universiteti ilə müxtəlif istiqamətlərdə ikili diplom və "Erasmus" mübadilə proqramları çərçivəsində uğurlu əməkdaşlıq imkanlarının olduğunu deyib.

Hacettepe Universitetinin rektoru Mehmet Cahit Güran da Azərbaycanın ən böyük ali təhsil müəssisəsi ilə əməkdaşlığın hər iki universitetə fayda verəcəyini bildirib. O, rəhbərlik etdiyi ali təhsil müəssisəsinin Türkiyənin ən nüfuzlu universitetlərindən biri olduğunu, burada 3700-dən çox akademik heyətin çalışdığını və 53000-dən çox tələbənin təhsil aldığını diqqətə çatdırıb.

Daha sonra BDU və Türkiyənin Hacettepe Universiteti arasında anlaşma memorandumu imzalanıb. Memorandum təhsil və tədqiqat sahəsində hər iki universitet arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədini daşıyır. Memorandumda tələbələrin, akademik və inzibati heyətin, nəşrlərin və digər müvafiq materialların qarşılıqlı mübadiləsi, birgə seminar, tədris proqramlarının təşkili, ortaq elmi-tədqiqat və inkişaf layihələrinin həyata keçirilməsi öz əksini tapıb.

Qeyd edək ki, əsası 1967-ci ildə qoyulmuş Hacettepe Universitetində 16 fakültə, 15 institut, 4 peşə məktəbi, 2 məktəb, 1 konservatoriya fəaliyyət göstərir. Universitetdə 98 tədqiqat mərkəzi mövcuddur.

# BDU-da "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı Tədbirlər Planı hazırlanacaq

***Bakı Dövlət Universitetində "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı Tədbirlər Planı hazırlanacaq. Bu barədə BDU Elmi Şurasının 2023-cü ildə keçirilən son iclasında qərar qəbul edilib.***

BDU rektoru Elçin Babayev bildirib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP 29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi haqqında qəbul edilən qərar çox mühüm hadisədir. Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi Prezident İlham Əliyevin ən böyük qələbələrindəndir. Bütün dünya ölkələri tərəfindən qəbul edilən bu qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin bariz nümunəsidir: "Bu, ölkəmizin bütün dünyada daha da tanınmasına səbəb olacaq. Azərbaycan işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ölçüyəgəlməz işlər - "ağıllı şəhər", "ağıllı kənd", alternativ enerji layihələri həyata keçirir. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizin bu istiqamətdə apardığı işlərə daha da təkan verəcək".

Rektor qeyd edib ki, böyük potensiala malik elm və təhsil müəssisəsi kimi BDU bu prosesdən kənar qalmayacaq və öz töhfələrini verəcək.

# BDU-nun SABAH qruplarının tələbəsi və məzunu Beynəlxalq Tələbə İnternet Olimpiadasında qalib olub

***Dekabrın 11-də BDU-nun SABAH qruplarının Kimya müəllimliyi ixtisasının 2023-cü il məzunu Kənan Ağayev və IV kurs tələbəsi Cahan İsmayılova Məhtimqulu adına Türkmən Dövlət Universitetində Kimya fənni üzrə keçirilən Beynəlxalq Tələbə İnternet Olimpiadasında qalib olublar.*** Kənan Ağayev olimpiadada I, Cahan İsmayılova isə II yerə layiq görülüb.

Qeyd edək ki, Kimya fənni üzrə Beynəlxalq Tələbə İnternet Olimpiadası dünyanın 20-dən çox ölkəsindən 350-dən çox tələbəni əhatə edib.

Qaliblərimizi təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq!




# SABAH qruplarının məzunu SAF 2023 - Beynəlxalq STEAM Azərbaycan Festivalının qalibi olub



***BDU-nun SABAH qruplarının Kompüter elmləri ixtisası üzrə məzunu Ağababa Bağırov Elm və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən SAF 2023 -Beynəlxalq STEAM Azərbaycan Festivalında iştirak edib.*** Ağababa Bağırov "Game Award Azerbaijan 2023" oyun mükafatlandırılmasında ən unikal ideya nominasiyası üzrə hazırladığı "Homo Ludens" kompüter oyunu ilə qalib olub.

Qeyd edək ki, festivalın keçirilməsində məqsəd STEAM əsaslı tədrisin təşviqi, şagirdlər arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı, rəqəmsal texnologiya biliciləri olan şagird və tələbələrin aşkarlanması və şəbəkələşməsi, innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsindən ibarətdir. STEAM Azərbaycan Festivalı 14 yarış və 1 sərgi kateqoriyası üzrə təşkil olunub.

# Kimya fakültəsinin tələbələrinin beynəlxalq olimpiadada uğurları

***Dekabrın 13-də Kimya fakültəsinin tələbələri Məhtimqulu adına Türkmən Dövlət Universitetinin təşkilatçılığı ilə Kimya fənni üzrə keçirilən Beynəlxalq Tələbə İnternet Olimpiadasında iştirak ediblər.*** 20-dən çox ölkədən 350 tələbənin qatıldığı olimpiadada Kimya fakültəsinin I kurs magistri Kənan Ağayev I, Kimya müəllimliyi ixtisasının IV kurs tələbəsi Cahan İsmayılova II, I kurs tələbələri Dərya Həsənova, Rəvanə Quliyeva, Rəşad Mütəllibov, Məsumə Hüseynova isə III yerə layiq görülüblər.

Tələbələrimizi təbrik edir və yeni uğurlar arzulayırıq!



# BDU-nun 8 tələbəsi “Heydər Əliyev adına təqaüd”ə layiq görülüb




***Bakı Dövlət Universitetinin təhsildə yüksək nailiyyətləri olan 8 tələbəsi “Heydər Əliyev adına təqaüd”ə layiq görülüb.***

“Heydər Əliyev adına təqaüd”ə layiq görülən BDU tələbələri aşağıdakılardır:

1. Siyavuş Bağırov – Hüquqşünaslıq ixtisası
2. Günay Abbasova – Hüquqşünaslıq ixtisası
3. Rübabə Aslanova – Riyaziyyat müəllimliyi ixtisası
4. Həbibə Cəfərova – İqtisadiyyat ixtisası
5. Mehrəngiz Qurbanova – Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası
6. Hüseyn Quliyev – Tarix ixtisası
7. Sibel Əsgərova – Kompüter elmləri ixtisası
8. Şəhanə Babazadə - Coğrafiya müəllimliyi ixtisası

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 24 iyun tarixli Sərəncamına əsasən, bakalavriat səviyyəsində əyani formada təhsil alan və təhsildə yüksək nailiyyətləri olan 100 nəfər tələbə üçün “Heydər Əliyev adına təqaüd” təsis edilib. Təqaüd dövlət büdcəsinin vəsaiti hesabına 3000 manat məbləğində birdəfəlik ödənilir.

# BDU tələbələri üçün Qoşulmama Hərəkatının Gənclər Təşkilatının məlumat sessiyası

***Dekabrın 6-da BDU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə tələbələr üçün Qoşulmama Hərəkatının Gənclər Təşkilatının (QHGT) məlumat sessiyası keçirilib.***

Sessiyada çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov bildirib ki, ölkəmizi dünyada layiqincə təmsil etmək, dövlət maraqlarının qorumaq vətəndaşlıq missiyasının tərkib hissəsidir. Məlumat sessiyanın keçirilməsində məqsəd BDU tələbələrini QHGT-nin fəaliyyəti ilə ətraflı tanış etmək, eləcə də təşkilatın gələcək layihələrində onların aktiv iştiraklarını təşviq etməkdir.

QHGT-nin protokol və tədbirlərin təşkili üzrə meneceri Nəzrin Qasımova təşkilatın missiyası, dəyərləri, strukturu, fəaliyyət istiqamətləri və gələcək prespektivləri ilə bağlı tələbələrə məlumat verib.

Sonra QHGT-nin 2019-2023-cü illər ərzində fəaliyyətinin xülasəsi təqdim edilib.

Sonda tələbələri maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

# SABAH qruplarının tələbələri üçün “Magistr dissertasiyaları üçün tədqiqat metodları” adlı təlim

***Dekabrın 7-də BDU-nun SABAH Mərkəzinin təşkilatçılığı ilə BDU-nun SABAH qruplarının magistratura səviyyəsində təhsil alan tələbələrinə “Magistr dissertasiyaları üçün tədqiqat metodları” mövzusunda təlim keçirilib.***

BDU-nun müəllimi və Ankara Universitetinin doktorantı Qoşqar Bəylərov tərəfindən keçirilən təlimdə SABAH qruplarının müvafiq ixtisasları üzrə magistrlərə elmi tədqiqat işi, tədqiqat metod və texnikaları, dissertasiyanın yazılma qaydaları, ədəbiyyat mənbələrindən düzgün istifadə, ədəbiyyat siyahısının tərtibi, istinad mədəniyyəti, plagiatlıq, rəqəmsal tədqiqat yolları və elmi işlərin təqdimatlarının hazırlanma qaydaları haqqında ətraflı məlumat verilib.

İnteraktiv keçən təlimdə tələbələri maraqlandıran suallar cavablandırılıb. Həmçinin nümunələr əsasında fərqli ixtisaslardan olan tələbələrin dissertasiya mövzularında istifadə edə biləcəkləri tədqiqat metod və texnikaları haqqında geniş müzakirələr aparılıb.

# BDU-nun "BSU Creativity Workz" komandası "Take Off Istanbul" startap sammitində iştirak edib

***5-6 dekabr tarixlərində Türkiyənin İstanbul şəhərində “Take Off Istanbul” startap sammiti keçirilib.*** Bu il altıncı dəfə təşkil olunan “Take Off” startap sammitinin keçirilməsində əsas məqsəd regionda effektiv sahibkarlıq mühiti yaratmaq, startapların inkişafını dəstəkləmək və ekosistemin əsas oyunçuları arasında davamlı əməkdaşlığı təmin etməkdir. Sammitdə startapçılara təqdimatla çıxış etmək, B2B formatında görüşlər keçirmək və panel müzakirələrdə iştirak etmək imkanları yaradılıb.

34 ölkədən 1252 komandanın müraciət etdiyi “Take Off Istanbul” startap sammitində finala qalan 192 komanda arasına Bakı Dövlət Universitetini təmsil edən “BSU Creativity Workz” komandası da olub.

Daha əvvəl İstanbulda keçirilən “TEKNOFEST 2023” yarışmasında I yeri qazanan və Ankarada “TEKNOFEST – Girişim yarışması”nda 3 qalib komandadan biri olan “BSU Creativity Workz” komandası öz “Driver’s Eye” layihəsini “Take Off Istanbul” startap sammitinin “Pre Seed” kateqoriyasında investorlara təqdim edib.

# BDU-da “Türkiyədə kitabxana və arxiv xidmətləri” mövzusunda ustad dərsi

***Dekabrın 4-də Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin Kitabxana və Arxiv Xidmətləri İdarəsinin müdiri Arif Şayık İnformasiya və sənəd menecmenti fakültəsinin tələbələri üçün “Türkiyədə kitabxana və arxiv xidmətləri” mövzusunda ustad dərsi keçib.*** Arif Şayık “Heydər Əliyev İli”ndə Ulu Öndərin məzunu olduğu, ölkənin ən nüfuzlu ali təhsil müəssisəsi BDU-da olmağından məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin ən yüksək səviyyəyə çatdığını bildirib. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin bütün türk dünyası üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb.



Arif Şayık bildirib ki, qardaş ölkələrimizin kitabxanaları dövlətlərimiz arasında ədəbi-mədəni və elmi əlaqələrin formalaşmasında, türk xalqlarının milli irsinin mühafizəsində müstəsna rola malikdirlər: “Kitab və kitabxana mədəniyyəti sahəsində dünya mədəni irsinə mühüm töhfələr vermiş türk xalqları bu gün də həmin missiyanı uğurla davam etdirirlər. Kitabxanalarımız bu prosesin önündə gedirlər”. Mühazirədə Türkiyədə ilk kitabxanaların yaranma tarixinə nəzər salınıb, Səlcuklar və Osmanlı dövründə fəaliyyət göstərən vəqf kitabxanalarından bəhs olunub. Vurğulanıb ki, bu sahə Cümhuriyyət dövründə xüsusilə inkişaf edib. Mustafa Kamal Atatürk tərəfindən xaricdə təhsil almağa göndərilən ilk tələbələr arasında kitabxanaçılıq təhsili alanların da olduğu diqqətə çatdırılıb. Xaricdə təhsil alan ilk mütəxəssislərdən Nabil Buharioğlunun Türkiyə Böyük Millət Məclisinin Kitabxanasının qurduğu qeyd olunub. Məruzədə elektron kitabxana, elektron kataloqlaşdırma kimi mühüm istiqamətlərdən də bəhs olunub, müasir dövrdə rəqəmsal kitabxana xidmətlərinin dövrün tələbi kimi qarşıya çıxdığı vurğulanıb. Türkiyədə arxiv işinin tarixi barədə məlumat verən Arif Şayık bildirib ki, Osmanlı dövründə ölkə idarəçiliyində arxivlərin əhəmiyyətinə xüsusi fikir verilib, bu iş dövlət səviyyəsində təşkil olunub. Dövlət sənədlərinin qeydiyyatı və arxivləşdirilməsi xüsusi önəm daşıyıb. Ona görə də Osmanlı dövründən başlayaraq formaşalmış arxivlər dünyanın ən zəngin arxivlərindən hesab olunur.

Natiq mühazirəsində rəhbərlik etdiyi Böyük Millət Məclisinin Kitabxana və Arxiv Xidmətləri İdarəsinin fəaliyyəti barədə də məlumat verib. Türkiyə Böyük Millət Məclisində kitabxana və arxiv xidmətlərinin tarixi, inkişaf dövrləri, müasir vəziyyəti, perspektivləri və hədəfləri barədə dinləyicilərdə geniş təəssürat yaradıb. Millət Məclisinin Kitabxanasının millət vəkillərinə göstərdiyi informasiya xidmətlərinin spesifik xüsusiyyətlərindən bəhs edib, həmçinin rəhbərlik etdiyi qurumun arxiv fondlarında Türkiyə Cümhuriyyətinin və eləcə də Böyük Millət Məclisinin tarixi inkişafını və bu gününü əhatə edən mühüm sənədlərin mühafizə edildiyini bildirib.

Arif Şayıkın mühazirəsi tələbələr tərəfindən maraqla dinlənilib, məruzəçiyə suallar ünvanlanıb.

# Tanınmış özbək alimi BDU-da elmi seminar keçirib

***Dekabrın 22-də Özbəkistan Milli Universitetinin Özbək filologiyası fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Hamidulla Baltabayev Filologiya fakültəsinin qonağı olub.***

Fakültə dekanı, dosent Elçin Məmmədov son illər ölkələrimiz arasında olan elmi-mədəni əlaqələrdən, fakültə alimlərinin Özbəkistanın müxtəlif universitetləri ilə uğurlu əməkdaşlığından söz açıb. Görüşdə iştirak edən dekan müavini Anar Fərəcov, Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov və həmin kafedranın doktorantı Məleykə Mirzəli Özbəkistan-Azərbaycan ədəbi-mədəni əlaqələrindən bəhs ediblər.



Sonra özbəkistanlı alim Hamidulla Baltabayevin Türkologiya kafedrasında elmi seminarı təşkil olunub. Professor Məhərrəm Məmmədov qonağa kafedranın tarixi, tədris və tədqiqat istiqamətləri haqqında məlumat verib. Professor Firuzə Ağayeva Hamidulla Baltabayevin yaradıcılığı haqqında geniş çıxış edib. O qeyd edib ki, əsas tədqiqat obyekti Cədid hərəkatı olan və türk xalqları ədəbiyyatı araşdırmaları üzrə tanınan tanınmış alimin Azərbaycana olan sevgisi də xüsusi vurğulanmalıdır.

Sonra söz məruzəçiyə - professor Hamidulla Baltabayevə verilib. Məruzəçi “Özbək Cədid ədəbiyyatının Azərbaycan ədəbiyyatı ilə əlaqələri” mövzusunda çıxış edib. XX əsrin əvvəllərində Türküstan coğrafiyasında başlanan Cədidçilik hərəkatının məğzinin yeniləşmək ilə bağlı olduğunu qeyd edib. Bu dönəmdə xüsusilə Abdurauf Fitrətin yaradıcılığının özbək dili və ədəbiyyatına olan töhfələrindən söz açıb. Həmçinin qeyd edib ki, onun əsərlərində bir sıra məqamlar Hüseyn Cavid yaradıcılığı ilə oxşarlıq təşkil edir.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb. Türkologiya kafedrasının əməkdaşları – professorlar Elbrus Əzizov və Ramiz Əskər, dosentlər İslam Vəliyev və Kəmalə Nəcəfova mövzu ilə bağlı öz fikirlərini bölüşüblər.

Sonda Türkologiya kafedrasının müdiri Məhərrəm Məmmədovun adından özbəkistanlı alimə “Təşəkkürnamə” təqdim edilib.

# Professor Abdulla Muxtarovun 105 illik yubileyinə həsr olunmuş tədbir

***Dekabrın 28-də Fizika fakültəsinin təşkilatçılığı ilə fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, Əməkdar elm xadimi, “Şöhrət” ordenli, professor Abdulla Muxtarovun 105 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, dahi alim, dəyərli müəllim olan Abdulla Muxtarov Azərbaycan elmində silinməz iz buraxıb. Onun fizika elminə verdiyi töhfələr və yetirmələri bu gün də BDU-da gənc nəslin təlim-tərbiyəsində və savadlanmasına rol oynayır. Öz tələbəlik illərindən söz açan Elçin Babayev Abdulla Muxtarovun daim tələbələrin yanında olduğunu və onlara sevgi ilə yanaşdığını deyib: “Bizlər korifey müəllimlərimizi unutmamalıyıq. Daim onların xatirəsini yaşatmalı və nümunəvi həyat hekayələri ilə tələbələri yaxından tanış etməliyik. Bu, elmə, əməyə və müəllimə əsl hörmətin göstəricisidir". Rektor həmçinin tədbirdə iştirak edən müəllimlərin əksəriyyətinin professor Abdulla Muxtarovun yetirmələri olduğunu və onun yolunu davam etdirdiyini qeyd edib.

BDU-nun Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev Azərbaycanda nəzəri fizika məktəbinin əsasını qoyan Abdulla Muxtarovun kvant nəzəriyyəsi, elementar zərrəciklər və nüvə fizikası, yüksək enerjilər fizikası və s. kimi mürəkkəb sahələri tədqiq etdiyini və fəaliyyətinin BDU ilə sıx əlaqədə olduğunu bildirib.

Sonra Abdulla Muxtarovun həyat yolunu özündə əks etdirən videoçarx nümayiş etdirilib.

BDU-nun Nəzəri fizika kafedrasının müdiri, dosent Məmməd Rəcəbov, Optika və molekulyar fizika kafedrasının məsləhətçi professoru Niftalı Qocayev, Nəzəri fizika kafedrasının professoru Sərhəddin Abdullayev, Geologiya fakültəsinin Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun Nüvə və yüksək enerjilər fizikası laboratoriyasın rəhbəri, professor Şakir Nağıyev və Abdulla Muxtarovun qızı Elmira Axundova professorun həyatından, xidmətlərindən söz açıb, xatirələrini bölüşüblər.

# “Bərabər İnkişaf Naminə” Koalisiya BDU-da maarifləndirici görüş keçirib

***“Bərabər İnkişaf Naminə” Koalisiya BDU-da seçki hüquqları ilə bağlı maarifləndirici görüş keçirib.***

İclası giriş sözü ilə açan moderator, “Bərabər İnkişaf Naminə” Koalisiyanın üzvü, “Kamillik” qadın cəmiyyətinin prezidenti, I, II çağırış Milli Məclisin deputatı, BDU-nun filologiya elmləri üzrə fəlsəfə doktoru Əsmətxanım Məmmədova ölkədə gedən ictimai-siyasi proseslər fonunda əldə olunan uğurlardan, Qarabağda tarixi zəfərdən sonra “Böyük Qayıdış” proqramının uğurla reallaşdırılmasından bəhs edib.

"Gənc Demokratlar” İnstitutunun sədri, tanınmış politoloq, bloger Yeganə Hacıyeva dünyanın ən dinamik inkişaf edən ölkələrindən biri kimi Azərbaycanın dayanıqlı inkişafına gənclərin verə biləcəyi töhfələrdən söz açıb, onları beynəlxalq arenalarda və ölkə gündəmində daha fəal iştiraka səsləyib.

AMEA Qadınlar Şurasının sədri, Beynəlxalq Türk Qadınları Həmrəyliyi Assosasiyasının İdarə Heyətinin üzvü, fəlsəfə elmləri doktoru, professor Rəna Mirzəzadə ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. O, qadınların idarəetmə, qərarqəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini daim vacib bilib. Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Ulu Öndərin siyasətinin ayrılmaz tərkib hissələrindən olub.

Sonda Mərkəzi Seçki Komissiyasının üzvü, ixtisasca hüquqşünas olan Nailə Əsgərova seçki prosesinin hüquqi bazası barədə geniş məlumat verib. Məruzəçi ölkəmizin taleyüklü seçim qarşısında olduğunu bildirərək, insanları seçki hüquqlarından aktiv istifadə etməyə çağırıb.

# Laçın rayonunun işğaldan azad olunmasının ildönümü qeyd olunub

***Dekabrın 1-də Coğrafiya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı, Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının dəstəyi ilə Laçın rayonunun işğaldan azad olunmasının ildönümünə həsr edilmiş tədbir keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov bildirib ki, 1992-ci ilin may ayından ermənilərin işğalı altında olan Laçının azad edilməsi Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin siyasi liderliyi, sərkərdəlik qabiliyyəti və Azərbaycan Ordusunun Vətən müharibəsindəki uğurlu hərbi əməliyyatları nəticəsində mümkün olub. Laçının işğaldan azad edilməsi Vətən müharibəsində əldə etdiyimiz ən parlaq qələbələrdəndir. Bu tarixi qələbəni yaşatmaq və təbliğ etmək isə bizlərin əsas vəzifəsidir: "2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə müharibədə məğlub olduğunu qəbul edən Ermənistan məcburiyyət qarşısında qalaraq kapitulyasiya aktına imza atıb. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Bəyanat imzalanıb. Sənədə əsasən, 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu, 25 noyabr 2020-ci il tarixinədək Kəlbəcər rayonu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonu Azərbaycana qaytarılıb. Beləliklə, Laçının 28 ilik işğalına 2020-ci il dekabrın 1-də son qoyulub. 26 avqust 2022-ci il tarixində Laçın rayonunun Zabux və Sus kəndləri də nəzarətə götürülüb, Azərbaycan Ordusu Laçın şəhərinə yerləşib. Prezident İlham Əliyevin bu il iyulun 31-də imzaladığı Sərəncamla hər il avqustun 26-sı Laçın Şəhəri Günü elan olunub".

Sonra çıxış edən Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, professor İlhamə Hacıyeva və müəllimi Aytəkin Mirzəyeva tariximizə qızıl hərflərlə yazılmış möhtəşəm Zəfərin heç vaxt unudulmayacağını diqqətə çatdırıblar.

Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

# Elmi seminar: İnformasiya mədəniyyətinin formalaşmasında İKT-nin rolu

***Dekabrın 15-də İnformasiya və sənəd menecmenti fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "İnformasiya mədəniyyətinin formalaşmasında İKT-nin rolu" mövzusunda elmi seminar keçirilib.*** Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının dosenti Sima İsmayılova mövzu ilə bağlı məruzə edib. Sima İsmayılova əvvəlcə ölkəmizdə mədəniyyətin bütün sahələrinin inkişafında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini vurğulayıb, həmin siyasətin bu gün uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Məruzədə informasiya cəmiyyətinin yaranma səbəbləri, formalaşmasına təsir edən amillər, strukturu, informasiya-kommunikasiya texnologiyalarının qlobal informasiya mühitinin formalaşması sistemindəki aparıcı mövqeyi şərh olunub. İnformasiya mədəniyyətinin formalaşmasında İKT-nin rolu təhlil edilib. Bildirilib ki, informasiya cəmiyyətinə keçid ümumi mədəniyyətin tərkib hissəsi kimi yeni bir kateqoriyanın - informasiya mədəniyyətinin aktuallığını zəruri edib. İnformasiya mədəniyyətinin məlumatın əldə edilməsi, emalı və ötürülməsi kimi prosesləri əhatə etdiyini qeyd edən məruzəçi bunun üçün müasir texniki vasitələrin və innovativ iş üsullarının tətbiqinin əhəmiyyətini diqqətə çatdırıb. Tədqiqatda informasiya mədəniyyətinin komponentləri kimi məntiqi mədəniyyət, semiotik mədəniyyət, ünsiyyət mədəniyyəti, şəbəkə mədəniyyəti və s. kimi anlayışlar şərh olunub. İnformasiya mədəniyyətinin cəmiyyətin inkişafına təsir edən əsas faktorlardan biri olduğu vurğulanıb.

Məruzədə ölkəmizdə İKT-nin inkişafı üçün dövlət tərəfindən həyata keçirilən layihələrdən, sahənin sənəd-informasiya təminatının formalaşması dinamikasından da bəhs olunub. Ölkəmizin ümumdünya elektron məkanına sürətli inteqrasiyası istiqamətində görülən işlərdən danışılıb.

# Qədim türk əlifbasının oxunmasının 130 illiyinə həsr olunmuş elmi seminar keçirilib

***Dekabrın 15-də Filologiya fakültəsinin Türkologiya kafedrasında qədim türk əlifbasının oxunmasının 130 illiyinə həsr olunmuş "Türkologiyada qədim və müasir dil məsələləri" mövzusunda elmi seminar keçirilib.***

Seminarı giriş sözü ilə açan Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədov bildirib ki, 1893-cü ildə danimarkalı dilçi alim Vilhelm Tomsen tərəfindən qədim türk mədəni abidəsi olan Orxon-Yenisey daş kitabələrindəki yazıların oxunması təkcə türklər üçün deyil, bütün bəşəriyyət üçün mühüm hadisəyə çevrilib. Qədim türk yazılarının oxunması türkoloji dilçilikdə böyük irəliləyişlərə səbəb olub və bu abidələrlə bağlı çox sayda sanballı tədqiqatlar aparılıb. Həmçinin 2022-ci ildə Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının apardığı birgə arxeoloji qazıntılar zamanı Monqolustanın Nomqon vadisində ikinci Göytürk Dövlətinin qurucusu İltəriş Kutluq Xaqana (VII əsr) aid yeni yazılı daş kitabə və abidə kompleksi aşkar edilib və bu abidə kompleksinin Bakı Dövlət Universitetində təntənəli təqdimatı baş tutub.

"Türkologiyada qədim və müasir dil məsələləri" adlı məruzə ilə çıxış edən Türkologiya kafedrasının professoru Elbrus Əzizov bildirib ki, türk xalqlarının qədim və zəngin tarixinin davamı kimi Asiya və Avropanın böyük bir hissəsində müxtəlif coğrafi şəraitlərdə müasir türk xalqları və onların dilləri formalaşıb. Türk dillərini dünyanın başqa dillərindən fərqləndirən əsas cəhət onların quruluş baxımından bir-birinə çox yaxın olmasıdır (çuvaş və yakut dilləri istisnadır). Eyni mənşədən gələn bu dillərin fonetik sistemində, leksik tərkibində və qrammatik quruluşunda ümumilik nəzərə çarpacaq dərəcədə çoxdur. Türk xalqlarının birbirini az və ya çox dərəcədə başa düşmələri məhz bununla bağlıdır. Tarixdə türk xalqları olduqca müxtəlif adlar daşıyıblar. Əvvəllər nisbətən məhdud dairədə işlənmiş türk adı sonralar çox geniş bir ərazidə yayılmış olan qohum xalqların və onların dillərinin mənşə birliyini bildirən ümumi bir ada çevrilib (Müasir dilçilikdə "türk dilləri ailəsi", "türk dilləri qrupu" terminləri işlədilir). Müasir türkologiyada 27-dək müstəqil dil var.

# Rusiyanın Ural Federal Universitetininn nümayəndələri BDU-da

***Dekabrın 15-də Sosial elmlər və psixologiya, Tarix, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin əməkdaşları ilə Rusiyanın Ural Federal Universitetinin (UrFU) nümayəndələri arasında görüş keçirilib.***

Görüşün məqsədi birgə elmi tədqiqatlar, elmi tədbirlərin təşkili və ixtisasartırma proqramları çərçivəsində BDU ilə UrFU arasında əməkdaşlığı inkişaf etdirməkdir.

Görüşdə Ural Federal Universitetinin Pedaqogika və təhsil psixologiyası kafedrasının dosenti, Psixologiya kafedrasının Yenidənhazırlanma, ixtisasartırma və əlavə təhsil mərkəzinin direktoru, psixologiya elmləri namizədi Rüstəm Müslümov müəllim və tələbələr qarşısında "Koqnitiv-davranış terapiyası" mövzusunda məruzə edib.

Ural Federal Universitetinin Ural Humanitar İnstitutunun Elm və innovativ işin təşkili şöbəsinin müdiri Yuliya Zapariy tarix sahəsində aparılan tədqiqatlarla görüş iştirakçılarını tanış edib.

UrFU-nun Psixologiya fakültəsinin dekanı, Pedaqogika və təhsil psixologiyası kafedrasının müdiri, dosent Anna Peçerkina psixologiyanın elmi-nəzəri və tətbiqi məsələləri, inklüzivlik psixologiyası, xüsusən də sensormünbit təhsil mühitinin yaradılması, peşəkar inkişaf psixologiyası sahəsində tədqiqatların aparılması, müəllimin aktiv peşə uzunömürlülüyü, müəllim peşəsini itirmə böhranları, stress psixologiyası və davranışın öhdəsindən gəlmək məsələsi haqqında auditoriyanı məlumatlandırıb. O, koqnitiv psixologiya və idrak proseslərinin psixofiziologiyası sahəsində tədqiqatlar, müxtəlif yaş dövrlərində və müxtəlif peşə qruplarına münasibətdə psixoloji və subyektiv rifah, bu istiqamətdə meydana çıxan məsələlərin həlli yollarını da iştirakçıların nəzərinə çatdırıb.

Nümayəndə heyətinin rəhbəri, UrFU-nun Beynəlxalq tərəfdaşlıq və kommunikasiyaların inkişafı şöbəsinin müdiri Evgeniya Saburova işgüzar və səmimi görüşə görə BDU rəhbərliyinə minnətdarlığını bildirib. Qeyd olunub ki, belə görüşlər həmçinin UrFU-nun Ural Humanitar İnstitutunun bazasında Azərbaycanşünaslıq Mərkəzi ilə BDU-nun Rusiya Mərkəzi arasında əməkdaşlığı daha da genişləndirəcək.

# "Paşa Bank"ın BDU tələbələri üçün növbəti təlimi

***Dekabrın 15-də BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun, Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə tələbələr üçün "Rəqəmsal məhsulun yaradılması və inkişafı" mövzusunda təlim keçirilib. Təlim "Paşa Bank"ın əməkdaşı/məhsul sahibi Təhminə Misirli tərəfindən aparılıb.***

Təlimçi yaradılması nəzərdə tutulan məhsulun digər yaradılan məhsullardan üstünlüyü və fərqi, məhsulun düzgün seçilməsinə qoyulan tələblər, məhsulun yaradılması üçün çəkilən xərclər və s. məsələlərə aydınlıq gətirib. Bildirib ki, məhsulun yaradılmasından sonra onun inkişafında metrik izləmənin həyata keçirilməsi vacib məqamlardan biridir. Bu zaman müştəri məmnuniyyəti də ön plana çəkilir.

Təlimdə iştirak edən tələbələrdən hər biri öz təqdimatı ilə çıxış edib.

# Jurnalistika fakültəsinin əməkdaşları üçün tələbəyönlü tədrisin təşkilinə dair təlim

***Dekabrın 15-də Jurnalistika fakültəsinin əməkdaşları üçün təlim təşkil olunub.*** Təlimçi kimi rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov çıxış edib. Təlimdə tələbəyönlü və kompetensiya əsaslı tədrisin təşkilinə dair təlim iştirakçılarına geniş məlumat verilib. Təlimdə fakültənin akademik, inzibati və tədris köməkçi heyəti iştirak edib.

Qeyd edək ki, təlim silsilə olaraq digər fakültələrdə də keçiriləcək.

# Şərqşünaslıq fakültəsinin əməkdaşları üçün tələbəyönlü tədrisin təşkilinə dair təlim

*Dekabrın 1-də Şərqşünaslıq fakültəsinin əməkdaşları üçün təlim təşkil olunub.*

Təlimçi kimi rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov çıxış edib. Təlimdə tələbəyönlü və kompetensiya əsaslı tədrisin təşkilinə dair təlim iştirakçılarına geniş məlumat verilib.

Təlimdə fakültənin akademik, inzibati və tədris köməkçi heyəti iştirak edib. Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, təlim silsilə olaraq digər fakültələrdə də keçiriləcək.



# Ekologiya və torpaqşünaslıq fakültəsi və ADAU-nun birgə təşkilatçılığı ilə Respublika elmi-praktik konfransı keçirilib

*Dekabrın 6-da Ekologiya və torpaqşünaslıq fakültəsinin və Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) birgə təşkilatçılığı ilə ADAU-da Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ümumdünya Torpaq Günü: Dayanıqlı kənd təsərrüfatında torpaq amili" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.* Konfransda Kənd Təsərrüfatı Nazirliyinin Torpaqlardan istifadəyə nəzarət şöbəsi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi, Türkiyənin EGE Universitetinin Əkinçilik fakültəsi, Lənkəran Dövlət Universiteti, Azərbaycan Torpaqşünaslar Cəmiyyəti, Torpaqşünaslıq və Aqrokimya İnstitutu tərəfdaş qismində iştirak edib.

Tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi yad olunub.

ADAU-nun rektoru Zəfər Qurbanov iştirakçıları salamlayaraq bildirib ki, konfrans hər il qeyd olunan 5 Dekabr - Ümumdünya Torpaq Günündə torpağın əhəmiyyətinə diqqət ayırmaq və torpaq ehtiyatlarının davamlı idarə olunmasını təbliğ etmək məqsədilə keçirilir.

Konfransın plenar hissəsində BDU-nun Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı, dosent Akif Ağbabalı geniş məruzə ilə çıxış edib. Akif Ağbabalı ölkənin zəngin torpaq örtüyünün müasir vəziyyəti, yaranmış problemlərlə bağlı məlumat verib, onların həlli istiqamətində təkliflərlə çıxış edib. Bildirib ki, torpaqların vahid təsnifat sisteminin hələ də tam həllini tapmaması, torpaq islahatından sonra yaranan xırda torpaq mülkiyyətçiliyi şəraitində münbitliyin müqayisəli qiymətləndirilməsi üzrə metodikanın işlənilməməsi, keçmiş işğal olunmuş ərazilərdə torpaqların məqsədli təyinatı və hüquqi rejimindəki problemlər, həmçinin işğal dövründə respublikamızın digər ərazilərində torpaqdan istifadədə yaranmış ifrat yüklənmə məsələlərinin deqradasiyaya səbəb olması, torpaqların optimal idarəolunması ilə bağlı bütün təşkilatları əhatə edən vahid geoməkan məlumat bazasının yaranmaması müasir torpaqşünaslıq elmində həllini gözləyən məsələlərdəndir.

Konfrans öz işini günün ikinci yarısı bölmələrdə davam etdirib.

# Elmi seminar: "Ekoloji təmiz nanokompozit materialların qida qablaşdırılmasında tətbiq imkanları"

*Dekabrın 7-də BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının növbəti elmi seminarı keçirilib.*

Laboratoriyanın elmi işçisi Aynurə Kərimova "Ekoloji təmiz nanokompozit materialların qida qablaşdırılmasında tətbiq imkanları: icmal baxış" mövzusunda məruzə ilə çıxış edib. Seminarda qablaşdırma materialları kimi istifadə olunan bioparçalanan polimer əsaslı müxtəlif kompozitlərin dizaynı və xassələrinin tədqiqinə dair ən son işlər müzakirə edilib. Qida qablaşdırmasında ən çox istifadə olunan biomateriallar, onların xassələrinin müxtəlif modifikasiya üsullarına dair tədqiqat işləri nəzərdən keçirilib. Nanotexnologiya qidanın davamlılığı və təhlükəsizliyi ilə bağlı mövcud problemlərin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasının yeni mənbəyi kimi göstərilib. Həmçinin, keyfiyyəti təmin etmək üçün qida qablaşdırılmasının təkmilləşdirilməsi zamanı ətraf mühit şəraiti, qablaşdırma materialları və onun qida ilə qarşılıqlı əlaqə imkanları təhlil edilib.

# BDU-da "Sürünənlərin Darevskia cinsində partenogenez hadisəsi" adlı elmi seminar keçirilib

*Dekabrın 8-də Biologiya fakültəsinin nəzdində fəaliyyət göstərən "Təbiətin davamlı harmoniyası" klubunun üzvləri Hüseyn Qədirov və Amin Nurəliyevin "Sürünənlərin Darevskia cinsində partenogenez hadisəsi" mövzusunda seminarı keçirilib.*

"Təbiətin davamlı harmoniyası" klubunun rəhbəri Əbülfəz Tağıyev qeyd edib ki, kərtənkələlərin Darevskia cinsinə aid nümayəndələri Qafqazın endem növləri olub, partenogenez (bu zaman yeni orqanizm mayalanmamış yumurta hüceyrədən inkişaf edir) yolu ilə çoxalır.

Daha sonra çıxışçılar mövzu ilə bağlı geniş məlumat veriblər. Bildirilib ki, Darevskia cinsində partenogenez tez-tez təsadüf edilən hibridləşmənin nadir və spesifik nəticəsidir. Bu da obliqat partenogenezin təbiətdə nadir hallarda rast gəlinməsinin əsas səbəbidir.

Biologiya fakültəsinin dekanı Afət Məmmədova təqdim edilmiş müasir elmi faktların əhəmiyyətini vurğulayıb, bu mövzuda araşdırmaların molekulyar səviyyədə davam etdirilməsini təklif edib.

Seminar müzakirələrlə davam edib.

# "Fizikada müasir trendlər" mövzusunda 8-ci Beynəlxalq elmi konfrans başa çatıb

*Dekabrın 1-də BDU-nun ev sahibliyi və təşkilatçılığı, İtaliyanın Milli Nüvə İnstitutu, ABŞ-ın Delavare Universiteti, Pakistanın Lahore Universiteti və COMSATS İslamabad Universiteti, Türkiyənin Ankara Universiteti, Orta Doğu Texniki Universiteti, Qazi Universiteti və Sivas Cümhuriyyət Universitetinin həmtəşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Fizikada müasir trendlər" ("Modern trends in physics") mövzusunda 8-ci Beynəlxalq elmi konfrans başa çatıb.*

Konfransın bağlanış mərasimində çıxış edən BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, beynəlxalq tədbirə Azərbaycan alimləri ilə bərabər, 25 ölkədən 51 iştirakçı qatılıb. Ümumilikdə konfransa 149 məruzə daxil olub. Plenar iclaslarda 16, bölmələrdə isə 100-dən artıq məruzə dinlənilib. Konfrans zamanı elmi tədqiqatların müasir çağırışlara cavab verən yeni istiqamətləri barədə çoxsaylı fikirlər səsləndirilib, birgə əməkdaşlığın perspektivləri müzakirə olunub.

BDU rektorunun elm və təhsil üzrə müşaviri Aydın Kazımzadə ildən-ilə konfransın əhatə dairəsinin və elmi səviyyəsinin yüksəldiyini qeyd edib. O diqqətə çatdırıb ki, konfrans Azərbaycanın gələcək inkişafı və beynəlxalq əlaqələri baxımından mühüm əhəmiyyətə malikdir.

Mərasimdə iştirak edən xarici ölkə nümayəndələri konfransın yüksək səviyyədə təşkil olunduğunu, müzakirə olunan məsələlərin aktuallıq daşıdığını qeyd edib, təşkilatçılara təşəkkürlərini bildiriblər.

Sonda konfransın işində fərqlənən alimlərə sertifikatlar təqdim olunub.

# Fizika fakültəsinin əməkdaşları Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun fəaliyyəti barədə məlumatlandırılıb

*Dekabrın 1-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Fizikada müasir trendlər" ("Modern trends in physics") mövzusunda Beynəlxalq elmi konfrans çərçivəsində Fizika fakültəsində keçirilən elmi seminarda Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (Dubna) Nüvə Problemləri Laboratoriyasının direktoru, fizika-riyaziyyat elmləri doktoru Yevgeni Yakuşev məruzə edib.*

O bildirib ki, Birləşmiş Nüvə Tədqiqatları İnstitutu Rusiyanın Moskva vilayətinin Dubna şəhərində yerləşən, 13 iştirakçı dövlətin təsisçisi olduğu beynəlxalq hökumətlərarası elmi-tədqiqat təşkilatıdır. İnstitutda nəzəri və eksperimental tədqiqatların əsas istiqamətləri - nüvə fizikası, elementar hissəciklər fizikası və maddənin kondensə olunmuş halı araşdırılır. Yevgeni Yakuşev rəhbərlik etdiyi Nüvə Problemləri Laboratoriyasında aparılan əsas elmi fəaliyyətdən, laboratoriyanın tarixindən və onun müasir elmi-tədqiqat problemlərindən də danışıb. Qeyd edib ki, bu laboratoriyada dünyada çox məşhur olan təcrübələr, nadir proseslərin tədqiqi, neytrino, yüksək enerjilər fizikası və tətbiqi tədqiqatlar aparılır. Azərbaycan Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun təsisçilərindən biri olduğu üçün azərbaycanlı alimlər laboratoriyada aparılan bütün tədqiqatlarda iştirak edə və müasir nüvə fizikası sahəsində tədqiqatlar apara bilərlər.

Seminarın sonunda Yevgeni Yakuşev iştirakçıları maraqlandıran sualları cavablandırıb.

# BDU-nun professoru Elşad Qurbanov “Azərbaycan Respublikasının bitki örtüyü xəritəsi”ni tərtib edib

***BDU-nun Botanika və bitki fiziologiyası kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, biologiya elmləri doktoru, professor Elşad Qurbanov “Azərbaycan Respublikasının bitki örtüyü xəritəsi”ni tərtib edib***




Xəritədə 30 ildən çox müddətdə sistemləşdirilməmiş bitkilik tiplərinin müasir vəziyyəti nizamlı şəkildə əksini tapıb. Xəritədə 89 leqenda (bitki formasiyaları) əks olunub. Xəritəyə Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik şəhadətnaməsi verilib (Şəhadətnamə № 13555-Bakı-2023). Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geodeziya və Kartoqrafiya Agentliyinin İdarə Heyəti tərəfindən “Azərbaycanın Respublikasının bitki örtüyü xəritəsi”nin bütün müstəsna hüquqlarının professor Elşad Qurbanova məxsus olması barədə arayış təqdim edilib. Bundan əlavə, xəritə AMEA-ya mühüm nəticə kimi təqdim olunub. Xəritəyə yalnız botaniklər deyil, təbiət elmləri sahəsində elmi-tədqiqat işləri yerinə yetirən mütəxəssislər, müəllimlər, magistrantlar əminliklə istinad edə bilərlər.

Qeyd edək ki, Azərbaycan Respublikasında botaniki-coğrafi rayonlaşdırma ilk dəfə 1954-cü ildə professor L.İ.Prilipko tərəfindən tərtib edilib. “Azərbaycanın bitki örtüyü xəritəsi” isə 1983-cü ildə akademik Vahid Hacıyev tərəfindən tərtib olunub. Hər bir regionun bitki örtüyü ərazinin mühit amillərinin fasiləsiz kompleks təsiri nəticəsində dəyişikliyə məruz qalır. Bu dəyişikliklər ərazinin fiziki-coğrafi şəraitindən asılı olaraq baş verir. Bitkilik tipinin geobotaniki və bioekoloji xüsusiyyətlərindən asılı olaraq yayıldığı ərazilərdə bitki örtüyünün növ tərkibində assosiasiya və formasiyalarda, layihə örtüyündə, fitosenozların senotipik xüsusiyyətlərində müəyyən dinamikalar qeydə alınır. Respublikamızın unikal təbii-coğrafi şəraiti, parçalanmış relyefi ərazinin rəngarəng bitkilik tiplərində və bitki örtüyündə qısa zaman kəsiyində ciddi, nəzərə çarpan dəyişkənliklər yaradıb. Bu, təbii faktorların təsiri ilə yanaşı, Yerdə baş verən iqlim dəyişkənlikləri, həmçinin antropogen (texnogen) amillər, urbanizasiya (infrastruktur), təbii sərvətlərin çıxarılması (emalı) və s. təsiri altında baş verir. Bu qədər dəyişikliyə məruz qalan bitki örtüyü mütəmadi tədqiq olunur, yeni məlumatlar əldə edilir. Əldə edilmiş bütün nəticələrin vaxtaşırı ümumiləşdirilməsi, pərakəndəlikdən nizamlı formaya salınması çox vacibdir. Həmin məlumatlara bu sahədə elmi-tədqiqat işləri ilə məşğul olan iddiaçıların, müəllimlərin ehtiyacı var. Bitki örtüyü canlı ekosistemin tərkib hissəsi kimi daim dəyişikliyə məruz qaldığından xəritələr, rayonlar üzrə sistemləşdirilmələr mütəmadi olaraq yenilənməlidir.

# İnformasiya və sənəd menecmenti fakültəsində özbəkistanlı alimlərlə görüş

***Dekabrın 13-də Özbəkistanın Əlişir Nəvai adına Dövlət Pedaqoji Universitetinin bir qrup professor-müəllim heyəti İnformasiya və sənəd menecmenti fakültəsində olublar.*** Görüş zamanı fakültə rəhbərliyi tərəfindən dost və qardaş ölkədən gələn qonaqlara ölkəmizdəki təhsil mühiti, BDU-nun tarixi və bu günü, eyni zamanda İnformasiya və sənəd menecmenti fakültəsi barədə geniş məlumat verilib. Torpaqlarımızın işğal altında olduğu dövrlərdə Özbəkistanın hər zaman Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyi, Vətən müharibəsi günlərində ölkəmizə siyasi dəstək verdiyi xatırlanıb. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə Füzuli şəhərində Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin artıq istifadəyə verildiyi minnətdarlıqla qeyd olunub.



Görüşdə çıxış edən Əlişir Nəvai adına Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı, professor Dilorom Şəmsiyeva “Heydər Əliyev İli”ndə Ulu Öndərin məzunu olduğu BDU-da olmaqlarından məmnunluğunu ifadə edib. O, eyni soya, ortaq tarixə və mədəniyyətə malik xalqlarımızın dostluq və qardaşlıq münasibətlərindən bəhs edib, qardaş ölkələr arasında əlaqələrin möhkəmlənməsində Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini vurğulayıb. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin səyləri ilə dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını bildirib. “Universitetlərdə biliyin qiymətləndirilməsi meyarlarları” mövzusunda məruzə edən professor Dilorom Şəmsiyeva Özbəkistan və Azərbaycan universitetlərinin qarşılıqlı əlaqələrindən bəhs edib, biliyin qiymətləndirilməsi ilə bağlı hər iki ölkədə mövcud olan təcrübəni diqqətə çatdırıb. Qardaş ölkələrin ali təhsil müəssisələrinin iş metodları barədə müqayisəli təhlillər aparıb, bir sıra təkliflər səsləndirib.

Sonra Əlişir Nəvai adına Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Feruzə Cumayeva və dosent Gülsənəm Norova məruzələrlə çıxış ediblər. Məruzələrdə Azərbaycanla Özbəkistan arasındakı tarixi münasibətlərdən, ədəbi-mədəni əlaqələrdən, elm və təhsil sahəsindəki əməkdaşlıqdan bəhs olunub, perspektiv hədəflərdən danışılıb. Qonaqlar həmçinin fakültənin professor-müəllim heyəti və tələbələri ilə müxtəlif mövzularda diskussiya aparıblar.

# BDU əməkdaşı KOBİA-nın keçirdiyi 4-cü qrant müsabiqəsinin qalibi olub

***BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi, Fizika fakültəsinin III kurs doktorantı Orxan Güləhmədov Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təhsil, elm, tədqiqat və dəstək sahələri üzrə layihələrin maliyyələşdirilməsi məqsədilə keçirdiyi 4-cü qrant müsabiqəsinin qalibi olub.***

Orxan Güləhmədovun “Triboelektrik nanogeneratorlar əsasında hibrid formalı enerji sisteminin yaradılması və ağıllı bel çantasına inteqrasiya edilməsi” adlı layihəsi çərçivəsində mikro strukturlu neylon və poliuretan materiallarından istifadə edilməklə çoxqatlı triboelektrik nanogeneratorların (TENG) yaradılması, TENG-in çıxış performansının artırılması üçün səthdə nanostrukturların formalaşdırılması, külək, günəş və biomexaniki enerjini elektrik enerjisinə generasiya edən hibrid sistemin yaradılması və inkişaf etdirilməsi, portativ elektronik cihazlarda hibrid sisteminin tətbiq imkanının yoxlanılması həyata keçiriləcək. Layihənin icrası zamanı əldə olunan məhsulun bazar dəyəri müəyyən olunacaq və davamlılıq testləri də aparılacaq.

# BDU-da radiasiyanın nanokompozitlərin strukturuna təsiri öyrənilir

***BDU-nun Nanomateriallarin kimyəvi fizikası kafedrasının doktorantı Məhəmməd Bağır Bağırov, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının əməkdaşları Mustafa Muradov, Qönçə Eyvazova, Sevinc Məmmədyarova, Lalə Qəhrəmanlı, Günel Əliyeva, Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstutunun əməkdaşı Elçin Hüseynov, Geologiya və Geofizika İnstitutunun əməkdaşı Məhəmmədəli Abdullayevin “Qamma radiasiyanın təsirinə məruz qalmış GO və GO/PVA kompozitlərinin struktur və optik xassələrinin xüsusiyyətləri” ("Features of structure and optical properties GO and a GO/PVA composite subjected to gamma irradiation”) adlı məqaləsi Q2 kvartilli "RSC Advances" jurnalında dərc olunub.***

Məqalədə müxtəlif dozalarda şüalandırılma zamanı qrafen oksid (GO) və GO/PVA nanokompozitlərinin struktur, morfoloji və optik xassələrinin dozadan asılı olaraq dəyişməsi tədqiq edilib. Nanokompozitlərdə struktur dəyişiklikləri müxtəlif dozalarda radiasiyaya məruz qalma nəticəsində yaranan hər hansı dəyişikliyi təyin etməyə imkan verən Rentgen şüalarının difraksiyasından (XRD) istifadə edərək təhlil edilib. Bundan əlavə, nümunələrin element tərkibinə dair məlumatlar əldə etmək üçün enerji-dispersiv spektrometrdən (EDS) istifadə etməklə elementar analiz aparılıb. Nümunələrin optik xassələri ultrabənövşəyi-görünən (UV-Vis), Furye-transform infraqırmızı (FTIR), Raman spektroskopiyası, morfologiyası isə skanedici elektron mikroskopiya (SEM) vasitəsilə tədqiq edilib. Tədqiqatda qamma radiasiyasının təsiri altında nümunələrdə olan qalıq qrafitin parçalanması və oksidləşməsi müşahidə olunub. Artan şüalanma dozası ilə nümunələrin qadağan olunmuş zonasının azalması müəyyənləşib. Bu müşahidə göstərir ki, radiasiyaya məruz qalma nanokompozitlərin elektron xassələrinə təsir edib və onların optik davranışında dəyişikliklərə səbəb olub. FTIR və EDS nəticələri şüalanmanın təsiri ilə oksid qruplarının reduksiya olunmasını göstərir.

# AzTV-nin əməkdaşının BDU tələbələri üçün təlimi

***Dekabrın 1-də İnformasiya və sənəd menecmenti fakültəsinin tələbələri üçün Azərbaycan Dövlət Televiziyasının əməkdaşı Vüsal Mətləb tərəfindən "Xəbər nədir? O necə hazırlanmalıdır?" mövzusunda təlim keçilib.***

Təlimçi öncə bir zamanlar təhsil aldığı fakültədə yenidən tələbələrlə görüşün xoş olduğunu qeyd edib. Sonra xəbərin formulu, strukturu, yazılma qaydaları müxtəlif xəbər agentliklərinin materialları əsasında konkret nümunələr şərh olunub. İnformasiya sənayesinin sürətlə inkişaf etdiyi müasir dövrdə xəbər istehsalının spesifik xüsusiyyətlərini izah edən Vüsal Mətləb ilkin məlumatın əldə edilməsi, emalı və ötürülməsi prosesi barədə tələbələrdə geniş təsəvvür yaradıb, xüsusilə özünün bu sahədəki təcrübəsini bölüşüb. Eyni zamanda, müasir informasiya məkanında səhih xəbərlərlə yanaşı yalan, təhrif olunmuş xəbərlərin də mediada özünə asanlıqla yer tapdığını, bu tendensiyanın bütün dünyada geniş yayıldığını bildirib: "Bu kimi halların geniş vüsət almaması üçün hər hansı xəbər ilkin və etibarlı mənbədən alınmalı, eyni zamanda informasiyanın mahiyyətinə uyğun müvafiq rəsmi qurumlarla dəqiqləşdirmə aparılmalıdır. Həmçinin xəbərin mahiyyətinə uyğun olaraq qarşı tərəflərin mövqeyi xəbərdə əks olunmalıdır".



Təlim zamanı reportyorun hadisə yerində işləmək bacarıqları və vərdişləri, təhlükəli zonalarda çalışmaq riskləri, operativ və qərəzsiz xəbər çatdırma üsulları kimi mühüm məsələlərə toxunulub.

İnteraktiv formada keçirilən təlimdə tələbələrə xəbərin əldə olunması, hazırlanması və ötürülməsi barədə konkret tapşırıqlar verilib, onların cavabları müvafiq şəkildə qiymətləndirilib və mövzu ilə bağlı suallar cavablandırılıb.



# Xalq artisti Cahangir Novruzovla görüş

***Dekabrın 4-də BDU-da tanınmış aktyor və rejissor, Xalq artisti, Türkiyənin Adana Çukurova Universitetinin professoru Cahangir Novruzovla görüş keçirilib.***

Qonağı salamlayan BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev milli-mənəvi, mədəni dəyərlərin qorunmasında belə görüşlərin önəmini qeyd edib, suveren, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın çiçəklənməsində gənclərin böyük rola malik olduğunu qeyd edib. O bildirib ki, il ərzində BDU-da mədəni-kütləvi proqramlar təşkil olunur, tanınmış mədəniyyət xadimləri ilə görüşlər keçirilir.

Cahangir Novruzov Azərbaycanın ən qədim ali təhsil ocağının tələbələri ilə görüşün təşkilinə görə təşəkkürünü bildirib. Tanınmış sənətkar milli kino və teatr sənətinin hazırkı durumu, inkişaf perspektivləri, sənətə gəlişi, çəkildiyi filmlər, rol aldığı tamaşalarda yaratdığı obrazlar, Türkiyədəki fəaliyyəti barədə danışıb, tələbələrin suallarını cavablandırıb. O, Azərbaycanda yaşadığı dövrdə tamaşa və kinolarda çəkilişlər zamanı yaddaqalan məqamlarla bağlı xatirələrini gənclərlə bölüşüb, onlara öz tövsiyələrini verib.

# Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

***Dekabrın 6-də Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə Heyətinin sədri Zahid Oruc Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb.***

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev müasir cəmiyyətimizdə baş verən proseslərə üçüncü tərəfdən nəzər yetirmək, münasibət bildirmək baxımından aparılan sosial tədqiqat və sorğuların əhəmiyyətli olduğunu qeyd edib. Bildirib ki, Zahid Orucun rəhbərlik etdiyi Sosial Tədqiqatlar Mərkəzi cəmiyyətin sosial sifarişlərinin öyrənilməsi sahəsində önəmli rola malikdir.



STM-in İdarə Heyətinin sədri Zahid Oruc "Azərbaycan gəncliyinin barometri: dəyərləri, həyat tərzi və ictimai-siyasi aktivliyi" mövzusunda ictimai rəy sorğusunun nəticələri əsasında hazırlanmış tədqiqat layihəsini təqdim edib.

Aparılan sosial tədqiqatların cəmiyyətimizdə olan dövrü dəyişiklikləri əks etdirdiyini deyən Zahid Oruc sosial medianın insanlara təsirinin çox olduğunu və hətta cəmiyyətimizdə güzgü funksiyasını yerinə yetirdiyini də bildirib.

Görüş diskussiya şəklində, tələbələrin suallarının cavablandırılması ilə davam edib.

# AzTV-nin baş redaktorunun müavini ilə görüş

***Dekabrın 6-da Jurnalistika fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin baş redaktorunun müavini Ruslan Həsənovla görüş keçirilib.***

Ruslan Həsənov "Müasir televiziya jurnalistlərindən tələb olunan bacarıqlar", "Xəbər süjetləri hazırlanarkən hansı nüanslara diqqət yetirmək lazımdır?", "Ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyası" mövzularında danışıb. Bildirib ki, müasir Azərbaycan teleməkanında ənənəvilik və müasirlik vəhdət təşkil edir, jurnalistlər bu balansı qorumağı bacarmalı, özlərini hərtərəfli inkişaf etdirməlidirlər. Jurnalistikanın əsasında duran məqamlardan biri də dəqiqlikdir. Jurnalistin işinə olan məsuliyyəti eyni zamanda onun təqdim etdiyi materialın dəqiqliyi ilə ölçülür.

İnteraktiv müzakirə formatında keçirilən görüşün sonunda Ruslan Həsənov tələbələri maraqlandıran sualları cavablandırıb.

# Türkiyəli millət vəkili Sosial elmlər və psixologiya fakültəsinin qonağı olub

***Dekabrın 8-də Türkiyə Böyük Millət Məclisinin üzvü, tanınmış siyasətçi, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım Sosial elmlər və psixologiya fakültəsinin qonağı olub.*** Dekan Rövşən Cavadov qonağa fakültənin fəaliyyət istiqamətləri, mövcud ixtisaslar, müəllim-tələbə heyəti haqqında məlumat verib. Qeyd edib ki, BDU-da təhsil alan türkiyəli tələbələrin ən çox seçdikləri ixtisaslardan biri məhz psixologiyadır. Şamil Ayrım müxtəlif sahələr üzrə əməkdaşlığın önəmini vurğulayıb, fakültə rəhbərliyinə elmi fəaliyyət və tədrisin təşkilində uğurlar arzulayıb.

Türkiyəli millət vəkili sonra Sosiologiya kafedrasının professor-müəllim heyəti ilə görüşüb, müzakirələr aparıb. Müzakirələrdə Türkiyə-Azərbaycan dostluğu, qardaş ölkələr arasındakı elm, təhsil, mədəniyyət, iqtisadiyyat, siyasət, sosial əlaqələrə diqqət yetirilib. Görüşdə bu əlaqələrin daha da gücləndirilməsi üçün professor-müəllim heyəti və tələbələrin aktivliyinin artırılmasının zərurəti önə çəkilib. Postmünaqişə dövründə Qarabağın inkişafına Türkiyə Cümhuriyyətinin dəstəyi, həmçinin Azərbaycan və Türkiyə əlaqələrinin gələcək inkişaf perspektivləri istiqamətində fakültənin xətti ilə görülə biləcək işlər barəsində fikir mübadiləsi edilib.

Sosiologiya kafedrasının müdiri Rəfail Həsənov 05-06 oktyabr 2023-ci il tarixlərində Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Şəxsiyyət, cəmiyyət və dövlət XXI əsrdə: Qlobal çağırışlar və inkişaf perspektivləri" mövzusunda keçirilmiş Sosial elmlər üzrə Beynəlxalq fənlərarası elmi konfransda online qaydada məruzə etdiyinə görə Şamil Ayrıma öz təşəkkürünü bildirib, qonağa plaket və təşəkkürnamə təqdim edib.

# BDU-nun 22 əməkdaşı və tələbəsi Azərbaycan müəllimlərinin XVI qurultayında iştirak edib

***Bakı Konqres Mərkəzində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən Azərbaycan müəllimlərinin XVI qurultayı öz işinə başlayıb. Qurultaya ümumi, orta ixtisas, peşə, ali təhsil və elmi müəssisələrdən 1600-dən çox nümayəndə qatılıb.***



İki gün davam edən qurultayda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, media qurumlarının rəhbərləri, beynəlxalq, özəl, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələri, təhsil işçiləri, ekspertlər və digər qonaqlar iştirak ediblər. Bakı Dövlət Universitetinin 14 əməkdaşı və "Heydər Əliyev adına təqaüd"ə layiq görülən 8 tələbəsi də qurultay iştirakçıları arasında olublar.

Qurultay Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, şəhidlərin, eləcə də şəhid olmuş təhsil işçilərinin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Mərasimdə Ulu Öndər Heydər Əliyevə və şəhid olan müəllimlərə həsr edilmiş videoçarx nümayiş edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev hesabat məruzəsi ilə çıxış edib.

Qurultayın birinci günündə "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan təhsili", "İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış"", "Azərbaycan dili yeni çağırışlar müstəvisində", "Rəqəmsallaşma, süni intellekt və təhsilin transformasiyası", "Ümumi təhsilin məzmununa müasir yanaşmalar", "Ümumi təhsilin idarə olunmasına müasir yanaşmalar", "Peşə təhsili və gələcək üçün bacarıqlar", "Müəllim hazırlığı və müəllimlərin peşəkar inkişafının prioritet məsələləri", "Elm və ali təhsilin inteqrasiyası", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlbi: inklüziv, inteqrasiyalı və xüsusi təhsil", "Məktəbəqədər təhsilin məzmunu və əhatə dairəsinin genişləndirilməsi" mövzularında panel sessiyaları keçirilib.

# Türkiyənin Orta Doğu Texniki Universitetinin professorunun ustad dərsi

***Dekabrın 1-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Fizikada müasir trendlər" ("Modern trends in physics") mövzusunda elmi konfrans çərçivəsində Türkiyənin Orta Doğu Texniki Universitetinin professoru Təhmasib Əliyev Fizika fakültəsinin əməkdaş və tələbələri üçün "Nəzəri fizikanın müasir problemləri" mövzusunda ustad dərsi keçib.***



O qeyd edib ki, müasir fizikanın ən mühüm problemlərindən biri qaranlıq maddə problemidir. Qaranlıq maddə bizim kainatımızın təxminən 20%-ni təşkil edir. Məruzəçi müasir fizikanın digər problemi kimi Hiqqs sahəsinin kvantları olan Hiqqs zərrəciyinin (bozonların) öyrənilməsini göstərib. Bu zərrəcik 2012-ci ildə Avropa Nüvə Tədqiqatları Mərkəzində (CERN) kəşf olunub. Təhmasib Əliyev fizikanın aktual problemlərindən birinin də yeni ekzotik zərrəciklər olduğunu deyib. Dünyanın müxtəlif elmi mərkəzlərində yeni növ zərrəciklər – pentakvark və tetrakvarkdan ibarət sistemlər kəşf olunub. İndi belə sistemlərin sayı 20-dən çoxdur. Belə ekzotik sistemlərin varlığı barədə nəzəriyyəçi fiziklər hələ 60 il əvvəl fikir irəli sürüblər. Hazırda onların kəşfi böyük maraq kəsb edir.

Sonda məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# Tanınmış jurnalist Jurnalistika fakültəsinin tələbələrinə ustad dərsi keçib

***Dekabrın 5-də tanınmış jurnalist Ramilə Qurbanlı BDU-nun Jurnalistika fakültəsinin III kurs tələbələrinə ustad dərsi keçib.***

"İxtisaslaşmış media" fənni çərçivəsində qonaq olan jurnalist mədəniyyət və incəsənət jurnalistikası haqqında tələbələrə ətraflı məlumat verib. Tanınmış jurnalist mədəniyyət və incəsənət jurnalistikasının özəllikləri, dil-üslub xüsusiyyətləri, janr müxtəlifliyi, yazı texnikası, bu sahədə etik qaydaları əyani misallarla izah edib. Tanınmış mədəniyyət xadimləri ilə müsahibələr zamanı yaşanan maraqlı məqamları, xatirələrini bölüşüb.

İnteraktiv formada keçən dərsin sonunda Ramilə Qurbanlı tələbələrin suallarını cavablandırıb və onlara öz kitablarını hədiyyə edib.



# BDU-da Lənkəran-Astara iqtisadi rayonunda çay bitkisi sortlarının genetik müxtəlifliyinə dair elmi seminar

***Dekabrın 14-də Biologiya fakültəsində "Lənkəran-Astara iqtisadi rayonunda becərilən çay bitkisi sortlarının genetik müxtəlifliyinin qiymətləndirilməsi" mövzusunda elmi seminar keçirilib.***

Seminarda çıxış edən Genetika kafedrasının elmlər doktoru proqramı üzrə doktorantı, dosent Məmmədhüseyn Hüseynov tədqiqat işlərinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Lənkəran çay filialının sınaq təcrübə zonasında becərilən çay bitkisinin (Camellia sinensis (L.) Kuntze) müxtəlif sort və formaları üzərində aparıldığını diqqətə çatdırıb. Tədqiqat zamanı çay bitkisinin genetik müxtəlifliyi, sort və formalarının genefondu, daha məhsuldar sortların, formaların kəmiyyət və keyfiyyət göstəricilərinə təsir edən mühit amilləri araşdırılıb. Məruzəçi Azərbaycan Respublikasında yetişdirilən çay genotiplərinin genetik müxtəlifliyinin molekulyar markerlər vasitəsilə qiymətləndirilməsində müasir metodlardan istifadə edilməsini təqdim edib və 11 çay genotipində 10 RAPD praymerlərinin tətbiqini nəzərə çatdırıb.

Daha sonra genotip üzrə müşahidə olunan DNT bəndlərinin dəyişmə saylarını, RAPD markerləri tərəfindən yaradılan əsas ardıcıllıqlar və genetik variasiya parametrlərini təhlil edib.

Məruzədə test edilən sortların genotipləri arasındakı genetik oxşarlıq, morfoloji və keyfiyyət göstəricilərinin dəyişməsi, korrelyativ əlaqələri haqqında məlumatlar təqdim olunub.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

# BDU-da nanohissəciklərin canlı orqanizmlərə daxil olması və bioakkumulyasiyası mexanizmləri tədqiq olunur

***Dekabrın 15-də BDU-nun Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilov, Zoologiya və fiziologiya kafedrasının dosenti Çingiz Məmmədov və Biofizika və biokimya kafedrasının doktorantı Aysel Hacıyevanın həmmüəllifi olduqları "Akvakultura şəraitində yetişdirilən Adi çəkinin (Cyprinus carpio Linnaeus, 1758) bağırsaqlarında dəmir nanohissəciklərinin toplanmasının ultrastruktur xüsusiyyətləri" adlı məqalə "Web of Science" elmmetrik bazasına daxil olan (IF:6.8) "Ecotoxicology and environmental safety" jurnalında dərc olunub***

Nanotexnologiyaların inkişaf etdiyi dövrdə tərkibi nanohissəciklərdən ibarət olan bir çox maddələrin istehsalı müxtəlif nanozərrəciklərin ətraf mühitə, o cümlədən də su ekosisteminə düşməsinə gətirib çıxarır. Tədqiqat işinin əsas məqsədi akvakultura şəraitində yetişdirilən Adi çəkinin (Cyprinus carpio Linnaeus, 1758) nazik bağırsağına $Fe_3O_4$ nanohissəciklərinin daxil olması və bioakkumulyasiyasının, həmçinin baş verən patomorfoloji dəyişikliklərin işıq və elektron mikroskopik üsulların köməyilə ultrastruktur xüsusiyyətlərinin öyrənilməsidir.

# BDU tələbələri üçün seçki hüququ ilə bağlı maarifləndirici seminar keçirilib

***Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı və Mərkəzi Seçki Komissiyasının (MSK) dəstəyi ilə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezident seçkilərində ilk dəfə səs verəcək tələbələr üçün seçki hüququ ilə bağlı maarifləndirici seminarların keçirilməsinə başlanılıb.***

Tədbirdə əsas məqsəd seçki sistemi, seçicinin hüquq və vəzifələri barədə maarifləndirmə, habelə baş tutacaq seçkilərdə ilk dəfə seçici kimi iştirak edəcək tələbələrin məlumatlılıq səviyyəsinin və seçici fəallığının artırılmasıdır.

Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Seçenov adına Moskva Tibb Universitetinin Bakı filialı və Azərbaycan Kooperasiya Universitetində keçirilən ilk məlumat sessiyalarında səsvermə hüququna malik yüzlərlə tələbə iştirak edib. MSK nümayəndələrinin iştirakı ilə reallaşan görüşlərdə gənclərə səsvermə proseduru, eləcə də seçki günündək və seçkilər zamanı bilməli olduqları zəruri hüquqi məsələlər çatdırılıb, tələbələri maraqlandıran suallar cavablandırılıb.

Genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində reallaşdırılan məlumat sessiyalarının ölkə üzrə fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində davam etdirilməsi nəzərdə tutulub.

# “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin məlumatlandırma sessiyası

*Dekabrın 1-də BDU-da “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin məlumatlandırma sessiyası keçirilib.*




Sessiya zamanı çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov son illər ölkədə könüllülük hərəkatının geniş vüsət aldığını və gənclər siyasətinin əsas fəaliyyət istiqamətlərindən birinə çevrildiyini bildirib. O, könüllülük hərəkatına qoşulan tələbə-gənclərin sosial aktiv fəaliyyətinin onların gələcək karyera quruculuğunda faydalı olduğunu diqqətə çatdırıb.

“Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin sədri Leyla Zeynalova təşkilatın tarixi, əsas fəaliyyət istiqamətləri və gələcək planları barədə tələbələri məlumatlandırıb. Həmçinin təşkilatda olan könüllü fəaliyyət zamanı əldə ediləcək keyfiyyətlərdən danışıb.

Sonra təşkilatın fəaliyyəti dövründə gördüyü işlər, gələcək layihələri və ümumi qaydaları özündə əks etdirən videoçarx nümayiş etdirilib. Qeyd edək ki, ənənəvi olaraq hər tədris ilində təşkil olunan məlumatlandırma sessiyası tələbələr arasında sosial aktivliyi gücləndirmək, yeni bacarıqları inkişaf etdirmək, təşkilatın missiya və hədəflərini daha dolğun şəkildə çatdırmaq məqsədi daşıyır.

# “BDU könüllüləri” təşkilatının “Lin-Orph” musiqi klubunun Beynəlxalq Könüllülər Gününə həsr olunmuş konsert proqramı

*Dekabrın 5-də “BDU könüllüləri” təşkilatının “Lin-Orph” musiqi klubunun təşkilatçılığı ilə 5 dekabr – Beynəlxalq Könüllülər Gününə həsr olunmuş konsert proqramı təşkil olunub.*

Proqramda könüllülərin ifasında “Xəzərin sahilində”, “Məhəbbət çırağı”, “Azərbaycan”, “Xatirə” kimi musiqi nömrələri səsləndirilib. Konsert proqramı tələbələrdə yüksək ovqat və xoş əhval-ruhiyyə yaradıb. Qeyd edək ki, BMT Baş Assambleyasının 1985-ci il dekabrın 17-də qəbul etdiyi qətnaməyə əsasən, hər il dekabrın 5-i dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. 2019-cu ildən fəaliyyət göstərən "BDU könüllüləri" təşkilatı hazırda öz ətrafında 1000-ə yaxın könüllü tələbəni birləşdirir. Təşkilat 2020-ci ildən başlayaraq bir sıra uğurlu layihələr həyata keçirib, BDU-da könüllülük hərəkatının genişlənməsində, tələbə təşkilatları ilə birgə sosial və mədəni-kütləvi tədbirlərin təşkilində fəal iştirak edib.

Hazırda könüllü tələbələr BDU-nun müxtəlif struktur bölmələrində fəaliyyət göstərməklə Universitetin ictimai həyatında fəal iştirak edirlər. Bu ilin ilk yarısında “BDU könüllüləri” təşkilatının təşəbbüsü ilə müxtəlif səpkili 77 sosial və mədəni-kütləvi tədbir keçirilib.

# BDU tələbələri narkomaniyanın mənfi təsirləri barədə məlumatlandırılıb

*Dekabrın 5-də Mexanika-riyaziyyat fakültəsinin və Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə “Narkomaniyaya yox deyək!” adlı tədbir keçirilib.*



Tədbirdə çıxış edən BDU-nun Psixologiya kafedrasının müəllimi Nigar Nəsirova narkomaniyanın cinayətkarlığa, zorakılığa yol açdığını, hazırda ciddi qlobal problemə çevrildiyini, narkotik vasitələrdən istifadə edən şəxslərin özlərini uğurlu gələcəkdən məhrum etdiklərini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Səhiyyə Nazirliyinin Bakı Şəhər Narkoloji Dispanserinin həkim-narkoloqu Fizzə Baxışova isə qeyd edib ki, narkotik vasitələr tez bir zamanda asılılıq yaradan bitki və ya sintetik mənşəli toksik maddə olduğundan insanın bütün orqanizminə, davranışına, düşüncə səviyyəsinə xüsusi təsir göstərir. Bunun nəticəsində şəxsiyyətin xarakteri, həyat tərzi dəyişir və əvvəlki sağlam vərdişlər itirilir. Narkotik maddələrdən asılı olan şəxslərdə ən çox müşahidə olunan somatik ağırlaşmalardan aseptik qaydaları və immun sisteminin pozuntuları nəticəsində əmələ gələn müxtəlif infeksiyaları göstərmək olar. Bu cür insanlarda İnsanın İmmunçatışmazlığı Virusu (İİV), sifilis, hepatit B və C yoluxması çox yüksək dərəcədə müşahidə olunur. Yeniyetmə və gənclər arasında narkomaniyanın inkişaf tendensiyasına da toxunan Fizzə Baxışova bunu maarifləndirmənin yetərli qədər olmaması ilə əlaqələndirib.

Mexanika-riyaziyyat fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Murad Muradov və III kurs tələbəsi Nuray Cəfərova çıxışlarında cəmiyyətin bəlasına çevrilmiş "ağ ölüm"ə qarşı mübarizədə gənclərin rolundan danışıblar.

Sonda psixoloq Nigar Nəsirova tərəfindən iştirakçılar üçün proektiv metodika keçirilib.

# Birinci “Yüksəliş” müsabiqəsinin qalibi proqrama qəbul olunan BDU tələbələri ilə görüşüb

*Dekabrın 4-də “Yüksəliş” müsabiqəsi qaliblərinin tələbələrlə Mentorluq proqramının növbəti görüşü keçirilib.*

Birinci “Yüksəliş” müsabiqəsinin qalibi Ruslan Mirzəliyev proqrama qəbul olunan BDU-nun tələbələri Cavid Mirzəzadə, Nihad Rəhimli və Eltac Allahyarlı ilə tanışlıq görüşü keçirib. Ruslan Mirzəliyev DOST Agentliyinin fəaliyyəti çərçivəsində cəmiyyətdə sosial məsələlərin həlli, texnologiya və innovasiyanın tətbiqi, tələbələrin cəmiyyət üzərində innovativ sahələrdə qazandığı təcrübələrdən danışıb. O, tələbələri fərdi inkişaf istiqamətləri barədə məlumatlandırıb, onlara həm fərdi, həm də sosial sahədə daha böyük nailiyyətlər qazanmaq üçün kömək göstərəcəyini bildirib. Ruslan Mirzəliyev Mentorluq proqramının gələcək gedişatı ilə bağlı atılacaq addımları bölüşüb.

# SABAH qruplarında ingilis dilinin tədrisi təkmilləşdirilir

*Dekabrın 4-də BDU-nun SABAH qruplarında ingilis dilinin tədrisinin təkmilləşdirilməsi istiqamətində davamlı addımlar atılır. BDU SABAH Mərkəzi tərəfindən xarici dili tədris edən müəllim heyəti üçün panel müzakirə keçirilib.*

SABAH qruplarının müəllimləri Abdulxaliq Məmmədli və Aynur Budaqovanın moderatorluğu ilə baş tutan panel müzakirədə təlim və tədris prosesi üçün istifadə olunan dərsliklərdən, əlavə autentik materiallardan və onların tədris üçün yararlılıq səviyyəsindən danışılıb. Müzakirələr zamanı fənnin öyrənilməsi üçün zəruri informasiyanı özündə əks etdirən, müəllimlə tələbə arasında əsas kommunikasiya vasitəsi olan fənn sillabusları və tələbələrin qiymətləndirmə sisteminin obyektivliyi prioritet istiqamətlərdən biri kimi qiymətləndirilib.

Görüş müddətində BDU-nun SABAH qruplarının tələbələri arasında aparılan sorğunun nəticələri və tələbələrin təklifləri səsləndirilib. Sonda tədbir iştirakçıları tərəfindən bir sıra təkliflər irəli sürülüb, məsələ ilə bağlı suallar cavablandırılıb.

# Tələbələrimiz "BrainGame" intellektual oyun hakatonunun qalibi olub

***Dekabrın 14-də BDU-nun SABAH qruplarının Kompüter elmləri və texnologiyaları ixtisası üzrə I kurs magistrantı Sərxan Abbaszadənin layihə rəhbəri olduğu “85 Games Studio” komandası “Brain Game” intellektual oyun hakatonunda I yerə layiq görülüb, 5000 AZN mükafat qazanıb.*** SABAH qruplarının bakalavriat səviyyəsinin tələbəsi Sevil Rəsulova və SABAH məzunları - Əli Məmmədli, Cənnət Səmədovun “Kript10” komandası isə həvəsləndirici mükafata (1000 azn) layiq görülüblər.

“Brain Game” intellektual oyun hakatonu "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzində keçirilib. Hakaton Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İnnovasiyalar Mərkəzi”nin və "Azərlotereya” ASC-nin birgə təşkilatçılığı ilə reallaşdırılıb. Məqsəd ölkəmizdə intellektual oyunların yaradılması sahəsində proseslərin təşviqi, yeni oyun əsaslı həllərin yaradılması və cəmiyyətin intellektual potensialının artırılmasıdır.

Tədbir çərçivəsində hər biri 3-5 nəfərdən ibarət 20 komanda yaradıcı və innovativ oyun layihələri hazırlayıb. Mentorlar göstərilən müddət ərzində prototiplərin hazırlanıb sonlandırılması üçün komandalara dəstək göstəriblər.

Bağlanış tədbirində komandalar tərəfindən hazırlanan layihələr münsiflər heyəti tərəfindən qiymətləndirilib. Münsiflər heyəti qismində Dövlət Agentliyinin sədrinin müşaviri Mehdi Cavadov, “İnnovasiyalar Mərkəzi”nin direktoru Vüsal Rüstəmov, “Azərlotereya”nın İdarə Heyətinin sədri Osman Karakuş, “Code Academy”nin rəhbəri Ülvi Aslanov və “DynamicBox Studio” şirkətinin oyun prodüseri Şahin Əliyev iştirak ediblər. Nəticələrə əsasən, “85 Games Studio” komandası I, “EcoDev” komandası II, “Bomba!” komandası isə III yerə layiq görülüb. Sonda qaliblərə müvafiq olaraq 5000, 2000 və 1000 manat məbləğində pul mükafatı və diplomlar təqdim olunub. Növbəti yaxşı nəticə göstərən “Kript 10” və ”AKA” komandaları isə həvəsləndirici mükafat alıb.

# BDU-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbir keçirilib.***





Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, 2023-cü il xalqımızın və dövlətimizin taleyinə ən əlamətdar illərdən biri kimi həkk olunub. Bu il Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz suverenliyimizi bərpa edib. Qarabağda erməni seperatizmi darmadağın olunub, Xankəndidə, Əsgəranda, Xocalıda bayrağımız ucaldılıb. Bu parlaq qələbəmiz məhz Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət müstəqilliyimizin möhkəm təməllərinin qoyulması, milli ruh, azərbaycançılıq məfkurəsinin yüksəlməyə başlaması, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar sayəsində qazanılıb. Bu il xalqımız müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, BDU-nun dünya şöhrətli məzunu, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini böyük sevgi və ehtiramla qeyd edir. Ulu Öndərimizin irsinin tədqiqini, təbliğini özünün ən ali məqsədlərindən biri sayan BDU kollektivi də bu müqəddəs missiyaya öz töhfəsini verib. BDU Elmi Şurasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Tədbirlər Planı qəbul olunub. Tədbirlər Planına uyğun olaraq, il ərzində Ulu Öndər Heydər Əliyevin mənalı həyatı və zəngin dövlətçilik fəaliyyəti ilə bağlı beynəlxalq konfranslar, seminarlar, xüsusi mühazirələr, ustad dərsləri və s. çoxsaxəli tədbirlər keçirilib, kitablar nəşr olunub.



Əliş Ağamirzəyev qeyd edib ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır: "1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ümummilli Lider Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bundan sonra bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikası Ali Sovetində qərar qəbul olundu. 1992-ci ildən etibarən isə bütün ölkəmizdə bu bayram dövlət səviyyəsində qeyd olunmağa başladı. Ulu Öndərin bütün arzuları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilib. Ümummilli Liderin bütün dünya azərbaycanlılarını Vətən uğrunda birləşdirmək ideyası reallaşıb, ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Ölkəmizin indiki qələbələrinin təməlində məhz Ulu Öndərin dövlətçilik siyasəti, azərbaycançılıq məfkurəsi dayanır".

Daha sonra BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri Mehman Abdullayev, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti Məti Osmanoğlu çıxışlarında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün tarixi əhəmiyyətindən söz açıb, bu ənənənin dünya azərbaycanlılarının milli kimliyinin inkişafındakı önəmindən bəhs ediblər.

Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bayram proqramı ilə davam edib.

# BDU-nun "Heydər Əliyev adına təqaüd"çüsü: "Təqaüdümün bir hissəsini "YAŞAT" Fonduna ianə edəcəyəm"

*"Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev adına təqaüd"ə layiq görülən və ölkə üzrə təhsildə yüksək nailiyyətləri olan 100 tələbənin adı açıqlanıb. Bu yüksək mükafatı qazanan gənclərdən 8-i BDU-nun tələbəsidir. Ümummilli Lider, Müstəqil Azərbaycanın memarı, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin adını daşıyan təqaüdü qazanmış tələbələrimizi siz də tanıyın*

***Hüseyn Zaur oğlu Quliyev Tarix fakültəsinin Tarix ixtisasına (tədris ingilis dilində) 2021-ci ildə 553 balla daxil olub. Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) 96.88-dir. Hazırda fakültədə ən yüksək nəticəyə malik tələbədir.***



***- Hüseyn, səni bir daha təbrik edirik. Ulu Öndərin adını daşıyan təqaüdü qazanan 100 tələbədən biri olmaq necə hissdir?***

- Məhz 100 tələbədən biri olduğumu indi sizdən öyrəndim. Təbii ki, çox möhtəşəm duyğudur. Bu təqaüdün mənəvi dəyəri, məsuliyyəti də böyükdür. Əvvəla, Ulu Öndər Heydər Əliyevin adını daşıyır. Ulu Öndər Heydər Əliyev də Bakı Dövlət Universitetinin Tarix fakültəsinin məzunudur. Universitetimizin ən böyük məzunudur. Məhz Ulu Öndərin məzunu olduğu fakültənin tələbəsi kimi bu təqaüdü qazanmaq tam fərqli duyğular yaradır.

***- Bu təqaüdü qazanacağını gözləyirdinmi?***

- Məktəbli olduğum dövrlərdə də Ulu Öndərin adı ilə bağlı bir çox layihə və müsabiqələrdə müxtəlif yerlərə layiq görülmüşəm. Amma bu, ən böyüyü idi. Azərbaycanın tarixində özü tarix yaradan dahi şəxsiyyətin məzunu olduğu Universitetdə ölkəmiz üzrə 100 nəfərdən biri olmağın mənəvi dəyəri maddi dəyərindən qat-qat artıqdır. Mənim üçün gözlənilməz oldu. Amma düşünürəm ki, bu mükafatı çalışmağımın bəhrəsi kimi qazanmışam.

***- Gələcək hədəflərin nələrdir?***

- Düşünürəm ki, ölkəmizin hüquqlarını tariximizlə müdafiə edə bilərəm. Gələcəkdə Xarici İşlər Nazirliyi sistemində çalışmaq istəyirəm. Bunun üçün dil biliklərimi və ümumi dünyagörüşümü inkişaf etdirirəm.

***- Belə bir məşhur deyim var: "Tarix unudulanda təkrarlanır". Tariximizin təbliği, inkişafı və tədrisi ilə bağlı fikirlərin necədir?***

- Tarixə obyektiv yanaşmanın tərəfdarıyam. Hazırda BDU-nun Tarix fakültəsi tariximizin öyrənilməsi və öyrədilməsi istiqamətində fəaliyyəti ilə digər universitetlər arasında seçilir. Fakültədə aparılan elmi işlərdə tələbələrin də iştirakı təmin olunur. Məktəblərdə artıq Tarix fənninə yeni yanaşma mövcuddur. Əvvəllər yalnız xronologiya və konspektləşdirilmiş məlumatlar dərs vəsaitlərində elektronlaşdırılmış məlumatlarla və müxtəlif foto şəkillərlə əvəz edilib. Bu da məncə, məktəblilərdə Tarix fənninə marağın artmasına səbəb olur.

***- Hazırda fakültə birincisisən. Bos dərsdən kənar vaxtlarını necə planlayırsan?***

- Boş vaxtlarımda beynəlxalq mediada anti-Azərbaycan meylli xəbərləri oxuyaraq təhlil edirəm. Müxtəlif istiqamətlərdə praktiki bacarıqlarımı artırıram. Dərsdən sonra bəzi fənlər üzrə uşaqlarla məşğul oluram. Onlara müxtəlif izahlar verirəm. Bundan əlavə, yay vaxtlarında bağbanlıq etməyi, bitkilərlə məşğul olmağı çox sevirəm. Bu, sanki başqa bir rahatlıq verir.

***-Sirr deyilsə, bu təqaüdü necə xərcləməyi düşünürsən?***

- Sirdir (gülür). Bir hissəsini deyə bilərəm. Təqaüdümün müəyyən məbləğini "YAŞAT" Fonduna ianə edəcəyəm.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.12.2023

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08